

**“Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir.”**

*Heydər Əliyev*
*Azərbaycan xalqının ümummilli lideri*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

*Elmi-praktiki jurnal*

*Xüsusi buraxılış (may, 2018-ci il)*



**REDAKSİYA HEYƏTİ**

**Baş redakor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbairamov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova



**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel. / Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**



"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövrilikdə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cuil tarixli, 10/53 nömrəli "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiqedilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan "Azərbaycan Prokurorluğu" jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 31.05.2018
60x84 1/8 formatda 116 səhifə həcmdə çap olunmuşdur.
Tiraj: 770 nüsxə



© "Azərbaycan Prokurorluğu", 2018

# MÜNDƏRİCAT

## HEYDƏR ƏLİYEV – 95. Ölkədə


**4** Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

**7** Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyasında iştirak edib

**10** Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib

**20** Heydər Əliyev Mərkəzində "Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs" tarixi-sənədli sərgisinin açılış mərasimi olub

**24** Prezident İlham Əliyevin müraciəti

**24** Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin müraciəti


## HEYDƏR ƏLİYEV – 95. Prokurorluqda


**25** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinin qeyd edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun tədbirlər planı

**27** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar Baş Prokurorluqda konfrans keçirilib

**31** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar Baş Prokurorluq tərəfindən ağacəkmə kampaniyası təşkil olunub

**32** Prokurorluq işçiləri Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

**32** Baş Prokurorluğun işçiləri Heydər Əliyev Mərkəzində olublar

**33** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda elmi-praktiki konfrans keçirilib

**34** Baş Prokurorluğun idarəsində "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda tədbir keçirilib

**36** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda konfrans keçirilib

**39** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun işçiləri Heydər Əliyev Muzeyində olublar

**43** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş tədbir keçirilib

**45** Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda tədbirlər keçirilib

**46** Hərbi Prokurorluqda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda elmi-praktiki konfrans keçirilib

**49** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar tabe rayon (şəhər) prokurorluqlarında silsilə tədbirlər keçirilib


## HEYDƏR ƏLİYEV – 95. Məqalələr


**64** Səbuhi Şahverdiyev – Heydər Əliyev Azərbaycanda hüquqi islahatların banisidir

**68** Xanlar Vəliyev – Heydər Əliyevin əbədiyaşar ideyaları bu gün də, sabah da Azərbaycanın uğurlarının təminatçısıdır

**76** Nazim Abbasov – Demokratik dəyərlərə əsaslanan inkişafın Azərbaycan modeli

**79** İlqar Abbasov – Hüquqi islahatların banisi

**84** Rauf Məmmədov – Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi

**88** Nazim İmanov – Ulu öndərin ideyalarına sədaqətlə

**92** Fəxri Ələsgərov – Ədalət inkaşafa və sabitliyə əsas zəmindir

**95** Elçin Məmmədov – Ulu öndərin ideyaları yaşayır və yaşadır

**99** Azad Qarayev – Müstəqil Azərbaycan dövlətçiliyinin banisi

**101** Mübariz Əhmədov – Təkmilləşmə, inkişaf və müasirləşmə

**103** Elmar Camalov – Azərbaycan inkişaf strategiyasında Heydər Əliyev irsi

**108** Namiq Məmmədov – Heydər Əliyevin ölkənin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda gördüyü işlər

**111** Elçin Hacıyev – Mütərəqqi məhkəmə-hüquq islahatlarinin müəllifi

**113** Fuad Məmmədov – Prokurorluq orqanları Heydər Əliyev siyasətinə daim sadiq qalaraq qanunun aliliyinə dönmədən əməl edirlər

# Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü günüdür.

Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, Ulu Öndərin doğmaları və yaxınları Ümummilli Liderin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarlarını ziyarət edərək üzərinə gül dəstələri qoydular.









Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

# Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyasında iştirak edib



Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Qala-Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə aksiyasında iştirak ediblər.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev görülən işlərlə bağlı Prezident İlham Əliyevə məlumat verdi.



Dövlətimizin başçısının tapşırıqlarına və tövsiyələrinə uyğun olaraq 2008-2018-ci illərdə ölkənin əsas magistral avtomobil yolları boyunca 4443 hektar sahədə salınan yaşıllıqlarda 5 milyon 436 min müxtəlif növ ağac və kol bitkiləri əkilib. Həmin ağacların əkildiyi sahələr damcılı suvarma sistemi ilə təchiz edilib. Əsasən zeytun, badam, nar, innab, püstə, qoz və fındıq ağaclarının əkilməsinə üstünlük verilib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkdilər.

Ulu öndər Heydər Əliyevin doğum günündə Qala-Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq massivində Ekologiya və Təbii Sərvətlər Nazirliyi “Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu” Açıq Səhmdar Cəmiyyətinin tinglik sahələrində kökübağlı şəraitdə yetişdirilən 7 minə yaxın ağac əkildi.

Qeyd edək ki, ekologiyanın və ətraf mühitin mühafizəsi Azərbaycan dövlətinin qarşısında duran əsas istiqamətlərdən biridir. Ölkəmizin zəngin flora və faunasının qorunması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən bütün dövrlərdə çox böyük işlər görülüb. Ulu Öndər tərəfindən əsası qoyulan ənənəni bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Təsadüfi deyil ki, Azərbaycanda reallaşdırılan milli inkişaf strategiyasının prioritet sahələrindən biri də ətraf mühitin mühafizəsini və insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Prezident İlham Əliyev tərəfindən 2010-cu ilin ölkədə “Ekologiya İli” elan edilməsi bunun bariz nümunəsidir.

Dövlətimizin başçısı və birinci xanım ağacəkmə aksiyasının iştirakçıları ilə xatirə şəkilləri çəkdirdilər.



Prezident İlham Əliyev neftlə və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşıb. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı ölkədə ciddi əməli işlər görülüb, milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıb. Bir vaxtlar neft tullantıları ilə çirklənən indiki "Ağ şəhər" və digər ərazilərdə həyata keçirilən mühüm layihələr nəticəsində neft çöküntüləri təmizlənib. Hazırda bu ərazilər paytaxtın yeni yaşayış və mədəniyyət komplekslərinə, Prezident İlham Əliyevin dediyi kimi, müasir ekoloji layihələrə çevrilib. Bütün bunlar ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir. Ekoloji vəziyyətin yaxşılaşdırılması üçün tədbirlərin görülməsi, həmçinin qanunsuz ağac kəsilməsinə qarşı dövlətimizin başçısının nümayiş etdirdiyi qətiyyətli mövqenin təməlində isə yalnız bir amal dayanıb: insanların sağlamlığının qorunması.

Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var.

Qeyd edək ki, müxtəlif vaxtlarda həyata keçirilən ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə edib. Bu gün vətəndaşların ağacəkmə aksiyalarında, yaşıllıqlar salınmasında, şəhər və rayonlarımızda təmizlik işlərində fəal iştirakı bunun əyani göstəricisidir. Ekspertlərin fikrincə, hazırda Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunə ola bilər.

# Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib.

Heydər Əliyev Mərkəzində keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər.

Dövlət başçısı mərasimdə nitq söylədi.

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi



– Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümüdür. Bu gün Azərbaycan xalqı bir daha Ulu Öndərin əziz xatirəsinə öz hörmət və ehtiramını bildirir.

Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur.

Sovet dövründə Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə Azərbaycan uğurla, sürətlə inkişaf edib. 1969-cu ildə o, Azərbaycan Respublikasının rəhbəri seçiləndə Azərbaycan sovet məkanında ən geridə qalmış respublikalardan biri idi. Bunu sosial-iqtisadi göstəricilər də təsdiq edir. On üç il ərzində yorulmaz fəaliyyət nəticəsində Azərbaycan sovet məkanında ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Əgər sovet dövründə - 1980-ci illərdə iki donor respublika var idisə, onlardan biri Azərbaycan idi. Azərbaycan ümumittifaq xəzinəsinə daha çox vəsait verirdi, nəinki alırdı.

Məhz o illərdə Azərbaycanda sənaye inkişafı böyük templərlə təmin olunurdu. Yüngül sənayedə, ağır sənayedə, neft sənayesində böyük işlər görülmüşdür. O vaxt yaradılmış infrastruktur bu gün müstəqil Azərbaycanın inkişafına xidmət göstərir. Kənd təsərrüfatına böyük diqqət göstərilirdi. Azərbaycan böyük tikinti meydançasına çevrilmişdi. Yə-



ni, 1982-ci ilin sosial-iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, doğrudan da Heydər Əliyevin rəhbərliyi ilə 13 il ərzində böyük işlər görülmüşdür və Azərbaycan, qeyd etdiyim kimi, qabaqcıl yerlərdə idi.

Onun gördüyü işlər, prinsipiallığı, şəxsi keyfiyyətləri, əlbəttə ki, sovet rəhbərliyində də yüksək qiymətləndirilirdi. 1982-ci ildə Leonid Brejnev vəfat edəndən və Yuri Andropov hakimiyyətə gələndən sonra onun ilk təyinatı məhz Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Heydər Əliyevi Moskvaya dəvət etmiş və ona yüksək vəzifə təklif etmişdir - Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü vəzifələrini.

Mən yaxşı xatırlayıram, atam bir neçə gün tərəddüd edirdi, Azərbaycandan getmək istəmirdi. Onun gördüyü işlər, əlbəttə ki, Azərbaycanı böyük dərəcədə inkişaf etdirmişdi və Azərbaycanın gələcək inkişafı ilə bağlı böyük planları var idi. Ancaq o vaxt təbii ki, güclü nizam-intizam var idi və eyni zamanda, sovet dövləti qarşısında yeni vəzifələr durmuşdu və o, bu yüksək məsuliyyəti öz üzərinə götürmüşdü. 1982-1987-ci illərdə o, bir çox önəmli sahələrə rəhbərlik edərək sovet dövlətinin uğurlu inkişafına öz töhfəsini vermişdir. Onun bilavasitə rəhbərliyi ilə böyük infrastruktur layihəsi olan Baykal-Amur dəmir yolu uğurla inşa edilmişdir, onun tikintisi tamamlanmışdır.

Eyni zamanda, daim Azərbaycana böyük diqqət, kömək göstərirdi. Əlbəttə, onun burada gördüyü işlər və fəaliyyəti imkan verirdi ki, o, Azərbaycanı tərk edəndən sonra da Azərbaycan inkişaf etsin. Ancaq buna baxmayaraq respublikada sosial-iqtisadi göstəricilər getdikcə aşağı düşürdü, vəziyyət tənəzzülə uğrayırdı. Nəticədə 1980-ci illərin sonlarında - 1990-cı illərin əvvəllərində Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdır.

Bir sözlə, o dövrdə Ulu Öndər çox böyük işlər görmüşdür və sovet məkanında onun xatirəsinə bu gün çox böyük hörmət və ehtiram var. Mənim



onunla bərabər işləyən şəxslərlə çoxsaylı görüşlərim deməyə əsas verir ki, o, sözün əsl mənasında, böyük hörmətə layiq olan insan idi.

1987-ci ildə heç bir əsas olmadan ovaxtkı sovet rəhbərliyi tərəfindən Heydər Əliyev bütün vəzifələrdən uzaqlaşdırıldı. Bunun heç bir əsası yox idi. Çünki onun peşəkarlığı, gördüyü işlərin nəticələri, əlbəttə ki, ona qarşı edilən ədalətsizliyə uyğun gəlmirdi. Ancaq o vaxt sovet rəhbərliyində olan adamlar, sovet dövlətinin rəhbəri ona qarşı çox mənfi münasibət göstərirdi. Heydər Əliyev çox prinsipial, sözünü deyən insan idi. O görürdü ki, ölkədə vəziyyət pisləşməyə doğru gedir. O görürdü ki, real islahat əvəzinə, boşboğazlıq, populizm hökm sürür. O görürdü ki, qəbul edilmiş qərarlar sovet dövlətinin zəifləməsinə xidmət göstərir. Eyni zamanda, 1985-ci ildən başlayaraq, Sovet İttifaqında milli münasibətlər sahəsində çox böyük pozuntulara yol verilmişdir. Sovet dövlətini vahid bir dövlət kimi saxlayan, ilk növbədə, milli münasibətlərin tənzimlənməsi idi. 1985-ci ilə qədər bu münasibətlər demək olar ki, sağlam zəmində qurulmuşdur. Bütün xalqlar rahat inkişaf edə, öz mədəniyyətini qoruya bilirdilər.

Ona görə bütün bu xoşagəlməz meyillərə qarşı Heydər Əliyev biganə qala bilməzdi, öz səsini ucaldırdı və əlbəttə ki, bu, sovet rəhbərliyinin xoşuna gəlmirdi. Heç bir əsas olmadan bütün vəzifələrdən uzaqlaşdırılandan sonra Azərbaycan böyük dayağı itirmiş oldu. Bizim mənfur qonşularımız dərhal bundan istifadə etdilər, onun istefasından iki həftə keçməmiş erməni separatçıları və onların mərkəzdəki havadarları məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilsin.

Yəni, Heydər Əliyev amili, güclü şəxsiyyətin dövlətin mərkəzində olması imkan vermirdi ki, belə separatçı meyillər baş qaldırsın. Baxmayaraq ki, 1969-cu ilə qədər belə meyillər var idi. Ancaq Heydər Əliyev Azərbaycana rəhbər vəzifəsinə gələndən sonra bütün bu meyillərin qarşısı alınmışdır.

O vaxtdan xalqımıza, respublikamıza qarşı çox böyük ədalətsizliklər edilmişdir. Bunun nəticəsində Azərbaycan böyük fəlakətlə üzləşmişdir. Tam əminliklə deyə bilərəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, Azərbaycan rəhbəri kimi heç vaxt imkan verməzdi ki, separatçı meyillər baş qaldırsın və Dağlıq Qarabağ münaqişəsi başlasın.

Çünki onun qətiyyəti, cəsarəti, nüfuzu heç vaxt imkan verməzdi ki, belə meyillər mövcud olsun. Ancaq ondan sonrakı rəhbərlər, əfsuslar olsun ki, zəiflik göstərmişlər, prinsipiallıq göstərməmişlər və onlar üçün öz şəxsi karyerası xalqın mənafeyindən qat-qat böyük əhəmiyyət kəsb edirdi.

1990-cı ilə qədər Heydər Əliyev pensiyaçı kimi yaşayırdı. Baxmayaraq ki, Heydər Əliyevə qarşı mərkəzdə təşkil edilmiş qarayaxma kampaniyaları aparılırdı, ancaq Azərbaycan xalqı ona olan hörmətini daim öz qəlbində yaşadırdı. 1990-cı ilin faciəvi günlərində Heydər Əliyev əsl lider kimi yenə də öz xalqının yanında yer tutdu, xalqa yol göstərdi. Mən o dəhşətli günləri yaxşı xatırlayıram, sovet hökuməti, sovet rəhbəri tərəfindən Azərbaycan xalqına qarşı böyük cinayət törədilmişdi. Qanlı Yanvar faciəsi böyük cinayətdir, öz xalqına qarşı böyük cinayətdir. Yüzdən çox günahsız insan vəhşicəsinə qətlə yetirilmişdir, yüzlərlə insan yaralanmışdır və itkin düşmüşdür. Heydər Əliyev dərhal bu ədalətsizliyə qarşı öz səsini ucaltdı. Yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, - mən də onun yanında idim, - orada sovet rəhbərliyini, bu vəhşi aktı pislədi və Azərbaycan xalqına öz həmrəyliyini ifadə etdi. Bu, böyük cəsarət tələb edən addım idi. Çünki o vaxt Heydər Əliyev sovet təbliğatında çox böyük təzyiqlərə, böyük kampaniyalara məruz qalırdı. Ancaq xalqın ona olan sevgisini bu çirkin əməllər söndürə bilməzdi. Əksinə, xalq görürdü ki, öz liderinə qarşı böyük ədalətsizlik törədilir və onun ətrafında daha da sıx birləşməyə cəhd göstərirdi. 1990-cı il yanvarın 21-də Heydər Əliyevin Moskvada daimi nümayəndəlikdə keçirilmiş mətbuat konfransındakı çıxışı dəfələrlə dərc edilib, televiziyada göstərilib. Yenə də deyirəm, bu, böyük cəsarət tələb edən addım idi. Bu addım bir daha göstərirdi ki, Azərbaycan xalqının problemləri, mənafeyi, dərdi onun üçün hər şeydən üstündür, hər şeydən əzizdir və ağır günlərdə o, mütləq öz xalqının yanında olmalı idi. Onu da qeyd etməliyəm ki, o vaxt sovet hakimiyyəti hələ möhkəm idi, Sovet İttifaqının dağılmasına hələ iki il vaxt qalırdı. Heç kimin ağlına gələ bilməzdi ki, nə vaxtsa sovet dövləti dağılacaq.

Ondan sonra Heydər Əliyev uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarından çıxdı. Çox ciddi bəyanat vermişdi və təbii ki, ona qarşı bundan sonra da təzyiqlər, təqiblər daha da geniş vüsət almışdı, hətta tam dəqiq məlumata görə, onun həbsi məsələsi də qoyulmuşdu. Moskvada qalmaq mümkün deyildi, onun bütün ailə üzvlərinə qarşı da çox ciddi addımlar atılmışdı. Bütün ailə üzvləri tutduqları vəzifələrdən, - vəzifələr o qədər də böyük vəzifələr deyildi, adi vəzifələr idi, - çıxarılmışdı. Demək olar ki, sovet hakimiyyətinin repressiya maşınının nəticələrini biz o vaxt görmüşük və hiss etmişik.

Heydər Əliyev doğma Vətənə üz tutur və Bakıya gəlir. Əfsuslar olsun ki, Bakıda da ona yaşamağa imkan vermədilər və Naxçıvana - doğulduğu yerə gedib orada yaşamağa məcbur olur və Azərbaycan xalqı onun ətrafında birləşməyə başlayır. Azərbaycan xalqı açıq-aydın görürdü ki, bu ağır vəziyyətdən xalqı ancaq Heydər Əliyev çıxara bilər, xalqı ancaq o xilas edə bilər. Naxçıvanlılar onun ətrafında sıx birləşərək Heydər Əliyevi Ali Məclisin Sədri vəzifəsinə seçdilər və o, Naxçıvanı işğaldan qorudu. Çünki o vaxt Ermənistan Naxçıvanı da işğal etmək istəyirdi. Ancaq Heydər Əliyev buna imkan vermədi. Orada böyük səfərbərlik işləri görülmüşdür, özünümüdafiə dəstələri yaradılmışdır və Naxçıvanın işğalına imkan verilməmişdir. Naxçıvanlılar da Heydər Əliyevi qorudular. Çünki o vaxt - 1992-ci ildə hakimiyyəti qanunsuz, dövlət çevrilişi nəticəsində zəbt etmiş AXC-Müsavat hakimiyyəti Heydər Əliyevə qarşı işlərə başlamışdı və Naxçıvanda da çevriliş etmək fikirləri var idi. Hətta o vaxt Daxili İşlər Nazirliyinin daxili qoşunlarının bir dəstəsini Naxçıvana desant göndərmək istəmişlər, naxçıvanlıları, Heydər Əliyevi hədələmişdilər, ancaq sonra bu çirkin əməllərdən əl çəkməli oldular. Çünki gördülər ki, onları çox ciddi müqavimət gözləyir və bu, avantüra onlara çox baha başa gələ bilər və yenə də, - sonra da bunu dəfələrlə göstərəcəklər, - qorxaqlıq göstərərək öz çirkin niyyətlərindən əl çəkməli oldular.

Naxçıvan dövrü çox yaddaqalan dövrdür. Mən o dövrü çox yaxşı xatırlayıram. Mən dəfələrlə Naxçıvana atamın yanına getmişəm, onunla bərabər olmuşam. Çox ağır vəziyyətdə Naxçıvanın qorunması, Naxçıvanın yaşaması üçün çox böyük işlər görülmüşdür. Müstəqilliyimiz üçün də çox böyük işlər görülmüşdür. Çünki uzun fasilədən - 1920-ci ildən sonra ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin sessiyasında rəsmi dövlət bayrağı kimi təsdiq olundu. Bu, müstəqilliyə gedən yolun başlanğıcı idi.

Azərbaycanda vəziyyət getdikcə gərginləşirdi, torpaqlarımız erməni işğalı altına düşürdü. Ovaxtkı AXC-Müsavat hakimiyyəti xalqın ümidlərini doğrulda bilmədi, öz yarıtmaz, xəyanətkar siyasəti ilə Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə böyük zərbələr vurdu və demək olar ki, ölkəni idarəolunmaz vəziyyətə gətirdi. Xaos, anarxiya, talançılıq, özba-

şınalıq, siyasi, iqtisadi, hərbi böhran hökm sürürdü, torpaqlarımız işğal altına düşürdü. Azərbaycanın ovaxtkı iqtidarı isə öz laxlayan hakimiyyətini qorumaq üçün cinayətlərə, vətəndaş müharibəsinə əl atmışdır. Biz o günləri, o illəri yaxşı xatırlayırıq. Öz hakimiyyətini saxlamaq üçün Gəncəni bombalamağa qərar vermişdi və Gəncənin dağılmış binalarının o mənzərəsi bu gün bizim gözümüzün qabağındadır. Azərbaycan xalqı o anti-milli hakimiyyətə yox demişdir, cəmi bir il ona dözə bilmişdir və öz lideri ətrafında birləşmişdir. Hələ 1992-ci ildə Azərbaycanın qabaqcıl ziyalıları, tanınmış insanlar, ictimai xadimlər Heydər Əliyevə müraciət edərək partiyanın yaradılması ilə bağlı təkliflər irəli sürmüşlər və 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Bu da gənc dövlətin siyasi sisteminin yaradılması demək idi. Çünki o günə qədər Azərbaycanda siyasi sistem yox idi, siyasi münasibətlər, ümumiyyətlə, mövcud deyildi. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Bakıya gəlmişdir. Ovaxtkı AXC-Müsavat hakimiyyəti yenə də qorxaqlıq göstərərək kənara çəkilmiş, ölkə, demək olar ki, idarəolunmaz vəziyyətə düşmüşdü. O ağır, çətin vəziyyətdə xalq bu tarixi missiyanı Heydər Əliyevə həvalə etmişdir.

1993-cü ildən başlayaraq Azərbaycan bu günə qədər uğurlu inkişaf yolu ilə gedir. Baxmayaraq, 1994-cü və 1995-ci illərdə iki dəfə dövlət çevrilişinə cəhd göstərilmişdir, ancaq Azərbaycan xalqı imkan vermədi ki, cinayətkar ünsürlər hakimiyyəti bir daha qanunsuz zəbt etsinlər. Əlbəttə ki, Heydər Əliyevin nüfuzu, onun cəsarəti, onun siyasəti imkan vermədi ki, kimsə hakimiyyəti qanunsuz yollarla zəbt etsin.

Ondan sonra Azərbaycanda sabitlik dövrü başlamışdır və bu dövr bu gün də davam edir. Ölkəmiz üçün çox önəmli qərarlar qəbul edilmişdir, siyasi islahatlara start verilmişdir. Məhz o illərdə bizim inkişafımızla bağlı strateji seçimlər edilmişdir ki, Azərbaycan müasir, demokratik ölkə kimi inkişaf etməlidir. İqtisadi islahatlara start verilmiş, bazar iqtisadiyyatı prinsipləri əsas prinsiplər kimi tətbiq olunmağa başlamışdır. Azərbaycan beynəlxalq aləmlə münasibətləri qura bilmişdir və demək olar ki, müstəqilliyimizin ilk illərində mövcud olan beynəlxalq təcriddən də çıxa bilmişdir. Ölkəmiz üçün lazım olan beynəlxalq əlaqələr Azərbaycana investisiya cəlb edilməsinə gətirib çıxarmışdır. 1994-cü ildə “Əsrin kontraktı” imzalanmışdır. Bu kontraktın bizim tariximizdə, iqtisadi inkişafımızda müstəsna rolu vardır. 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edilmişdir. Eyni zamanda, 20 Yanvar faciəsinə siyasi və hüquqi qiymət verilmişdir. Əfsuslar olsun ki, ondan əvvəlki hakimiyyət bu məsələyə biganə qalmışdır. Azərbaycan uğurla inkişaf etməyə başlamışdır. 1993-2003-cü illərdə ölkə qarşısında duran vəzifələr uğurla icra edilmişdir. Ordu quruculuğu işində böyük addımlar atılmışdır, uğurlu Horadiz əməliyyatı keçirilmişdir və torpaqlarımızın bir hissəsi işğalçılardan azad edilmişdir. Yəni, 10 il ərzində Azərbaycanda dövlət quruculuğu işində çox böyük addımlar atılmışdır və bu addımlar bu gün bizim uğurlu siyasətimizi şərtləndirir.

2003-cü ilin oktyabr ayında Heydər Əliyev xalqa müraciətində görülmüş işlərlə bağlı öz fikirlərini bildirmiş və əminliyini ifadə etmişdir ki, onun davamçıları onun yolu ilə gedərək, Azərbaycanı ondan sonra da uğurla idarə edə bilərlər.

2003-cü ildə Azərbaycan xalqı mənə böyük etimad göstərmişdir və o gündən bu günə qədər çalışıram ki, bu etimadı doğruldum. 2003-cü ildə prezident seçkiləri ərəfəsində söz vermişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasəti Azərbaycanda davam etdiriləcəkdir. Fəxr edirəm ki, sözümə əməl etdim və son 15 il ərzində Azərbaycan Heydər Əliyevin qoyduğu yolla uğurla, inamla gedir. Azərbaycanda sabitlik tam təmin olunur, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Biz indi görürük ki, dünyanın müxtəlif yerlərində vəziyyət gərginləşir, yeni münaqişələr, qanlı toqquşmalar, vətəndaş müharibələri, çevrilişlər baş verir. Ona görə baş verir ki, insanlar hakimiyyətdən narazıdırlar. Ona görə baş verir ki, hakimiyyət lazım olan səviyyədə, düzgün siyasət aparmır, insanları narahat edən problemləri həll etmir, iqtisadi inkişafı təmin edə bilmir, böyük pozuntulara yol verir. Azərbaycanda isə sabitliyin təminatçısı, onun qarantı Azərbaycan xalqıdır və xalq-iqtidar birliyidir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit və ən uğurla inkişaf edən ölkələrdən biridir.

Azərbaycan dövləti möhkəm əsaslar üzərində qurulubdur. Biz son 15 il ərzində milli dəyərlərimizlə bağlı çox ciddi siyasət aparırıq. Bizim milli dəyərlərimiz, ənənəvi dəyərlər bizim üçün əsasdır. Çox şadam ki, bu gün gənc nəsil milli ruhda tərbiyə olunur və milli ləyaqət hissləri güclənir, müstəqillik ən böyük sərvət kimi cəmiyyət tərəfindən qəbul edilir və dəstəklənir.

Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində nümunəvi ölkəyə çevrilibdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri Azərbaycan

səması altında bir ailə kimi, sülh, mehribanlıq, dostluq şəraitində yaşayırlar. Bu, bizim böyük sərvətimizdir və bu, bizim siyasətimizin böyük uğurudur.

Azərbaycan beynəlxalq aləmdə böyük nüfuza malik olan bir ölkədir. Bizim bir çox ölkələrlə bərabərhüquqlu, gözəl, konstruktiv münasibətlərimiz vardır. Biz prinsipial mövqeyimizdən heç vaxt bir addım geri atmırıq. Tərəfdaşlarımızla qarşılıqlı maraqlar üzərində qurduğumuz münasibətlər, düzgün xarici siyasət bizə imkan verir ki, həm beynəlxalq arenada öz gücümüzü, təsir imkanlarımızı artıraq, eyni zamanda, daxili problemləri, xüsusilə iqtisadi inkişafla bağlı olan problemləri həll edək.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. 2003-2018-ci illərdə - 15 il ərzində bir çox beynəlxalq təşkilatlar - BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar bu münaqişə ilə bağlı bizim mövqeyimizi, ədaləti əks etdirən qərar və qətnamələr qəbul etmişlər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmalıdır, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. Münaqişənin digər həlli yolları yoxdur. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, heç vaxt olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycan xalqı və dövləti heç vaxt imkan verməz ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Əgər kimsə başqa cür fikirləşirsə, hesab edirəm ki, o, əbəs yerə illüziyalarla yaşayır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə və qeyd-şərtsiz təmin edilməlidir. Bunu ədalət və beynəlxalq hüquq tələb edir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bunu tarix deyir, mədəniyyət deyir, bunu beynəlxalq hüquq deyir. Dağlıq Qarabağda keçirilmiş son qondarma “referendum” heç bir ölkə, heç bir beynəlxalq təşkilat tərəfindən tanınmayıb. Bu, bir daha onu göstərir ki, beynəlxalq aləm, bütün ölkələr Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz öz prinsipial mövqeyimizi bundan sonra da gücləndirəcəyik. Azərbaycanın həm beynəlxalq müstəvidə, həm də regionda kifayət qədər imkanları var. Bizim iştirakımız olmadan bölgədə heç bir layihə icra edilə bilməz. Ermənistanda bu reallığı nə qədər tez başa düşsələr, münaqişə o qədər də tez həll edilər və bölgəmizdə sülh təmin olunar.

Biz, eyni zamanda, Xocalı soyqırımı ilə bağlı dünyada çox böyük işlər görürük. Ermənilər tərəfindən törədilmiş misli görünməmiş vəhşilik olan Xocalı soyqırımını son illər ərzində 10-dan çox ölkə soyqırımı kimi tanıyıb və bu proses davam etdiriləcəkdir.

Biz güclü ordu qurmuşuq. Orduların gücünü müəyyən edən aparıcı reytinq agentlikləri Azərbaycan Ordusunu 50 güclü ordu sırasında görürlər. Biz bunu bilirik və bizim hərbi gücümüz gündən-günə artır. İki il bundan əvvəl Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etmişdir və o torpaqlarda – bizim doğma torpaqlarımızda bu gün Azərbaycan bayrağı dalğalanır. Əminəm ki, gün gələcək və Azərbaycan bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşada və Xankəndidə qaldırılacaqdır.

Biz Ulu Öndərin yolu ilə gedərək güclü iqtisadiyyat qura bilmişik. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. Bizim iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Aparıcı beynəlxalq təşkilatlar, Davos İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görübdür, inkişaf edən ölkələr arasında isə biz 3-cü yerdəyik. Bizim çox böyük iqtisadi resurslarımız var. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 5 dəfə böyükdür. Azərbaycanda yoxsulluqla, işsizliklə mübarizə gözəl nəticələr verir. Bu böyük sosial problemlərin həlli işində böyük uğurlar əldə edilibdir. Biz energetika, nəqliyyat sahələrində tarixi layihələr icra etmişik və onların icrası davam edir. Biz ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı məsələləri tam şəkildə həll etdik. Gələcəkdə Azərbaycanın enerji resurslarının dünya bazarlarına çıxarılması ilə bağlı böyük layihələrin başa çatması gözlənilir.

Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilibdir. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri bizim böyük sərmayələrimizlə həyata keçirilir və bu istiqamətdə hələ də həllini tapmamış məsələlər mütləq öz həllini tapacaqdır.

Biz bütün istiqamətlərdə uğurla inkişaf edirik. Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, biz tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik.

Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, biz bundan sonra da həmişə inkişaf və tərəqqi yolu ilə gedəcəyik. Sağ olun.

Sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilmiş “Qızıl çinar” beynəlxalq mükafatının 2018-ci il üzrə qalibləri elan olundu.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva milli musiqi mədəniyyətimizin inkişafı və təbliği, Azərbaycan dirijorluq məktəbi ənənələrinin yüksək səviyyədə davam etdirilməsi istiqamətində göstərdiyi böyük xidmətlərə görə Azərbaycan Respublikasının Xalq Artisti, Dövlət Mükafatı, “Şöhrət”, “Şərəf” və “İstiqlal” ordenləri laureatı Rauf Abdullayevə “Qızıl çinar” beynəlxalq mükafatını təqdim etdi.

Azərbaycan Respublikasının Xalq Artisti Rauf ABDULLAYEV dedi:



-Mehriban xanım, mən Sizə çox təşəkkür edirəm. Əlbəttə, Sizin işləriniz həddindən çoxdur. Sizin gördüyünüz hər bir iş biz mədəniyyət işçilərinin gözləri qabağındadır. Mən Sizə cansağlığı, işlərinizdə uğurlar diləyirəm. Biz həmişə Sizinləyik. Biz Sizinlə fəxr edirik, çox sağ olun, bir daha təşəkkür edirəm.

***

Sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva “Qızıl çinar” beynəlxalq mükafatını Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında xüsusi xidmətlərinə görə Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini, Azərbaycan Respublikasının “Dostluq” və “Şöhrət” ordenləri ilə təltif olunmuş Mixail Qusmana təqdim etdi.

TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail QUSMAN dedi:

- Hörmətli Prezident, hörmətli Mehriban xanım.



Bu mükafata görə çox sağ olun. Bu, mənim üçün sadəcə mükafat deyil. Bu, əlbəttə ki, doğulduğum bu gözəl torpağa, əhatəsində boya-başa çatdığım ailə ocağıma, ömrümün yarısını bir yerdə yaşadığım istedadlı, parlaq, qonaqpərvər, mehriban, sülhsevər Azərbaycan xalqına mənim sonsuz məhəbbətimin əksi və ifadəsidir. Lakin bu məhəbbət hissi indi mənim Azərbaycan Respublikası ilə xüsusi qürur duymağımla da tamamlandı. Onun

heyrətamiz uğurları barədə bu gün İlham Heydər oğlu çox gözəl danışdı. Cənab Prezident, Sizi bu doğma torpağın məğrurluğuna görə təbrik etmək istəyirəm. Çünki Heydər Əliyevin vəsiyyətlərini yerinə yetirən Azərbaycan məhz Sizin rəhbərliyinizlə bu cür heyrətamiz uğurlara nail olub. Mən Sizə Heydər Əliyevin, zənnimcə, ən əsas vəsiyyətlərindən birini yerinə yetirdiyinizə görə də təşəkkür etmək istəyirəm. Bu, Sizin böyük Rusiya, böyük rus xalqı ilə hərtərəfli əlaqələrin və dostluğun, strateji əməkdaşlığın möhkəmləndirilməsi naminə yorulmadan göstərdiyiniz qayğıdır.

Biz bilirik ki, bu gün Azərbaycanda rus dili, əvvəllərdə olduğu kimi, milyonlarla insanın ünsiyyət dilidir. Bu, Sizin və tolerant Azərbaycan xalqının böyük xidmətidir. Mən buna görə Sizə çox təşəkkür edirəm. Deməliyəm ki, Azərbaycana məhəbbət hissini, yəqin hamıdan daha yaxşı 80 il bundan əvvəl unudulmaz Səməd Vurğun özünün ölməz “Azərbaycan” şeirində tərənnüm edib. Biz bu şeiri uşaqlıqdan əzbər bilirik. Lakin abidənin pyedestalında həkk olunmuş dörd sətri bizim hər birimiz dua kimi heç olmasa gündə bir dəfə təkrarlamalıyıq:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

***

Daha sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Azərbaycan kino sənətinin inkişafındakı böyük xidmətlərinə görə görkəmli kinorejissor və ssenarist, Azərbaycan Respublikasının Xalq Artisti, “Şöhrət” və “Şərəf” ordenli Eldar Quliyevə “Qızıl çinar” beynəlxalq mükafatını təqdim etdi.

Xalq Artisti Eldar QULİYEV dedi:

– Mehriban xanım, mən Sizə və Heydər Əliyev Fonduna dərin minnətdarlığımı bildirirəm. Siz mənim sadə fəaliyyətimə belə yüksək qiymət verdiniz. İndi 3-4 yaş cavan olsaydım deyərdim ki, bəli, bu, avansdır. Amma hər halda bunu avans hesab edirəm. Mən hələ işləyəcəyəm.



Mən nə rəssam, nə bəstəkar, nə də yazıçı deyiləm ki, təkbaşına nə isə yarada bilim. Mən kinorejissoram. Mənimlə birlikdə bir filmin çəkilişində 40-50 nəfər iştirak edir. Onların arasında rəssamlar da, yazıçılar da var. Hesab edirəm ki, bu mükafatda onların da payı var. Çünki onlarla birlikdə yaratdığımız filmlər Azərbaycanın tarixini, onun bugünkü həyatını bütün dünyaya tanıdır. Fəxr edirəm ki, mən də onların sırasındayam.

Çox sağ olun, Mehriban xanım, Sizə bir daha təşəkkür edirəm. Söz verirəm ki, yaradıcılığımı davam etdirəcəyəm.

***

Mərasim geniş konsert proqramı ilə davam etdi.
Sonda xatirə şəkli çəkdirildi.









Mərasimdən sonra Heydər Əliyev Mərkəzinin binasının üzərində videokompozisiya nümayiş etdirildi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin zəngin həyat yolunun səhifələrini vərəqləmək Azərbaycan tarixinin bütöv bir qərinəsinə nəzər salmaq deməkdir. Ulu öndər Heydər Əliyev millətin taleyi üçün misilsiz əhəmiyyət kəsb edən bütün fəaliyyət sahələrini həmişə diqqətdə saxlayıb. Onun ölkəyə rəhbərliyinin hər iki dövründə Azərbaycanın taleyi ilə bağlı olan bütün sahələr dövlət səviyyəsində layiqli dəyərini alıb. Bunu ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə təntənəli mərasimin keçirildiyi Heydər Əliyev Mərkəzinin binasının üzərində nümayiş etdirilən videokompozisiyadan da görmək olurdu.

Bakının simvollarından biri, dünyanın modern memarlıq abidələrindən olan Heydər Əliyev Mərkəzinin binası üzərində nümayiş etdirilən kompozisiya müasir Azərbaycanın memarı və qurucusu, ulu öndər Heydər Əliyevin Azərbaycana bağlılığını, ölkəmizdəki tərəqqini və Ümummilli Liderə xalq məhəbbətini əks etdirirdi. “Xalq Heydər söyləyəcək” mahnısı ilə müşayiət olunan videoinstalyasiya saat 20-dən gecəyarıyadək davam etdi.

# Heydər Əliyev Mərkəzində “Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” tarixi-sənədli sərgisinin açılış mərasimi olub



Mayın 10-da Heydər Əliyev Mərkəzində “Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” tarixi-sənədli sərgisinin açılış mərasimi olub.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Rusiya Federasiyası Prezidentinin Administrasiyası və Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil olunan sərgidə Azərbaycanın və Rusiyanın ictimai-siyasi xadimləri, ziyalıları iştirak ediblər.

Rusiya ilə dostluq münasibətlərinin qurulmasında, iki ölkə arasında strateji tərəfdaşlığın əsaslarının qoyulmasında ulu öndər Heydər Əliyev mühüm rol oynayıb. Buna görə də Heydər Əliyev Mərkəzində əlamətdar yubileyə - Azərbaycan xalqının Ümummilli Liderinin anadan olmasının 95 illiyinə həsr edilən “Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” mövzusunda tarixi-sənədli sərginin açılması təsadüfi deyil. Bununla bağlı keçirilən mərasimdə Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov unikal sərginin təşkil edildiyini bildirərək, Mərkəzin və Heydər Əliyev Fondunun Azərbaycan-Rusiya münasibətlərinin möhkəmlənməsinə yönələn layihələri hər zaman dəstəklədiyini diqqətə çatdırdı.



Anar Ələkbərov Prezident İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın və Fondun vitse-prezidenti Leyla Əliyevanın bu istiqamətdə gördüyü işləri qeyd etdi. O, Ulu Öndərin irsinin araşdırılması və gələcək nəsillərə çatdırılması ilə məşğul olan Heydər Əliyev Mərkəzində təşkil edilən sərgilər və tədbirlər sırasında Rusiya mədəniyyət və incəsənət xadimlərinin işlərinin də geniş yer aldığını vurğuladı və sərginin təşkilatçılarına minnətdarlığını bildirdi.

Rusiya Federasiyası Prezidentinin xarici ölkələrlə regionlararası və mədəni əlaqələr idarəsinin rəisi Vladimir Çernov Rusiya Prezidenti Vladimir Putinin tədbir iştirakçılarına müraciətini oxudu.

Müraciətdə qeyd edilir ki, Heydər Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi, ən mürəkkəb məsələlərin mahiyyətinə varmaq bacarığı, böyük təşkilatçılıq istedadı ona həmvətənləri arasında və xaricdə yüksək nüfuz qazandırıb. Son dərəcə mürəkkəb tarixi dövrdə müstəqil Azərbaycana rəhbərlik edən Heydər Əliyev Azərbaycan cəmiyyətinin birləşdirilməsi üçün çox işlər görüb, xalqın həqiqi liderinə çevrilib.

"Qeyd etməliyəm ki, Heydər Əliyev Azərbaycanın uğurlu inkişafının mühüm şərtlərindən birini Rusiya ilə dostluq, mehriban qonşuluq əlaqələri yaradılmasında, qarşılıqlı faydalı əməkdaşlığı və ölkələrimiz arasında konstruktiv tərəfdaşlığı möhkəmlətməkdə görürdü. Sevindirici haldır ki, Azərbaycan Respublikasının indiki Prezidenti İlham Əliyev bu kursu ləyaqətlə davam etdirir", - deyə Vladimir Putinin müraciətində vurğulanır.

Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciətini Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov oxudu.

Müraciətdə bildirilir ki, Heydər Əliyev təkcə postsovet məkanında deyil, bütün dünyada yüksək nüfuz qazanmış görkəmli dövlət xadimi və siyasi xadimdir. Uzun illər ərzində respublika Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, Azərbaycan SSR-in rəhbəri, daha sonra SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində qazandığı zəngin dövlət idarəçiliyi təcrübəsi və yüksək təşkilatçılıq qabiliyyəti ona ən mürəkkəb bir dövrdə müstəqil Azərbaycana başçılıq etmək, ölkəni dərin böhran vəziyyətindən çıxarmaq və davamlı inkişaf yoluna yönəltmək imkanı verdi. Müasir mərhələdə strateji münasibətlər kimi səciyyələnən Azərbaycan-Rusiya münasibətlərinin möhkəmlənməsində Heydər Əliyevin xüsusi xidməti olub. Azərbaycanın dövlət başçısının mü-



raciətində bu layihənin təşəbbüskarı olan Rusiya tərəfinə, həmçinin hər iki ölkənin tarixçilərinə və arxiv mütəxəssislərinə minnətdarlıq bildirilir, sərginin xalqlarımız arasında dostluğun möhkəmlənməsinə öz töhfəsini verəcəyinə əminlik ifadə olunur.

Tədbirdə çıxış edən Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədr müavini İlyas Umaxanov Heydər Əliyevi Azərbaycanın inkişafında unikal rol oynayan əfsanəvi siyasətçi kimi səciyyələndirdi. Bu sərginin Azərbaycan-Rusiya münasibətlərinin strateji tərəfdaşlığını nümayiş etdirdiyini deyən rusiyalı qonaq ölkələrimiz arasında əlaqələrin qarşılıqlı hörmətə, mehriban qonşuluğa, dostluğa əsaslandığını qeyd etdi. Bildirdi ki, indi əsas vəzifə bu estafeti gələcək nəsillərə ötürməkdir. “Uğurlu strateji tərəfdaşlığın vacib rəhni – prezident seçkilərində İlham Əliyevin inamlı qələbəsidir”, - deyən İlyas Umaxanov ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından danışdı. Onu da diqqətə çatdırdı ki, bu gün Heydər Əliyev Mərkəzində açılan sərgi Azərbaycan xalqının və onun liderinin tarixini daha yaxşı öyrənməyə imkan verəcək.

Rusiya Federasiyası xarici işlər nazirinin müavini Qriqori Karasin sərginin görkəmli şəxsiyyətə həsr edildiyini, Heydər Əliyevin nəhəng cəsarətə və təcrübəyə malik olduğunu, onun Azərbaycanın inkişafı üçün taleyüklü qərarlar qəbul etdiyini bildirdi. İki dəfə Azərbaycana rəhbərlik edən Ulu Öndərin fəaliyyəti barədə danışan Rusiyanın xarici siyasət idarəsinin rəsmisi dedi ki, Heydər Əliyevi insanlara və işinə olan maraq fərqləndirirdi, o, nəhəng potensiala malik şəxsiyyət idi. Qriqori Karasin qeyd etdi ki, Ulu Öndər Rusiya ilə münasibətlərə xüsusi əhəmiyyət verirdi. Ümummilli Liderin siyasi kursunu bu gün Prezident İlham Əliyev davam etdirir. Rusiya Federasiyası xarici işlər nazirinin müavini vurğuladı ki, məhz buna görə də Rusiya - Azərbaycan münasibətlərinin gələcək inkişafına nikbinliklə baxır və əmindir ki, bu münasibətlər ölkələrimizin və xalqlarımızın rifahı naminə inkişaf edəcək.



Sonra sərginin açılışı oldu.

Əlamətdar tarixə – Azərbaycan xalqının Ümummilli Liderinin anadan olmasının 95 illiyinə həsr olunan "Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs" Azərbaycan-Rusiya tarixi sənədli sərgisi Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Rusiya Federasiyası Prezidentinin Administrasiyası və Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil edilib. Sərgi altı bölmədən ibarətdir. Hər bir bölmə Ulu Öndərin həyatının müəyyən mərhələsinə həsr edilib. Sərgidə Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən 300-dən çox eksponat – fotolar, sənədlər və videomateriallar nümayiş olunur. Ümummilli Liderin siyasi müdrikliyi və uzaqgörənliyi, ən mürəkkəb məsələlərin mahiyyətinə varmaq bacarığı, böyük təşkilatçılıq istedadı ona həmvətənləri arasında və xaricdə yüksək nüfuz qazandırıb. Son dərəcə mürəkkəb tarixi dövrdə müstəqil Azərbaycana rəhbərlik edən Heydər Əliyev Azərbaycan cəmiyyətinin birləşdirilməsi üçün çox işlər görüb, xalqın həqiqi liderinə çevrilib. Heydər Əliyev Azərbaycanın uğurlu inkişafının mühüm şərtlərindən birini Rusiya ilə dostluq, mehriban qonşuluq əlaqələri yaradılmasında, qarşılıqlı faydalı əməkdaşlığı və ölkələrimiz arasında konstruktiv tərəfdaşlığı möhkəmlətməkdə görürdü. Dövlətlərimiz çoxsaylı nəsillərin topladığı mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq ənənələrini müstəqillik illərində nəinki qoruyub saxlamağa, həm də artırmağa nail olublar. Bu genişmiqyaslı sərgi tarixçilərin, arxiv mütəxəssislərinin və dövlət nümayəndələrinin birgə səylərinin nəticəsidir. Əlamətdar haldır ki, Bakıda keçirilən sərgidə həm Heydər Əliyev şəxsiyyətinin çoxşaxəliliyini görmək, eyni zamanda, onun irsi ilə təmasda olmaq imkanı verən çoxsaylı arxiv sənədləri və fotoşəkillər təqdim edilir. Bu əlamətdar hadisə münasibətilə hazırlanan kataloqda əsası Ümummilli Lider tərəfindən qoyulan siyasi kursun varisliyi aydın görünür.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti

***"Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs" tarixi-sənədli sərgisinin iştirakçılarına***

Əziz dostlar!

Əlamətdar tarixə – Azərbaycanın Ümummilli Liderinin anadan olmasının 95 illiyinə həsr edilmiş "Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs" tarixi-sənədli sərgisinin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Heydər Əliyev təkcə postsovet məkanında deyil, bütün dünyada yüksək nüfuz qazanmış görkəmli dövlət xadimi və siyasi xadimdir. Uzun illər ərzində respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri, Azərbaycan SSR-in rəhbəri, daha sonra SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrində qazandığı zəngin dövlət idarəçiliyi təcrübəsi və yüksək təşkilatçılıq qabiliyyəti ona ən mürəkkəb bir dövrdə müstəqil Azərbaycana başçılıq etmək, ölkəni dərin böhran vəziyyətindən davamlı inkişaf yoluna çıxarmaq imkanı verdi.

Müasir mərhələdə strateji səciyyə daşıyan Azərbaycan-Rusiya münasibətlərinin möhkəmlənməsində Heydər Əliyevin xüsusi xidməti olub. Müstəqillik illərində dövlətlərimiz əvvəlki nəsillərin miras qoyduğu mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq ənənələrini nəinki qoruyub saxlamağa, həm də artırmağa nail olublar.

Əlamətdar haldır ki, Bakıda keçirilən sərgidə həm Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü görməyə, həm də onun irsi ilə təmasda olmağa imkan verən çoxsaylı arxiv sənədləri və fotoşəkillər təqdim edilir. Ürəkdən şadam ki, əlamətdar hadisə münasibətilə hazırlanmış nəfis kataloqda əsası Ümummilli Lider tərəfindən qoyulmuş siyasi kursun varisliyi aşkar izlənilir. Ümidvaram ki, bu nəşr əksər kitabxanaların fondlarında layiqli yer tutacaq.

Layihənin təşəbbüskarı olan Rusiya tərəfinə dərin minnətdarlığımı bildirmək, habelə hər iki ölkənin tarixçilərinə və arxiv mütəxəssislərinə təşəkkür etmək istərdim. Əminəm ki, sərgi xalqlarımız arasında dostluğun möhkəmlənməsinə öz töhfəsini verəcək.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

# Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin müraciəti

***"Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs" tarixi-sənədli sərgisinin iştirakçılarına və qonaqlarına***

Əziz dostlar!

"Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs" tarixi-sənədli sərgisinin açılışı münasibətilə Sizi ürəkdən salamlayıram. Bu sərgi görkəmli şəxsiyyətin, öz Vətəninin sədaqətli oğlunun, həqiqi vətənpərvərin anadan olmasının 95 illiyinə həsr edilib.

Heydər Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi, ən mürəkkəb məsələlərin mahiyyətinə varmaq bacarığı, böyük təşkilatçılıq istedadı ona həmvətənləri arasında və xaricdə yüksək nüfuz qazandırıb. Son dərəcə mürəkkəb tarixi dövrdə müstəqil Azərbaycana rəhbərlik edən Heydər Əliyev Azərbaycan cəmiyyətinin birləşdirilməsi üçün çox işlər görüb, xalqın həqiqi liderinə çevrilib.

Qeyd etməliyəm ki, Heydər Əliyev Azərbaycanın uğurlu inkişafının mühüm şərtlərindən birini Rusiya ilə dostluq, mehriban qonşuluq əlaqələri yaradılmasında, qarşılıqlı faydalı əməkdaşlığı və ölkələrimiz arasında konstruktiv tərəfdaşlığı möhkəmlətməkdə görürdü. Sevindirici haldır ki, Azərbaycan Respublikasının indiki Prezidenti İlham Əliyev bu kursu ləyaqətlə davam etdirir.

Bu genişmiqyaslı sərgi tarixçilərin, arxiv mütəxəssislərinin və dövlət nümayəndələrinin birgə səylərinin nəticəsidir. Sərginin hazırlanmasında iştirak edənlərin hamısına təşəkkürümü bildirmək, ekspozisiyanın ziyarətçilərinə isə parlaq, unudulmaz təəssüratlar arzu etmək istərdim.

**Vladimir Putin**
**Rusiya Federasiyasının Prezidenti**

**«Təsdiq edirəm»**
**Azərbaycan Respublikasının Baş prokuroru,**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Zakir Qaralov**

**1 mart 2018-ci il**

**Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinin qeyd edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun**

**TƏDBİRLƏR PLANI**

| № | Plan tədbirinin adı | İcra müddəti | İcraçılar |
|---|---|---|---|
| 1. | Azərbaycan Respublikası Baş Prokurorluğunun inzibati binasının 2-ci mərtəbəsində "Heydər Əliyev guşəsi"nin yenidən təşkilinin təmin edilməsi | mart-aprel | R.Usubov<br>N.Əsgərov<br>M.Sultanov<br>N.Hüseynov<br>N.Məmişov<br>E.Sultanov |
| 2. | Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə əlaqədar ağacəkmə kampaniyasının təşkil edilməsi | mart-aprel | R.Usubov<br>X.Vəliyev<br>N.Əsgərov<br>K.Əliyev<br>M.Sultanov<br>İ.Abbasov |
| 3. | "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda Azərbaycan Respublikası Baş Prokurorluğu, Respublika Hərbi, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı şəhər prokurorluqlarında elmi-praktiki konfransların, habelə digər tabe prokurorluqlarda tədbirlərin keçirilməsinin təmin edilməsi | aprel-may | X.Vəliyev<br>N.Əsgərov<br>K.Əliyev<br>S.Şahverdiyev<br>İ.Abbasov<br>Baş Prokurorluğun idarə (şöbə) rəisləri tabe prokurorlar |
| 4. | Tabe prokurorluqların inzibati binalarında Ümummilli lider Heydər Əliyevə həsr olunmuş guşələrin yenidən təşkilinin təmin edilməsi | aprel-may | R.Usubov<br>N.Əsgərov<br>X.Vəliyev<br>S.Şahverdiyev<br>İ.Abbasov<br>tabe prokurorlar |
| 5. | Azərbaycan Respublikası Baş Prokurorluğunun inzibati binasının 1-ci mərtəbəsində quraşdırılmış interaktiv monitorda Ümummilli lider Heydər Əliyevə həsr edilmiş video-çarxın nümayiş olunmasının təmin edilməsi | aprel-may | N.Əsgərov<br>N.Hüseynov<br>M.Dadaşov |

| | | | |
|---|---|---|---|
| 6. | Ümummilli lider Heydər Əliyevin 95 illiyi ilə əlaqədar Azərbaycan Prokurorluğunun Tarix muzeyində müvafiq məlumatların yerləşdirilməsinin təmin edilməsi | aprel-may | N.Əsgərov<br>N.Hüseynov<br>N.Məmişov |
| 7. | Prokurorluq işçilərinin Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti, ölkəmizdə hüquqi dövlət quruculuğu prosesində gördüyü işlərə və milli prokurorluq orqanlarının formalaşması istiqamətində həyata keçirdiyi fəaliyyətə dair kütləvi informasiya vasitələrində çıxışlarının təşkil edilməsi | aprel-may | R.Usubov<br>X.Vəliyev<br>N.Əsgərov<br>K.Əliyev<br>S.Şahverdiyev<br>M.Sultanov<br>İ.Abbasov<br>N.Bayramov<br>E.Sultanov |
| 8. | Azərbaycan Respublikası Baş Prokurorluğunun veb-saytında “Heydər Əliyev-95” banerinin yaradılması və banerdə Ümummilli liderin həyat və fəaliyyətinə həsr edilmiş materialların, o cümlədən prokurorluq işçilərinin bu mövzuda kütləvi informasiya vasitələrində dərc olunmuş məqalələrinin yerləşdirilməsinin təmin edilməsi | aprel-may | N.Əsgərov<br>N.Hüseynov<br>M.Dadaşov<br>E.Sultanov |
| 9. | Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş “Azərbaycan Prokurorluğu” jurnalının xüsusi buraxılışının nəşr olunmasının təmin edilməsi | aprel-may | N.Əsgərov<br>N.Bayramov<br>N.Məmişov |
| 10. | Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi və bütün tabe prokurorluqlarda anma mərasimlərinin keçirilməsinin təmin edilməsi | may | R.Usubov<br>X.Vəliyev<br>N.Əsgərov<br>K.Əliyev<br>S.Şahverdiyev<br>İ.Abbasov<br>Baş Prokurorluğun idarə (şöbə) rəisləri tabe prokurorlar |
| 11. | Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən “Azərbaycanda müasir prokurorluq sisteminin formalaşmasında Heydər Əliyevin rolu” mövzusunda konfransın keçirilməsinin təmin edilməsi | may | R.Usubov<br>N.Əsgərov<br>M.Sultanov<br>N.Hüseynov<br>N.Bayramov<br>E.Sultanov |
| 12. | Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi ilə əlaqədar prokurorluq işçilərinin Heydər Əliyev irsinin araşdırılması, təbliği və fondlarda qorunması istiqamətində fəaliyyət göstərən Heydər Əliyev Mərkəzində Heydər Əliyev Muzeyi ilə tanış olmalarının təşkil edilməsi | may | R.Usubov<br>N.Əsgərov<br>M.Sultanov<br>N.Rəcəbov<br>N.Hüseynov |

**Baş Prokurorluğun Təşkilat-analitik və Hüquqi təminat idarələri**

# Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar Baş Prokurorluqda konfrans keçirilib



Mayın 8-də Baş Prokurorluqda xalqımızın ümumilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda konfrans keçirilib.

Konfransı giriş nitqi ilə açan Baş prokuror Zakir Qaralov bildirmişdir ki, ötən əsrin 60-cı illərindən başlayaraq ölkəmizin 30 ildən artıq bir dövrünü əhatə edən ən yeni tarixi və bu dövr ərzində müstəqil dövlət kimi formalaşan Azərbaycan Respublikasının və xalqımızın taleyi Heydər Əliyev kimi dahi şəxsiyyətin adı, onun müdrik dövlətçilik siyasəti ilə bağlı olmuşdur. Bu müddət ərzində ulu öndər tərəfindən həyata keçirilən möhtəşəm dövlətçilik tədbirlərinin nəticəsidir ki, azərbaycançılıq ideyası ətrafında birləşərək, siyasi və iqtisadi müstəqilliyə nail olan xalqımız hüquqi bir dövlətdə, milli dəyərlərə əsaslanan vətəndaş cəmiyyətində layiqli yaşamaq imkanı əldə etmişdir. Müxtəlif siyasi quruluşların mövcudluğu şəraitində



Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev şəxsiyyətinin böyüklüyü ondan ibarətdir ki, o, sovet dönəmində ölkəmizin gələcək müstəqilliyinin möhkəm iqtisadi əsaslarını yaratmaqla xalqımızı öz suverenliyi uğrunda mübarizəyə hazırlamağı bacarmış, dövlət müstəqilliyimizin itirilməsi və ölkəmizin parçalanması təhlükəsi yarandığı bir dövrdə xarici və daxili qüvvələrin məkrli cinayətkar hərəkətlərinin qarşısını almaqla sabitlik və əmin-amanlıq şəraiti yaratmış, daha sonra Azərbaycanın inkişaf etmiş bir ölkəyə çevrilməsini şərtləndirən misli görünməmiş quruculuq işləri həyata keçirmişdir.

Baş prokuror qeyd etmişdir ki, doğma xalqına və millətinə təmənnasız xidməti həyatının mənası və məqsədi kimi qəbul edən, bu yolda mümkün olan bütün addımları atan Heydər Əliyev siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə müstəqil Azərbaycan dövlətçiliyinin formalaşdırılması və daha da möhkəmləndirilməsi uğrunda mübarizə meydanında olmuş və millətinə rəhbərlik etmişdir. Bu yolda çox böyük maneələrlə rastlaşması, fiziki cəhətdən məhv edilmək təhlükəsi, çoxsaylı sui-qəsd və terror cəhdləri ilə üzləşməsinə baxmayaraq, Heydər Əliyev öz siyasi müdrikliyi, polad iradəsi və qətiyyəti, ən əsası - xalqının dəstəyi nəticəsində doğma Azərbaycanı bugünkü və gələcək nəsillər üçün qoruyub saxlamış və müstəqil inkişaf yoluna çıxarmışdır. Bildirilmişdir ki, müstəqil Azərbaycan Respublikasının mühüm dövlət təsisatlarından biri olan milli prokurorluq orqanları bugünkü vəziyyətdə mövcudluğuna və yenidən formalaşmasına görə ilk növbədə, xalqımızın ümummilli lideri Heydər Əliyev şəxsiyyətinə borcludur. Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyimizin maraqlarına xidmət edən bir qurum kimi dövlət idarəçiliyi sistemində öz layiqli yerini tutması ölkəmizdə aparılan hərtərəfli məhkəmə-hüquq islahatlarının memarı kimi Heydər Əliyevin dövlətçilik siyasəti, onun gündəlik qayğı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Diqqətə çatdırılmışdır ki, Heydər Əliyevin 2000-ci il 26 aprel tarixdə respublika prokurorluğunun




rəhbər işçiləri ilə keçirdiyi müşavirə prokurorluğun tarxində əsil dönüş nöqtəsi olmuş, ulu öndərin həmin müşavirədəki tövsiyə və göstərişləri məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluqda görülməsi vacib olan işlərin əsas istiqamətlərini müəyyənləşdirmişdir. Həyata keçirilən tədbirlər sayəsində prokurorluğun müasir məzmunda yeniləşdirilməsi, mövcud neqativ təzahürlərin aradan qaldırılması, yüksək standartlar səviyyəsində işləməyə qadir olan kadr korpusunun formalaşdırılması, son nəticədə cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi işinin zəruri tələblər səviyyəsinə qaldırılması mümkün olmuşdur.

Xüsusi vurğulanmışdır ki, əldə etdiyi bütün uğurlara görə, ilk növbədə ulu öndər Heydər Əliyevin dövlətçilik siyasətinə və rəhbər kimi hərtərəfli qayğısına minnətdar olan Azərbaycan Respublikası Prokurorluğunun kollektivi dahi şəxsiyyətin xatirəsini həmişə əziz tutur və yüksək ehtiram göstərir. Baş prokuror diqqətə çatdırmışdır ki, bu gün Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də prokurorluq orqanlarına hərtərəfli qayğı və diqqət göstərilir, fəaliyyətinin müasir standartlar səviyyəsində təkmilləşdirilməsi üçün zəruri tədbirlərin görülməsi təmin olunur.

Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının icra katibi – sədr müavini Əli Əhmədov ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinin xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qeyd edilməsinin dahi şəxsiyyətin xatirəsinə hörmət və ehtiramın göstəricisi olmaqla yanaşı, mühüm dövlətçilik ənənəsinə çevrildiyini diqqətə çatdırmışdır. Bu yüksək ehtiramın ulu öndər Heydər Əliyevin vətən və xalq qarşısında misilsiz xidmətlərinə görə dərin minnətdarlığın nümunəsi olduğunu vurğulayan Baş nazirin müavini diqqətə çatdırmışdır ki, Heydər Əliyev xalqımızın yetişdirdiyi ən böyük azərbay-

canlıdır. Müasir Azərbaycan tarixinin bütöv bir qərinəsinin ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu deyən Əli Əhmədov qeyd etmişdir ki, bu illər Azərbaycanın sürətli inkişafı, tərəqqisi və yüksəlişi ili olmuşdur. Ümummilli lider Heydər Əliyevin sovet dövründə ölkəmizə rəhbərliyi illərində Azərbaycanın sürətlə inkişaf edərək keçmiş SSRİ-nin qabaqcıl respublikalarından birinə çevrildiyini vurğulayan Baş nazirin müavini Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, ölkənin sürətli inkişaf yoluna çıxarılmasında dahi rəhbərin misilsiz xidmətlərindən bəhs etmişdir. Diqqətə çatdırmışdır ki, məhz bu xidmətlərinə görə Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur.

Ulu öndərin xilaskarlıq missiyasında digər sahələrlə yanaşı, ictimai-siyasi sabitliyin, qanunun aliliyinin təmin edilməsinin də mühüm yer tutduğunu xatırladan Əli Əhmədov Prezident cənab İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi sayəsində Azərbaycanın bu gün dünyada ən sabit ölkələrdən biri kimi tanındığını vurğulamışdır. Diqqətə çatdırmışdır ki, bu sahədə dövlət siyasətinin uğurla həyata keçirilməsi üçün etibarlı zəminin hazırlanmasında hüquq mühafizə orqanlarının, o cümlədən prokurorluq orqanlarının səmərəli və qətiyyətli fəaliyyətini xüsusi qeyd etmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli ümummilli lider Heydər Əliyevin Azərbaycanın çoxəsrlik milli dövlətçilik tarixində ən qüdrətli və nadir dövlət xadimlərindən olduğunu vurğulamışdır. Akademik ulu öndər Heydər Əliyevin görkəmli dövlət xadimi kimi yetişməsində dünyanın super dövlətlərindən biri olan SSRİ-nin siyasi sistemini dərindən mənimsəməsi və həmin zəmində özündə müstəqil dövlətçilik dünyagörüşü formalaşdırması mühüm rol oynamışdır. İ.Həbibbəyli ulu öndər Heydər Əliyevin dünyanın görkəmli şəxsiyyətləri tərəfindən nadir dövlət adamlarından biri kimi dəyərləndirildiyini vurğulayaraq, dahi rəhbərin istər sovet, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərliyi illərində ölkəmizdə elmin, təhsilin, ədəbiyyatın, mədəniyyətin görkəmli himayədarı olduğunu vurğulamışdır. Diqqətə çatdırmışdır ki, məhz dahi şəxsiyyətin diqqət və qayğısı sayəsində sovet dövründə Azərbaycanın vətənpərvər, qabaqcıl ziyalıları, o cümlədən şair və yazıçıları, alimləri nəinki təzyiqlərdən xilas olmuş, hətta SSRİ-nin ən yüksək dövlət təltiflərinə layiq görülmüşlər. Bu dövrdə Heydər Əliyevin ən böyük xidmətlərindən biri Azərbaycan SSR-nin 1978-ci ildə qəbul edilən Konstitusiyasında respublikanın dövlət dilinin Azərbaycan dili olması ilə bağlı maddənin daxil edilməsi idi.

Müstəqilliyin əvvəllərində ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyasının əhəmiyyətini xüsusi vurğulayan AMEA-nın vitse-prezidenti ulu öndərin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizdə bütün sahələrlə yanaşı, Azərbaycan elminin də inkişafı üçün ən mükəmməl şəraitin yaradıldığını diqqətə çatdırmışdır.

Baş Prokurorluğun Hüquqi təminat idarəsinin rəisi Natiq Hüseynov çıxışında ümummilli lider Heydər Əliyevin Azərbaycanda müasir hüquqi dünyəvi dövlətin banisi olaraq milli dövlətçilik konsepsiyasının müəyyən edilməsində, ölkənin hüquq və qanunvericilik sisteminin qurulmasında, yüksək beynəlxalq standartlara uyğun məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində, müasir tələblərə cavab verən dövlət idarəetmə sisteminin, o cümlədən hüquq mühafizə orqanlarının formalaşdırılmasında misilsiz xidmətlərini qeyd etmişdir. Bildirmişdir ki, Azərbaycanda ölkənin əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, hakimiyyətin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələri olmuşdur.

Konfransın işinə yekun vuran Zakir Qaralov prokurorluq orqanlarının bütün əməkdaşları adından əminliyini bildirmişdir ki, prokurorluğun kollektivi daim Heydər Əliyev ideyalarına sadiq olacaq, onun unudulmaz xatirəsini əziz tutacaq və bütün qüvvələrini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bu möhtəşəm ideyaların həyata keçirilməsinə istiqamətləndirəcəkdir.

Tədbirin sonunda "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış "Vətənə, xalqa həsr edilən ömür" filmi nümayiş etdirilmişdir.

**Baş Prokurorluq**

# Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar Baş Prokurorluq tərəfindən ağacəkmə kampaniyası təşkil olunub

Mayın 5-də Baş Prokurorluğun, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə ağacəkmə kampaniyası keçirmişdir.



Son illər respublikada yaşıllıqların artırılması, yeni park və xiyabanların salınmasına diqqət artırılmışdır. Yaradılan parklar və yaşıllıqlar sakinlərdə xoş əhval- ruhiyyə yaradır. Əkilən agaclar insanların sağlamlığına müsbət təsir göstərməklə yanaşı, paytaxtın ümumi mənzərəsinə yeni çalarlar əlavə edir. Əsas məqsəd paytaxtın ekoloji cəhətdən sağlamlaşdırılmasına töhfə verməkdir.

Xalqın ümummilli lideri Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə ictimai həyatın bütün sahələri ilə yanaşı, ekoloji mühitin mühafizəsinə, yeni yaşıllıq sahələrinin salınmasına xüsusi diqqət yetirmişdir. Azərbaycan Respublikası Prokurorlugu orqanlarının əməkdaşları da bu xeyirxah və nəcib tədbirdə həmişə yüksək əhval-ruhiyyə ilə iştirak ediblər. Ulu öndər tərəfindən əsası qoyulmuş ekoloji siyasət bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ölkə başçısının ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələrinə, həmçinin Baş Prokurorluqda yaranmış ənənəyə uyğun olaraq prokurorluq orqanlarının əməkdaşları ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağacəkmə kampaniyası keçirmişdir.

Tədbir çərçivəsində paytaxtın Suraxanı rayonu ərazisində Hövsan qəsəbəsinin yaxınlığında 2 hektar ərazidə mindən artıq zeytun və Eldar şamı ağacları əkilmişdir. Abşeron yarımadasının iqliminə uyğun olaraq əkilən agacların küləkdən qorunması üçün dirəklər basdırılmış və onların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunmuşdur. Həmçinin, əkilən ağacların mühafizəsi və mütəmadi olaraq onlara qulluq göstərilməsi məqsədilə bütün zəruri tədbirlər görülmüşdür.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında, eləcə də tabe rayon (şəhər) prokurorluqlarında ağacəkmə kampaniyaları təşkil edilib.

Aksiyaların gələcəkdə də davam etdirilməsi nəzərdə tutulub.

**Baş Prokurorluq**

# Prokurorluq işçiləri Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

Baş Prokurorluğun, Respublika Hərbi və Bakı şəhər prokurorluqlarının nümayəndələri mayın 10-da Fəxri xiyabana gələrək, ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər. Ulu öndərin əziz və unudulmaz xatirəsini yad edən prokurorluq işçiləri onun məzarı önünə təzə tər güllər qoyublar.

Eyni zamanda, ulu öndərin həyat yoldaşı, görkəmli alim Zərifə xanım Əliyevanın da xatirəsini yad ediblər.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluğun işçiləri Heydər Əliyev Mərkəzində olublar

Baş Prokurorluğun işçiləri mayın 8-də Heydər Əliyev Muzeyi ilə tanış olmaları üçün Heydər Əliyev Mərkəzində olublar.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə əlaqədar ziyarətə gələn prokurorluq işçilərinə Mərkəzin fəaliyyəti və Heydər Əliyev Muzeyi haqqında məlumat verilib. Bildirilib ki, müasir Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu prosesi, vətəndaş cəmiyyətinin formalaşması, əsaslı siyasi və iqtisadi islahatların həyata keçirilməsi, ölkəmizin dünyada etibarlı tərəfdaş kimi tanınması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Möhkəm təməl və milli dəyərlər üzərində müasir dövlətin qurulması, xalqımızın milli ideya ətrafında birləşməsi, azərbaycançılıq ideologiyası Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən idi. Azərbaycan dilini, tarixini, mədəniyyətini və milli-mənəvi dəyərlərini qorumağı daim tövsiyə edən Heydər Əliyevin ideoloji əsaslarının tam şəkildə bərqərar olmasına baxmayaraq bu işlərin vahid mərkəzdən istiqamətlənməsinə ehtiyac duyulurdu. Bu zərurətdən irəli gələrək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2006-cı il tarixli, 1886 nömrəli Sərəncamına əsasən Bakıda Heydər Əliyev Mərkəzi yaradılıb. Mərkəz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin öyrənilməsi, Heydər Əliyev irsinin tədqiqi və təbliği, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya və iqtisadiyyatın inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata keçirilməsi, Azərbaycan tarixi və mədəniyyətinin, Azərbaycan dilinin və digər milli-mənəvi sərvətlərinin beynəlxalq aləmdə tanıdılması və təbliği, eləcə də dünya mədəniyyətinin, müxtəlif sivilizasiya nümunələrinin Azərbaycanda tanıdılması, yerli, regional və beynəlxalq konfrans, simpozium və digər tədbirlərin keçirilməsi istiqamətində fəaliyyət göstərir. Heydər Əliyev Mərkəzi, həmçinin digər ölkələrin analoji qurumları, araşdırma mərkəzləri ilə elm, təhsil, mədəniyyət, iqtisadiyyat, idman, ekologiya kimi müxtəlif sahələrdə birgə layihələr həyata keçirir. Heydər Əliyev irsinin araşdırılması, təbliği və fondlarda qorunması istiqamətində fəaliyyət göstərən Mərkəzin ən cəlbedici və maraq doğuran bölümü Heydər Əliyev Muzeyidir. Muzey Azərbaycan tarixinin və ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dönəmlərini əks etdirir. Burada toplanan məlumatlar ziyarətçilərə interaktiv formada çatdırılır. Üç mərtəbədən ibarət muzeydə ümummilli lider Heydər Əliyevə aid maraqlı faktlar, foto və video materiallar və digər ünikal eksponatlar təqdim olunur.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda elmi-praktiki konfrans keçirilib



Aprelin 24-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyi ilə əlaqədar "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda elmi-praktiki konfrans keçirilib.

Konfransda Elm-Tədris Mərkəzinin rəisi Nazir Bayramov, rəis müavini Günay Əyyubova, kafedra rəisləri-böyük prokurorları – Yelena Qasımova, Elxan Əsgərov, Talıb Cəfərov, böyük prokuroru İsrafil Məmmədbəyov, prokurorları - Anar Tağıyev, Akif Rzayev ulu öndər Heydər Əliyevin həyatı, ictimai-siyasi fəaliyyəti barədə geniş məlumat veriblər. Vurğulanıb ki, ümummilli liderin uzaqgörən siyasəti və gərgin əməyinin nəticəsi olan islahatlar nəticəsində Azərbaycanda hüququn aliliyinə, ədalətə, bərabərliyə, insan hüquq və azadlıqlarına hörmətə söykənən demokratik cəmiyyətin təməli qoyuldu, siyasi və iqtisadi müstəqilliyin möhkəm əsasları yaradıldı, vətəndaş cəmiyyətinin institusional mexanizminin əsasları quruldu, ölkənin beynəlxalq nüfuzu yüksəklərə qaldırıldı, respublikamızın on illərlə ölçülən müddət üçün strateji inkişaf perspektivləri müəyyən edildi.

Çıxış edənlər Heydər Əliyevin SSRİ rəhbərliyində çalışdığı və müstəqillik illərinə təsadüf edən xatirələrini yada salıblar, onun fenomenal insani və işgüzar keyfiyyətləri barədə geniş yayılmış bilgilərin həqiqətə söykənməsini konkret faktlarla təsdiqləyiblər.

Konfransın işinə yekun vuran Elm-Tədris Mərkəzinin rəisi qeyd edib ki, ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti vətənə, xalqa və onun dövlətçiliyinə fədakarcasına xidmət nümunəsi kimi indi yaşayan və sonrakı nəsillər tərəfindən dərindən öyrənilməli, onun ideyaları, təcrübəsi, bütövlükdə zəngin irsi düzgün qərarlar qəbul edilməsi üçün tükənməz bilgi mənbəyi olmalıdır.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluğun idarəsində "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda tədbir keçirilib



Mayın 1-də Baş Prokurorluğun Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərinin istintaq, təhqiqat və əməliyyat axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyi ilə əlaqədar "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda tədbir keçirilib.

Tədbirdə ilk öncə ümummilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra idarənin rəisi Elşən Abbasov geniş məruzə ilə çıxış edərək Azərbaycanın otuz ildən artıq müddətdə dövlət quruculuğu, iqtisadi inkişaf, ictimai-siyasi və sosial həyatında tərəqqi dövrünü əhatə edən epoxanın ümummilli lider Heydər Əliyev ilə bağlılığından danışıb. Bildirilib ki, Azərbaycan Respublikasının müstəqillik əldə etdiyindən sonra ulu öndər Heydər Əliyevin həyata keçirdiyi iqtisadi inkişaf doktrinasının reallaşdırılması sayəsində Azərbaycan dünya iqtisadi sektorunda ən sabit və yüksək inkişaf indikatorlarına malik ölkəyə çevrilib. Onun gərgin və qətiyyətli əməyi hesabına dövlət müstəqilliyi qorunub saxlanılıb, müstəqil dövlət quruluşu, dövlət atributları yaradılıb, inkişaf etdirilib, ölkənin ərazi bütövlüyü, suverenliyi təmin edilib, vətəndaşların rifahının yaxşılaşdırılması mümkün

olub. Respublikada bütün sahələrə – elm, təhsil, mədəniyyət, insan hüquqları, söz və mətbuat azadlığı, iqtisadiyyat, təhlükəsizlik, ictimai-siyasi sabitlik, demokratik prinsiplərin və təsisatların yaradılması və inkişafı, dövlət aparatının möhkəmləndirilməsi, həyat qabiliyyətli tarazlı xarici siyasət modelinin və s. inkişafına diqqət yetirib. Azərbaycanın müasir dünyaya inteqrasiyası üçün şərait yaradıb. Rəhbərliyi dövründə ölkənin daxili və xarici siyasətində köklü dəyişiklik baş verib, uğurlar qazanılıb. Azərbaycan Respublikasının müstəqilliyi həm ölkənin vətəndaşları, həm də qlobal miqyaslı güc mərkəzləri üçün aksioma çevrilib, Heydər Əliyevin şəxsiyyəti, iradəsi, təcrübəsi “millət”, “dövlətçilik”, “idarəçilik sistemi”, “hakimiyyət”, “inkişaf etmiş iqtisadiyyat”, “mənəvi dirçəliş”, “liderlik”, “transformasiya”, “çox vektorluq” kimi sistem dəyərlərinin təşəkkülündə və möhkəmləndirilməsində mühüm rol oynayıb. Müstəqil Azərbaycanın əsas qanununun – Konstitusiyasının müəllifi kimi dövlət hakimiyyətinin müstəqil prinsiplər əsasında bölünməsinə, beynəlxalq standartlara uyğun hüquq normalarının və qanunvericilik bazasının yaradılmasına, müasir idarəetmə üsullarının tətbiqinə, cəmiyyətdə qanunun aliliyinin bərqərar olunmasına nail olub. Hüquq-mühafizə orqanlarında sağlam mənəvi mühitin formalaşması istiqamətində prinsipial addımlar atmış, cinayətkarlığa, xüsusən rüşvətxorluğa və korrupsiya kimi ağır cinayətlərə qarşı genişmiqyaslı, güclü və səmərəli mübarizə təşkil edib. Məhz onun qayıdışından sonra respublikada ictimai-siyasi sabitliyin, qanunçuluğun bərqərar edilməsi, milli dövlətçiliyin və ictimai təhlükəsizliyin qorunması istiqamətində atılan məqsədyönlü addımlar cəmiyyətdə qanunçuluğa hörmət prinsipinin bərpasına, cəmiyyətin cinayətkar ünsürlərdən təmizlənməsinə, güclü və səmərəli hüquq-mühafizə sisteminin formalaşmasına şərait yaradılıb. Ulu öndərin şəxs iradəsi və siyasi uzaqgörənliyi nəticəsində Azərbaycanın parçalanıb dağılmaq, müstəqilliyini itirmək və vətəndaş qarşıdurması təhlükəsindən xilas olunub, qısa müddət ərzində dövlət və hakimiyyət böhranına xaos və anarxiyaya son qoyulub, torpaqların işğalı prosesinin qarşını alan atəşkəs barədə razılaşma əldə edilib. Çoxsaylı dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı qətiyyətlə alınmaqla sabitliyə nail olunub, insanların dinc yaşaması üçün təhlükə yaradan cinayətkarların hakimiyyətə meydan oxuması, qanunsuz silahlı birləşmələrin mövcudluğu kimi mənfi təzahürlər aradan qaldırılmaqla kriminogen durum stabilləşdirilib. İslahatlar nəticəsində Azərbaycan Prokurorluğu da cəmiyyətdə öz nüfuzunu bərpa edib, yüksək ictimai etimad qazanmağa nail olub, dövlətçiliyin etibarlı sütunlarından birinə çevrilib. Prokurorluq orqanlarının səlahiyyətləri beynəlxalq standartlara uyğunlaşdırılıb, kadr korpusu formalaşdırılıb, peşəkarlıq səviyyəsi yüksəldilib. Ulu öndər Heydər Əliyevin qurub yaratdığı müasir, müstəqil Azərbaycanın daha da inkişaf etməsi naminə bundan sonra da qətiyyət və əzmlə işləmək, insan hüquq və azadlıqlarının müdafiəsinə, ictimai-siyasi sabitliyin, əmin-amanlığın və dövlətçiliyin layiqincə qorunmasına xidmət etmək prokurorluğun hər bir işçisinin şərəfli borcudur.

İdarənin rəis müavinləri – Rauf Məmmədov, İldırım Vəliyev, böyük prokuror-metodist Namiq Muradov və digər işçilər də ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən çıxışlar ediblər.

Yekunda qeyd olunub ki, ulu öndər Heydər Əliyevin əziz xatirəsi daim Azərbaycan xalqının qəlbində yaşayacaqdır.

**Baş Prokurorluğun Fövqəladə Hallar Nazirliyi,**
**Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərinin**
**istintaq, təhqiqat və əməliyyat axtarış fəaliyyətində**
**qanunların icrasına nəzarət idarəsi**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda konfrans keçirilib



Aprelin 26-da Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda konfrans keçirilib.

Konfransda Naxçıvan Muxtar Respublikasının prokuroru vəzifəsini icra edən Səbuhi Şahverdiyev qeyd etib ki, müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və misilsiz işlər görmüş ulu öndər Heydər Əliyev hər zaman iftixar hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Ulu öndər Azərbaycan xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran, cəmiyyətdə qanunçuluğu, hüquq qaydalarını təmin edən dahi rəhbər idi. 1969-cu ildə Heydər Əliyevin respublikamızda rəhbərliyə gəlməsi, sovet rejiminin sərt qanunlarına baxmayaraq, Azərbaycanda böyük iqtisadi, elmi və ədəbi-mədəni inkişafa, müstəqil düşüncəyə yol açdı. Müstəqil Azərbaycanın sosial-iqtisadi bünövrəsi də məhz Heydər Əliyevin sayəsində həmin dövrdə qoyulmuş və ölkəmizin gələcəyi üçün möhkəm təməl yaradılmışdır. Heydər Əliyev şəxsiyyətinin böyüklüyünə, onun tərəfindən görülmüş işlərin möhtəşəmliyinə xalqımız tərəfindən verilən qiymətin nəticəsidir ki, 1969-cu ildən başlayan dövr "Azərbaycan tarixinin Heydər Əliyev dövrü" kimi səciyyələndirilir. Heydər Əliyevin adı ilə bağlı olan hər bir gün Azərbaycanın tale tarixi kimi qəbul edilir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda cərəyan edən mürəkkəb və ziddiyyətli ictimai-siyasi proseslərə qətiyyən biganə qalmayan ulu öndər Heydər Əliyev hələ Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtlarda əsl vətənpərvərliklə, lider təəssübkeşliyi ilə dövlət müstəqilliyinin qazanılması və milli özünüdərkin təmin olunması prosesində yaxından iştirak etmişdir. Respublikamızda geniş vüsət almış milli azadlıq hərəkatı ilə eyni dövrdə xalqda milli heysiyyəti, özünüdərki daha da gücləndirən, milli dövlət rəmzlərinə hörmət təlqin edən genişmiqyaslı addımlar da məhz ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına rəhbərlik etdiyi dövrdə atılmışdır. Muxtar Respublikanın ali orqanının 1990-cı il noyabrın 17-də keçirilmiş sessiyasında Azərbaycanın milli dövlət dirçəlişi prosesinin həyata keçirilməsi məsələsi geniş müzakirə olunmuş, Naxçıvan MSSR-in adından "sovet" və "sosialist" sözləri çıxarılmış, onun Naxçıvan Muxtar Respublikası adlandırılması barədə tarixi qərar verilmişdir. Sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması haqqında qərar qəbul edilmiş, eyni zamanda, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Ali Soveti qarşısında üçrəngli bayrağın bütövlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdır.

Dövlət müstəqilliyini qazanmış Azərbaycanın ilk dövrlərdə üzləşdiyi fəlakət və sarsıntılar, ağır sosial-iqtisadi böhran, xaos və anarxiya mühiti bir daha təsdiqlədi ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Belə bir böhranlı və ağır vəziyyətdə xalq çıxış yolunu yenə də müdrik şəxsiyyətin - ulu öndər Heydər Əliyevin hakimiyyət sükanı arxasına keçməsində görmüşdür. Xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda hakimiyyətə qayıdan Heydər Əliyev yorulmaq bilmədən, qətiyyətlə Azərbaycanın başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürmüş, ictimai-siyasi sabitliyin tam bərpasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, cəbhə bölgəsində atəşkəs rejiminə nail olmuş, habelə demokratik inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi siyasət strategiyasını irəli



sürmüşdür. Əgər bu həlledici mərhələdə çağdaş tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş əlamətdar hadisə baş verməsəydi, xalqın istəyi və tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, tərəqqi edən, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik. Azərbaycanda 1993-cü ildən sonra dövlət quruculuğu uğurla həyata keçirilməyə başlandı. Onun dühasının qüdrəti sayəsində Azərbaycanın demokratik quruculuq və milli inkişaf yolu milli xüsusiyyətlər və xalqın mənəvi dəyərləri nəzərə alınmaqla həyata keçirilməyə başlandı. Ölkədə siyasi və milli-ideoloji birliyin təməli qoyuldu, dövlətçilik ənənələri milli düşüncə tərzinə çevrildi, bütün vətəndaşlarımızın ümdə əqidəsi oldu. Bir sözlə, dövlət quruculuğu sahəsində nailiyyətlər, qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin qurulması və sair bu kimi uğurlar Heydər Əliyev dühasının bəhrələri idi. Xalq-Heydər Əliyev birliyinin sarsılmazlığı isə bütün mərhələlərdə yüksələn xətlə inkişaf etdi.

Hüquqi, demokratik və dünyəvi dövlətin əsaslarını yaratmaq məqsədilə ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycanın ilk Konstitusiyası hazırlanır və 1995-ci il noyabrın 12-də referendumda xalq tərəfindən qəbul edilir. Konstitusiyada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplər təsbit olunur. İnsan hüquq və azadlıqlarına, habelə onların təminatlarına xüsusi yer ayrılır, onların təmin edilməsi isə dövlət siyasətinin həlledici istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin əsas məqsədi kimi müəyyən edilir. Təsadüfi deyil ki, hüquqi dövlətin ayrılmaz atributu kimi insan hüquq və azadlıqlarının qorunması sonradan ölkədə həyata keçiriləcək hüquqi islahatların əsas istiqamətini müəyyən edir. Hüquqi islahatların həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi sahəsində qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradılır. Bu Komissiya ilkin mərhələdə reallaşdırılacaq hüquqi islahatlarının prioritetlərini müəyyən edir və Sovet İttifaqından miras qalmış hüquq sisteminin fəlsəfəsini tamamilə dəyişdirir. Azərbaycanda aparılan hüquqi islahatların özülünə ümumbəşəri demokratik prinsiplər, qanunun aliliyi və insan hüquqlarının müdafiəsi kimi fundamental dəyərlər, ədalət mühakiməsinin prinsipləri qoyulur. Eyni zamanda xalqımızın dövlətçilik tarixi və ənənələri, inkişaf etmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsi nəzərə alınır.

Müstəqil Azərbaycan Respublikası milli prokurorluğunun dövlətçiliyin maraqlarına və insan hüquqlarının müdafiəsinə xidmət edən sivil bir qurum kimi formalaşması da ölkəmizdə həyata keçirilən hərtərəfli islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının memarı kimi yalnız ulu öndər Heydər Əliyevin dövlətçilik siyasəti, onun qayğısı nəticəsində mümkün olmuşdur. Məhz ümummilli liderin 26 aprel 2000-ci il tarixdə Respublika Prokurorluğunun rəhbər işçiləri ilə keçirdiyi

və Azərbaycan Prokurorluğunun həyatında müstəsna rol oynamış tarixi görüşdən sonra Azərbaycan Respublikası Prokurorluğunda hərtərəfili islahatlara başlanılmaqla, Dövlət başçısının tövsiyə və göstərişlərinə müvafiq olaraq həyata keçirilən tədbirlər nəticəsində prokurorluğun demokratik məzmunda yeniləşməsi, mövcud neqativ təzahürlərin aradan qaldırılması, müasir standartlar səviyyəsində işləməyə qadir olan kadr korpusunun formalaşdırılması, son nəticədə cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi üçün zəruri tələblər səviyyəsinə qaldırılması təmin edilşmişdir. İndi cəsarətlə demək olar ki, prokurorluq orqanlarında köklü və mütərəqqi islahatların banisi yalnız ulu öndər Heydər Əliyevdir.

Ulu öndər Heydər Əliyevin dövlətçilik və siyasi fəaliyyətində bəşəri meyarlarla yanaşı, milli mənəviyyata bağlılıq həmişə öncül yerlərdən birini tutmuşdur. Bütün məsələlərdə mənəvi dəyərləri önə çəkən, xalqımızın mental baxışlarını hər zaman yüksək dəyərləndirən Heydər Əliyev dövlətçilik məsələlərində də milli-mənəvi dəyərlərimizə çox bağlı bir şəxsiyyət idi. Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi möhtəşəm dövr Azərbaycanın ən yeni tarixinə sosial-iqtisadi yüksəliş dövrü kimi yazıldı. Bu dövr ərzində ulu öndər ölkəmizi təhlükə və çətinliklərdən qurtararaq ardıcıl inkişaf yoluna çıxardı, ictimai-siyasi sabitlik təmin olundu, iqtisadi inkişafa geniş meydan açıldı, ölkəyə xarici sərmayələr cəlb edildi, dövlət idarəçiliyi mexanizmi yenidən yaradıldı, nizami ordu quruldu, genişmiqyaslı siyasi, hüquqi, iqtisadi, sosial və mədəni islahatlar həyata keçirildi, ölkə iqtisadiyyatının dinamik inkişafı təmin edildi. Bir sözlə, Heydər Əliyev zəngin siyasi fəaliyyəti ilə Azərbaycan dövlətinin tarixində müstəsna rol oynamışdır. Məhz buna görə xalqımız ulu öndərin adını tarixə dövlətimizin xilaskarı, memarı və qurucusu kimi həkk etmişdir. Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil dövlətimizin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir.

Bu gün Heydər Əliyev ideyalarının alternativi olmadığını xalqımız çox gözəl anlayır. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, doğma vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər ulu öndərin qoyduğu yolun davamından başqa cür qiymətləndirilə bilməz. Dinamik sosial-iqtisadi inkişaf, ölkəmzin dünya birliyində öz yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyevin zəngin ictimai-siyasi irsinin davam etdirilməsinin, ideyalarının yaşamasının, siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir. Bu yüksəliş Heydər Əliyevin həm də uzaqgörən bir strateq olaraq müəyyən etdiyi inkişaf konsepsiyasının alternativsizliyini tam dolğunluğu ilə təsdiq edir.

Bu il aprelin 11-də keçirilən prezident seçkiləri bir daha təsdiq etdi ki, respublikamız demokratiya yolu ilə inamla irəliləyir. Ona görə də bu mühüm siyasi hadisə bütün parametrləri ilə Azərbaycanın siyasi tarixinə demokratik və azad seçkilərdən biri kimi düşdü. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın daha xoş sabaha olan inamını qat-qat artırdı, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratdı. Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davamını aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və ölkə Prezidentinin ətrafında daha da sıx birləşməklə Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri sırasında layiqli yerini tutmasına nail olmağı ulu öndərin ruhu qarşısında mənəvi borcu sayır. Ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin öyrənilməsi, onun ölməz ideyalarının geniş təbliğ olunaraq praktik həyatda tətbiqi və gələcək nəsillərə çatdırılması, eləcə də ölkəmizin beynəlxaq miqyasda təbliği və yaxından tanıdılması müasir və sürətlə dəyişən qloballaşma dövründə xüsusilə aktualdır.

Sonda ifadə olundu ki, öz müdrik siyasəti ilə yeni və müstəqil Azərbaycan dövlətini yaradan ulu öndər Heydər Əliyevin şəxsiyyətinə xalqımızın ehtiramı böyükdür. Dahi şəxsiyyətin parlaq və unudulmaz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq və onun dühası ölkəmizin gələcək inkişaf yollarını daima işıqlandıracaqdır.

Konfransda Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Məhərrəm Talıbov, Muxtar Respublika Prokurorluğunun şöbə rəisləri – Pərviz Zülfüqarov, Faiq Səfərov, Nihad Abbasov və Tural Məmmədov ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının tərəqqisi naminə gürdüyü möhtəşəm işlərdən danışdılar.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun işçiləri Heydər Əliyev Muzeyində olublar



Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun işçiləri mayın 5-də Heydər Əliyev Muzeyində olublar.

Muzeyə tanışlıq zamanı qeyd olunub ki, görkəmli ictimai-siyasi xadim, dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının ulu öndəri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş ümummilli liderimizin adını daşıyan Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 18 fevral 1999-cu il tarixdə imzaladığı Sərəncamla Naxçıvan şəhərində yaradılmışdır. Muzey 10 may 1999-cu ildən fəaliyyət göstərir. Muzeydə ümummulli lider Heydər Əliyevin ailəsinə, onun uşaqlıq



və gənclik illərinə həsr olunmuş stendlər, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə (1991-1993-cü illər) aid şəxsi sənəd və materiallar, imzaladığı məktub, qərar və sərəncamlar, Türkiyə Cümhurəyyəti və İran İslam Respublikası ilə əməkdaşlıq sahəsində imzaladığı müqavilələrin surətləri, Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətləri toplanmışdır.

Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev Muzeyini yeni yaranmış digər muzey və mərkəzlərdən fərqləndirən əsas cəhət odur ki, bu muzey ulu öndərin doğulub boya-başa çatdığı, ilk əmək fəaliyyətinə başladığı, 1969-cu ildən Azərbaycanın rəhbəri kimi qurub-yaratdığı, 90-cı ildən isə qoruyub saxladığı və sonrakı illərdə himayəsi ilə günü-gündən inkişaf edib çiçəklənən doğma Naxçıvan torpağında yaradılmışdır. Həmçinin bu muzey ümummilli liderin hələ sağlığında Azərbaycanda yaradılmış ilk muzeydir. Naxçıvandakı Heydər Əliyev Muzeyinin özünəməxsus səciyyəvi cəhətlərindən biri də burada ulu öndərin muzeyin yerləşdiyi regionla əlaqələrinə dair xeyli eksponatların mövcud olmasıdır.

Heydər Əliyev Muzeyi ümummilli liderin həyat və fəaliyyət fəlsəfəsinin, elmi-nəzəri irsinin, Azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı öz üzərinə götürmüş və bu gün də həmin missiyanı uğurla həyata keçirir. Muzeyin zəngin ekspozisiyası onu seyr edən hər kəsin qəlbində dərin iz qoyur, yüksək təəssürat yaradır. Dahi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətini, ölkəmizin tarixi taleyində oynadığı misilsiz rolunu, əvəzsiz xidmətlərini özündə ehtiva edən Heydər Əliyev Muzeyi respublikamızda analoqu olmayan bir məbədgahdır. Bütün Heydər Əliyev sevənlərin ziyarətgahına çevrilmiş muzey ulu öndərimizin dövlətçilik, Azərbaycançılıq, vətənpərvərlik ideyalarını təbliğ edərək gəncləri ümummilli liderimiz Heydər Əliyev kimi xalqa, Vətənə və dövlətə sədaqətli olmağa çağırır.








Ümummilli lider Heydər Əliyev 1999-cu il oktyabr ayının 13-də muxtar respublikaya səfəri zamanı muzeyə gələrək muzeyin ekspozisiyası ilə tanış olmuşdur. Ulu öndərin muzeyi ziyarəti zamanı çəkilmiş tarixi fotolar bu gün muzeyin ekspozisiyasında nümayiş etdirilir. Muzeydə nümayiş etdirilən eksponatlar ümummilli liderimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir. Muzeydə zəngin fond materialları, orijinal sənədlər və eksponatlarla dahi rəhbərin mənalı həyatı, xalqımızın rifahı, xoş gələcəyi naminə fəaliyyətinin ayrı-ayrı dövrləri, mərhələləri işıqlandırılmış, hər mərhələ, hər bir tarixi hadisə ilə bağlı dahi şəxsiyyətin fikirləri, seçilmiş müdrik, nəsihətamiz kəlamları ekspozisiyada öz əksini tapmışdır. Dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada ümummilli liderin uşaqlıq və gənclik dövrü, təhsil illəri, ilk əmək fəaliyyəti, 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti dövrü zəngin materiallarla nümayiş etdirilir.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş tədbir keçirilib



Mayın 8-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyi münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev geniş məruzə ilə çıxış edərək qeyd edib ki, xalqlarının taleyində müstəsna rol oynayan liderlər həm də milli dövlətçilik ideyalarının gerçəkləşməsində mühüm rol oynayır, tərəqqi üçün dayanıqlı əsasların, mütərəqqi inkişaf strategiyasının müəllifinə çevrilirlər. Ulu öndər Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda Azərbaycanda siyasi hakimiyyətə gəlməsi xalqımızı milli müstəqilliyə doğru aparan işıqlı yolun əsasını qoymuşdur. Ulu öndər Heydər Əliyev 1969-cu il 5 avqust tarixli plenumda ölkədə qanunçuluğun, hüquq qaydalarının təminatı sahəsində vəziyyətin qənaətbəxş olmadığını vurğulamış, sonrakı mərhələdə hüquqi mexanizmlərin gücləndirilməsinə başlayaraq məmur özbaşınalığına, korrupsiya və rüşvətxorluğa qarşı amansız mübarizə aparmışdır. Heydər Əliyev deyirdi: "...Biz "qanunçuluq" deyəndə Cinayət Məcəlləsindən çox cəmiyyətimizin əxlaq kodeksini nəzərdə tuturuq. Özü də hüquq pozuntuları, onların profilaktikası bizim üçün təkcə hüquqa aid məsələ deyildir. Bu, sosial və mənəvi məsələdir, çünki söhbət ən əvvəl insan uğrunda mübarizədən, sovet adamının hüquqlarına hörmətdən, ləyaqət

və şərəfinin qorunmasından, onda ən yaxşı vətəndaşlıq keyfiyyətlərinin, yüksək əxlaqi prinsiplərin tərbiyə edilməsindən gedir".

Dünyanın ən aparıcı dövlətlərinin tarixində onları sınağa çəkən, inkişaf yolunda maneəyə çevrilən hadisələr az olmamışdır. Bu hadisələr istər başlanğıcda, istərsə də sonralar həmin xalqları tutduqları yoldan döndərməyə çalışsa da, böyük iradə həmin xalqların firavan inkişaf yoluna çıxmasına kömək etmişdir. Dünya xalqları buna görə məhz şəxsiyyətlərə, onların adı ilə bağlı olan zəngin siyasi irsə minnətdardır. Yəni tarix şəxsiyyətləri insanlara sanki özlərinin sınaqları üçün bəxş etmişdir. Hər bir siyasi lider həm də müəyyən ideoloji-siyasi irsin daşıyıcısıdır. Bu mənada əminliklə demək olar ki, Heydər Əliyevin yüksək dövlətçilik təfəkkürü sayəsində həyata vəsiqə alan milli azərbaycançılıq ideologiyası hər bir vətəndaşın maraqlarını özündə ehtiva etməklə, xalqın daimi birliyi və həmrəyliyində vacib amildir. Hər bir fərd bu ideologiya və baxışlar sistemində özünün ictimai dəyərlər dərəcəsinə yüksəlmiş istək və arzularının dolğun ifadəsini tapır, özünü inkişaf prosesinin müşahidəçisi deyil, fəal iştirakçısı qismində görür. Əslində, Heydər Əliyev ideyalarını müstəsna edən və onun uğurunu şərtləndirən başlıca cəhətlərdən biri də məhz budur.

Ulu öndər Heydər Əliyev malik olduğu yüksək dövlətçilik və idarəçilik səriştəsi ilə dövlət müstəqilliyinin əbədiliyi üçün məsuliyyətdən çəkinməmişdir. Çətinliklərə mətinliklə sinə gərərək, təbiətin ona bəxş etdiyi fədakarlıq, mübarizlik, əyilməz iradə, özünəinam və siyasi uzaqgörənlik, ideya və fikirlərini sadə şəkildə geniş xalq kütlələrinə təlqin etmək kimi fövqəlkeyfiyyətlərindən məharətlə bəhrələnərək, xalqı vətəndaş qarşıdurmasından, müstəqilliyi itirmək təhlükəsindən qurtarmışdır.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin 15 iyununda Azərbaycanda ali hakimiyyətə qayıdışı ölkədə qanunçuluğun, hüquq qaydalarının bütün sahələrdə möhkəmlənməsini təmin etməklə yanaşı, qanunverici orqanın cəmiyyətdəki nüfuzunu qaldırmış, onun təşəkkülünə, ölkənin ictimai-siyasi həyatının sabitləşməsinə, habelə milli parlamentarizm ənənələrinin inkişafına böyük zəmin yaratmışdır. Ulu öndər bu mərhələdən etibarən ictimai-siyasi sabitliyi tam təmin edərək sonrakı mərhələdə həyata keçirdiyi çoxşaxəli islahatlarla bir daha sübuta yetirmişdir ki, güclü iqtisadiyyata, müstəqil xarici siyasətə, demokratik imicə, mənəvi yüksəlişə malik olmayan xalq güclü dövlət qura bilməz. Böyük strateq iqtisadi və hüquqi islahatların paralelliyini təmin etməklə məhz bu prinsipə əsaslanmışdır ki, hüquqi dövlət insanların birgə fəaliyyətinin təşkili və tənzimlənməsinin mühüm amili, onların qarşılıqlı münasibətlərinin qaydaya salınmasının, cəmiyyətdə nizam-intizamın və sabitliyin təmini vasitəsidir.

1995-ci il noyabr ayının 12-də xalqın azad iradəsi əsasında Azərbaycanın mütərəqqi ənənələrə söykənən ilk milli Konstitusiyasının qəbuluna nail olan ümummilli lider sonrakı mərhələdə dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi ədalətli cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin tam bərqərar olması naminə misilsiz xidmətlər göstərmişdir. İctimai həyatın ən müxtəlif sahələrində haqq-ədalət prinsipinin qorunmasına çalışan Heydər Əliyev yalnız bu yolla dövlətlə xalq arasında möhkəm mənəvi, siyasi və hüquqi bağlantıya, qarşılıqlı etimada nail olmağı mümkün hesab etmişdir.

Ümummilli lider Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, onu özündən sonra inamla idarə edəcək, çoxşaxəli mütərəqqi islahatların varisliyini uğurla təmin edəcək peşəkar lider də yetişdirmişdir. Hələ 2003-cü ilin oktyabrında ulu öndər Heydər Əliyevin "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" deməklə cəmiyyətə özünün layiqi davamçısı kimi təqdim etdiyi cənab İlham Əliyevin 15 illik prezidentlik fəaliyyətinin ümumi təhlilinə nəzər saldıqda həmin fikrin qəti qənaət olduğunun bir daha təsdiqləyir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında qazanılan nailiyyətlər ölkənin yüksək inkişafına, hərtərəfli tərəqqisinə xidmət edən əzəmətli vasitəyə çevrilmək gücündə olduğunu sübuta yetirir. Bu il aprel ayının 11-də keçirilən prezident seçkiləri bir daha təsdiq etdi ki, respublikamız demokratiya yolu ilə inamla irəliləyir. Ona görə də bu mühüm siyasi hadisə bütün parametrləri ilə Azərbaycanın siyasi tarixinə demokratik və azad seçkilərdən biri kimi düşüdü.

Müstəqil Azərbaycan Respublikası milli prokurorluğunun dövlətçiliyin maraqlarına və insan hüquqlarının müdafiəsinə xidmət edən sivil bir qurum kimi formalaşması da ölkəmizdə həyata keçirilən hərtərəfli islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının memarı kimi yalnız ulu öndər Heydər Əliyevin dövlətçilik siyasəti, onun qayğısı nəticəsində mümkün olmuşdur. Ulu öndər qeyd edirdi ki: “Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram”. Böyük dövlət xadiminin rəhbərliyi altında prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndi-

rilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması baxımından hüquqi zəmin formalaşdırmışdır. "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativ-hüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Ümummilli liderin 2000-ci il aprel ayının 26-da Respublika Prokurorluğunun rəhbər işçiləri ilə keçirdiyi və Azərbaycan Prokurorluğunun həyatında müstəsna rol oynamış tarixi görüşdən sonra Azərbaycan Respublikası Prokurorluğunda hərtərəfili islahatlara başlanılmaqla, Dövlət başçısının tövsiyə və göstərişlərinə müvafiq olaraq həyata keçirilən tədbirlər nəticəsində prokurorluğun demokratik məzmunda yeniləşməsi, mövcud neqativ təzahürlərin aradan qaldırılması, müasir standartlar səviyyəsində işləməyə qadir olan kadr korpusunun formalaşdırılması, son nəticədə cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi üçün zəruri tələblər səviyyəsinə qaldırılması təmin edilşmişdir.

İndi cəsarətlə demək olar ki, prokurorluq orqanlarında köklü və mütərəqqi islahatların banisi yalnız ulu öndər Heydər Əliyevdir. Ulu öndərin banisi olduğu bu islahatlar davamlı şəkildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin etimad və qayğısı nəticəsində demokratik məzmunda tamamilə yenidən formalaşmış Azərbaycan Prokurorluğunun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsində, onun əbədiliyi və daimiliyi üçün bütün təminatlar yaratdığı dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitlik və əmin-amanlığın hər cür cinayətkar qəsdlərdən qorunmasınada bu kursun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində həmişə yaxından iştirak edəcək, dövlətçiliyin qorunması, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi üçün üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Tədbirdə çıxış edən digər natiqlər ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının tərəqqisi naminə gürdüyü möhtəşəm işlərdən danışdılar.

**Naxçıvan Muxtar Respublikası Pokurorluğu**

# Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda tədbirlər keçirilib

"Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinin qeyd edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planı"na əsasən, aprelin 2-də Naxçıvan şəhər prokurorluğunda, aprelin 3-də Şərur rayon prokurorluğunda, aprelin 4-də Babək rayon prokurorluğunda, aprelin 5-də Culfa rayon prokurorluğunda, aprelin 16-da Ordubad rayon prokurorluğunda, aprelin 17-də Şahbuz rayon prokurorluğunda, aprelin 18-də Kəngərli rayon prokurorluğunda, aprelin 19-da isə Sədərək rayon prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda tədbir keçirilib.

Həmçinin Naxçıvan Muxtar Respublikası Prokurorluğunda və Muxtar Respublikanin tabe rayon (şəhər) prokurorluqlarının inzibati binalarında ümummilli lider Heydər Əliyevə həsr olunmuş guşələr yenidən təşkil edilib, prokurorluq orqanlarının əməkdaşları ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə əlaqədar agacəkmə kampaniyasında fəal iştirak ediblər.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Hərbi Prokurorluqda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda elmi-praktiki konfrans keçirilib



Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə mayın 7-də Hərbi Prokurorluqda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda elmi-praktiki konfrans keçirilib.

Konfransda Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev, Hərbi Prokurorluğun işçiləri, Milli Məclisin deputatları Musa Quliyev, İlham Məmmədov və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Respublika Hərbi Prokurorluğunun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə ulu öndərin abidəsi önünə əklil qoyub və gül dəstələri düzərək bu böyük şəxsiyyətə dərin ehtiramlarını bildiriblər.

Konfransda əvvəlcə ümummilli lider Heydər Əliyevin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Elmi-praktiki konfransda çıxış edən Xanlar Vəliyev dahi şəxsiyyətin çoxşaxəli, şərəfli, mənalı ömür yolundan, zəngin dövlətçilik təcrübəsindən, dövlətimiz və millətimiz qarşısındakı misilsiz xidmətlərindən



söz açaraq, ulu öndərin müəyyən etdiyi, Azərbaycanın parlaq gələcəyinə hesablanmış siyasi kursu uğurla davam etdirən Azərbaycanın Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə əldə edilmiş böyük nailiyyətləri diqqətə çatdırıb.

Hərbi prokuror bildirib ki, bir qərinədən də çox zaman kəsiyində ölkənin rəhbəri olmuş ümummilli lider Heydər Əliyev təkcə bu dövrdə deyil, bütün həyatı boyu Azərbaycanın və onun xalqının rifahını düşünərək, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ömrünü bu yolda fəda etdiyi üçün qəlblərdə daimi sevgi, yaddaşlarda əbədiyaşarlıq qazanıb. Məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə tarixin ən sərt və çətin sınaqlarından keçən xalqımız əxz etdiyi milli dövlətçilik ənənələrini vahid sistem halına salaraq özünütəsdiq imkanı qazanıb, müstəqil dövlətdə yaşamaq və özünü idarə etmək haqqını qorumağı bacarıb.

Xanlar Vəliyev qeyd edib ki, müstəqilliyin ilk illərində ölkənin məruz qaldığı hərbi təcavüz, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələri, habelə ölkə daxilində vətəndaş müharibəsinin reallığa çevrildiyi bir şəraitdə nicat axtaran xalqımızın yeganə ümidi olan ulu öndər Heydər Əliyev belə bir mürəkkəb vəziyyətdə - 1993-cü ildə xalqın təkidli çağırışı ilə respublika rəhbərliyinə qayıtdı. Dahi rəhbər dərin təfəkkürü, iti zəkası, polad kimi mətin iradəsi, müdrikliyə söykənən qeyri-adi cəsarəti və bənzərsiz qətiyyəti sayəsində millətimizi və dövlətimizi böyük bəlalardan xilas edərək Azərbaycanı keçmiş Sovet İttifaqından miras qalmış rejimdən çıxararaq, ölkəmizin güclü iqtisadiyyatı olan demokratik, hüquqi və dünyəvi dövlətə çevrilməsinə müvəffəq olub.

Diqqətə çatdırılıb ki, ümummilli lider Heydər Əliyevin dahiliyi, siyasi idarəçilik təcrübəsi, klassik və çağdaş mənada dövlətçiliyin təməl prinsiplərinə dərindən bələd olması və siyasi fəaliyyəti boyu həmin prinsiplərə istinad etməsi bu fenomenal şəxsiyyətin uzaqgörənliyini, müdrikliyini, ən ekstremal vəziyyətlərdə doğru qərar qəbul etmək bacarığını və qələbələrini şərtləndirən amillər idi.

Azərbaycan xalqının ən parlaq şəxsiyyətlərinin fövqündə dayanan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi, həmçinin gərgin əməyi və yorulmaz fəaliyyəti ilə respublikamızda aparılan islahatlar və əldə olunmuş böyük nailiyyətlərdən bəhs edən Xanlar Vəliyev son 15 il ərzində ölkəmizin sürətlə və hərtərəfli inkişaf etməsini, dövlətimizin daha da qüdrətlənməsini xüsusi vurğulayıb. Bildirib ki, Azərbaycan ötən dövrdə misli görünməmiş uğurlar əldə etməklə, iqtisadiyyatının 3,5 dəfədən çox artmasına, 1,6 milyondan çox yeni iş yerinin açılaraq işsizliyin 5 faizə endirilməsinə, yoxsulluq səviyyəsinin 10 dəfəyə qədər azaldılmasına nail olub. Bununla yanaşı, maddi-



texniki bazası möhkəmləndirilmiş, arsenalı müasir silah və digər hərbi texnika ilə zənginləşdirilmiş, şəxsi heyəti dərin nəzəri biliklərə və peşəkar vərdişlərə malik hərbçilərlə komplektləşdirilmiş, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşdırılıb. Habelə ölkənin müasirləşməsi sahəsində irimiqyaslı layihələr icra olunub, paytaxt Bakı ilə yanaşı, regionlar da sürətli inkişaf etdirilib, insanların yaşayış və əmək şəraiti əsaslı yaxşılaşdırılıb.

Xanlar Vəliyev bildirib ki, ölkədə insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, dünya tarixi-mədəni irsinin inkişafına və tolerantlığa xüsusi önəm verilməsi, beynəlxalq hüquqa və dünyada mövcud olan siyasi dəyərlərə sədaqət Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla, dünya dövlətləri sırasında mövqeyini gücləndirib.

Ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlardan danışan hərbi prokuror bu nailiyyətlərin qazanılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əvəzsiz xidmətlərini xüsusi vurğulayıb. Xanlar Vəliyev Birinci vitse-prezident Mehriban xanımın böyük dövlət xadimi kimi uzun illər ərzində ölkəmizin hərtərəfli və sürətli inkişafı, dövlətçiliyimizin möhkəmləndirilməsi, xalqımızın rifahının yaxşılaşdırılması, dövlətimizin, xalqımızın, mədəniyyətimizin və milli dəyərlərimizin bütün dünyaya tanıdılması istiqamətində zəngin və çoxşaxəli fəaliyyəti barədə ətraflı məlumat verib.

Milli Məclisin deputatı Musa Quliyev və İlham Məmmədov böyük şəxsiyyət Heydər Əliyevin zəngin və mənalı həyatından, ali idarəçilik təcrübəsindən, onun uzaqgörən və müdrik siyasətinin layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilməsindən danışıblar.

Sonda Xanlar Vəliyev aprelin 11-də Azərbaycan xalqının növbəti dəfə düzgün seçim etdiyini, bu müdrik seçimin ümummilli liderə və Prezident cənab İlham Əliyevə xalqda yaranmış sonsuz inam və sevgidən irəli gələn zərurətdən doğduğunu xüsusi vurğulayaraq bildirib ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən siyasətin Azərbaycan Prezidenti tərəfindən uğurla davam etdirilməsində, o cümlədən dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, qanunun aliliyinin təmin edilməsində yaxından iştirak etməklə Azərbaycanın firavan gələcəyinin təminatı olan bu siyasəti daim dəstəkləyəcək.

Tədbir əbədiyaşar öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən filmin nümayişi ilə başa çatıb.

**Hərbi Prokurorluq**

# Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar tabe rayon (şəhər) prokurorluqlarında silsilə tədbirlər keçirilib

Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikanın hərtərəfli inkişafında və ölkədə bütün sahələrin canlanmasında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə tabe rayon (şəhər) prokurorluqlarında silsilə tədbirlər keçirilib.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyi çərçivəsində tabe rayon (şəhər) prokurorluqlarında "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" və "Azərbaycanda müasir prokurorluq sisteminin formalaşmasında Heydər Əliyevin rolu" mövzularında elmi-praktiki konfranslar keçirilib.

Konfranslarda ulu öndər Heydər Əliyevin demokratik hüquqi dövlət quruculuğu istiqamətində fəaliyyətindən, müasir hüquq sisteminin formalaşması, prokurorluq orqanlarının inkişafında müstəsna rolundan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsindən danışılıb.

Digər tədbirlər çərçivəsində anma mərasimləri, yığıncaqlar, dəyirmi masalar təşkil edilib, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, ölkədə hüquqi dövlət quruculuğu prosesində gördüyü işlərə və milli prokurorluq orqanlarının formalaşması istiqamətində həyata keçirdiyi fəaliyyətə dair kütləvi informasiya vasitələrində çıxışlar edilib, məqalələr dərc edilib.

Tabe prokurorluqların inzibati binalarında ümummilli lider Heydər Əliyevə həsr olunmuş guşələr yenidən təşkil edilib. Hər rayon və şəhərdə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, xatirəsi böyük ehtiramla anılıb. Bölgələrdə Heydər Əliyev Muzeyi, Mərkəzi ilə tanışlıq həyata keçirilib.

## Bakı şəhəri, Suraxanı rayon prokurorluğu



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinin qeyd edilməsi ilə əlaqədar martın 31-də rayon prokurorluğunda müşavirə keçirilib.

Tədbirdə ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətini və xalqını zamanın ən çətin sınaqlarından çıxardaraq ölkənin ictimai-siyasi, ictimai və mədəni-mənəvi tərəqqisinə nail olması, bugünki uğurların məhz onun strategiyasının təntənəsi olması, dövlətin, xalqın taleyində misilsiz xidmətləri barədə məlumatlar verilib. Hüquqi islahatların həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi sahəsində görülən işlər, bu siyasətin Prezident cənab İlham Əliyev tərəfindən hazırda uğurla davam etdirilməsi diqqətə çatdırılıb.

## Abşeron rayon prokurorluğu





Aprelin 20-də Abşeron rayon prokurorluğunda Yeni Azərbaycan Partiyası Abşeron rayon təşkilatının və rayon prokurorluqları əməkdaşlarının iştirakı ilə ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr edilmiş "Heydər Əliyev və Azərbaycanın inkişaf strateqiyası" mövzusunda elmi-praktiki konfrans keçirilib.

Tədbirdə çıxış edən Abşeron rayon prokuroru Rahib Seyidov öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi ilə xalqın müstəqillik arzusunun gerçəkləşdirilməsini və möhkəm bünövrə üzərindən qurulmasını təmin edən və bütün həyatını xalqına həsr edən ümummilli lideri Heydər Əliyevin müasir Azərbaycan tarixindəki rolu, demokratik və hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi tədbirlər barədə ətraflı məlumat verib.





Bildirilib ki, cəmiyyətdə haqq-ədalətin zəfər çalması, insanların hüquq və azadlıqlarının müdafiəsi, hər bir ictimai münasibətin qanunla nizamlanması, qanunvericilik bazasının təkmilləşdirilməsi ulu öndərin rəhbər seçildiyi 1969-cu ildən başlayacaq daim diqqət mərkəzində olmuşdur.

Rahib Seyidov prokurorluq orqanlarının dövlətçiliyimizin maraqlarına, qanun aliliyinə, insan və vətəndaş hüquqlarının qorunmasına xidmət edən bir dövlət təsisatı kimi formalaşmasının, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunverici, maddi və sosial bazasının yaradılmasının ulu öndər Heydər Əliyevin zəhmətinin bəhrəsi olmasını bildirib, dahi şəxsiyyətin siyasi kursunun layiqli davamçısı kimi Prezident İlham Əliyev tərəfindən prokurorluq orqanlarına daim diqqət və qayğı göstərilməsini, prokurorluq əməkdaşlarının əməyinin layiqincə qiymətləndirilməsini xüsusi qeyd edib.

Rayon prokuroru rəhbərlik etdiyi kollektivin Heydər Əliyevin dövlətçilik ideyalarına daim sadiq qalacağını, dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitliyin hər cür cinayətkar qəsdlərdən qorunması işində səylərini daha da artıracağını, Prezident



İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasəti daim dəstəkləyəcəyini vurğulayıb.

Konfransda Yeni Azərbaycan Partiyası Abşeron rayon təşkilatının sədr müavini İlham Manafov “Heydər Əliyev Azərbaycanda hüquqi dövlətin banisidir” mövzusunda çıxış edib, ulu öndərin həyat yolu, siyasi fəaliyyəti, zəngin dövlətçilik təcrübəsi, Azərbaycanın inkişafı naminə misilsiz xidmətləri barədə tədbir iştirakçılarına ətraflı məlumatlar verib.

Konfransda prokurorluğun gənc əməkdaşları adından rayon prokurorunun köməkçisi Əsgər Həsənovun ümummilli liderin rəhbərliyi altında ölkəmizin bütün sahələr üzrə dinamik inkişafı, yüksək sosial-iqtisadi inkişaf göstəricilərinin əldə edilməsi, dünya dövlətləri birliyinə inteqrasiya proseslərini sürətləndirən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda ciddi addımların atılması, məhkəmə-hüquq islahatları çərçivəsində həyata keçirilmiş tədbirlər, o cümlədən Azərbaycan Prokurorluğu orqanlarının formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində görülmüş möhtəşəm işlər barədə geniş məruzəsi dinlənilib.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin həyat və fəaliyyəti, ölkəmizdə hüquqi dövlət quruculuğu prosesində gördüyü işlər barədə YAP rayon təşkilatının aparat rəhbəri Abbas Əliyev və digər natiqlər çıxış ediblər.

## Ağcabədi rayon prokurorluğu

Aprelin 17-də Ağcabədi rayon prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda elmi-praktiki konfrans keçirilib.

Konfransda Yeni Azərbaycan Partiyasının Ağcabədi rayon təşkilatı sədri, ictimaiyyət nümayəndələri, rayon ərazisində fəaliyyət göstərən pedaqoji institut və kollec tələbələri, habelə rayon prokurorluğunun işçiləri iştirak ediblər. Tədbirdən əvvəl rayon prokurorluğunun inzibati binasında ümummilli lider Heydər Əliyevə həsr edilən guşədə şəkillərlə tanışlıq həyata keçirilib. Sonra konfransda ulu öndər Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən, xalqın və dövlətin qarşısındakı misilsiz xidmətlərindən danışılıb.












Aprelin 26-da ulu öndər Heydər Əliyevin Ağcabədi rayonunun mərkəzi meydanındakı abidəsi önünə tər çiçəklər düzülərək xatirəsi dərin ehtiramla anılıb, sonra rayon ərazisində Heydər Əliyev Mərkəzi ziyarət edilib, həyat və fəaliyyətinə dair fotoşəkillərlə, Ağcabədiyə səfərlərinə dair müxtəlif eksponatlar ilə tanışlıq aparılıb.

## Daşkəsən rayon prokurorluğu



Daşkəsən rayon prokurorluğunda “Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi” mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə prokurorluğun işçiləri ilə yanaşı rayon hüquq-mühafizə orqanlarının əməkdaşları da iştirak ediblər.

Mayın 10-da ümummilli lider Heydər Əliyevin rayon ərazisinin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyularaq xatirəsi dərin ehtiramla yad olunub. Sonra rayondakı





Heydər Əliyev Muzeyi ilə tanışlıq həyata keçirilib.

Muzeydə Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən fotolara, dahi rəhbərin uşaqlıq, gənclik illərinə aid, milli təhlükəsizlik orqanlarında çalışdığı illərə, respublikaya rəhbərliyinin hər iki dövrünə aid, rayonlara səfərlərini, zəhmətkeşlərlə görüşlərini, xarici ölkələrə səfərlərini, ölkəmizin sosial-iqtisadi sahədə dirçəlişi, Azərbaycanın yeni neft strategiyasının hazırlanması və həyata keçirilməsini, ordu quruculuğu sahəsindəki fəaliyyətini əks etdirən zəngin fotoşəkillərə baxılıb. “Heydər Əliyev muzeyi”nin eksponatları və muzeydə nümayiş etdirilən fotoşəkillər ulu öndərin həyat və fəaliyyətini əks etdirir.

## Gədəbəy rayon prokurorluğu






Gədəbəy rayon prokurorluğunda “Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi” mövzusunda tədbir keçirilib. Tədbirdən əvvəl rayon prokurorluğunun inzibati binasında ümummilli lider Heydər Əliyevə həsr edilən guşədə şəkillərlə tanışlıq həyata keçirilib. Sonra çıxışlara başlanılıb.

Ulu öndər Heydər Əliyevin rayonun mərkəzi meydanındakı abidəsi ziyarət edilib, xatirəsi dərin ehtiramla yad olunub. Heydər Əliyev Mərkəzi ziyarət edilib, həyat və fəaliyyətinə dair fotoşəkillərlə, Ağcabədiyə səfərlərinə dair müxtəlif eksponatlar ilə tanışlıq aparılıb.

Foyedə ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Gədəbəy rayonuna səfərlərini əks etdirən fotolardan ibarət stendlərlə, həyatının və çox şaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar, tarixi sənədlər və nümayiş olunan digər fotoşəkillərlə tanışlıq həyata keçirilib. Bu foto və materiallarda ümum-




milli lider Heydər Əliyevin istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərlik edərkən ölkənin inkişafına xüsusi diqqət göstərməsi dolğun əksini tapıb. Ulu Öndərin ölkədəki müxtəlif obyektlərin açılışında iştirakı, ictimaiyyətin nümayəndələri, ziyalılar və zəhmətkeşlərlə görüşlərinin əks olunduğu fotolar da maraq doğurub.



## Gəncə şəhər prokurorluğu

Gəncə şəhər prokurorluğunun inzibati binasında ümummilli lider Heydər Əliyevə həsr olunan guşə yenidən təşkil edilib.

Prokurorluğun kollektivi Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət edərək xatirəsini dərin ehtiramla yad ediblər.



## Goranboy rayon prokurorluğu



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyi ilə əlaqədar Goranboy rayon prokurorluğunda dəyirmi masa keçirilib.

Tədbirdə müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin 1969-cu ildən başlayaraq respublikaya rəhbərlik etdiyi uzun bir dövrün ayrı-ayrı tarixi məqamları, parlaq siyasi zəkası və istedadı sayəsində dövləti və xalqı üçün fədakarlıqları, əldə olunan nailiyyətlər barədə danışılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi daxili və xarici siyasəti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın ulu öndər Heydər Əliyevin ideyalarının reallaşdırılmasında, ümumiyyətlə xalqa, vətənə göstərdikləri xidmətləri barədə də məlumat verilib.

## Kürdəmir rayon prokurorluğu

Aprelin 10-u və mayın 10-da Kürdəmir rayon prokurorluğunda “Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi” mövzusunda tədbirlər keçirilib.





Tədbirlərdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən, daxili və xarici siyasətindən, ölkədə həyata keçirdiyi islahatlardan, prokurorluq orqanlarına göstərdiyi diqqət və qayğıdan danışılıb.

Rayon prokurorluğunun inzibati binasında ulu öndər Heydər Əliyevə həsr olunan guşə yenidən təşkil edilib. Rayon mərkəzində Heydər Əliyev adına parkda ümummilli liderin abidəsi ziyarət edilərək xatirəsi dərin ehtiramla yad edilib.



## Lənkəran rayon prokurorluğu



Aprelin 24-də Lənkəran rayon prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda seminar keçirilib.

Tədbirdə ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətindən, fəaliyyətinin müxtəlif dövrləri haqqında maraqlı faktlardan məlumatlar verilib.

## Masallı rayon prokurorluğu

Aprelin 30-da Masallı rayon prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda seminar keçirilib.

Tədbirdə ulu öndər Heydər Əliyevin dövləti və xalqı qarşısındakı mühüm xidmətlərindən, prokurorluq orqanlarında apardığı islahatlar nəticəsində prokurorluğun qanunun aliliyinin təmin olunmasında, vətəndaşların hüquq və əsas azadlıqlarının müdafiəsinə xidmət etməklə dövlətçilik maraqlarından çıxış edən demokratik, sivil və mütərəqqi qurum kimi formalaşmasında, prokurorluğun fəaliyyətinin təminatı üçün maddi-sosial bazasının yaradılmasında əməyindən və s. danışılıb.

## Oğuz rayon prokurorluğu



Mayın 8-də Oğuz rayon prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda tədbir keçirilib.

Tədbirdə ulu öndər Heydər Əliyevin azad insan və vətəndaş cəmiyyətinin formalaşdırılması, milli dövlətçiliyin qurulması, qanunçuluğun və hüquq qaydalarının bərpası və möhkəmləndirilməsi, cinayətkarlığın bütün təzahürlərinin qarşısının alınması sahəsində həyata keçirdiyi ardıcıl və ciddi siyasətindən, gərgin və əhəmiyyətli fəaliyyətindən danışılıb. Prokurorluq orqanlarına göstərdiyi qayğının nəticəsində bu təşkilatın yeni müstəviyə qaldırılması, nüfuzunun yüksəldilməsi, səlahiyyətlərinin artırılması, sosial müdafiə və maddi təminatının möhkəmləndirilməsindən söz açılıb.




Yubileyin qeyd edilməsi çərçivəsində rayon prokurorluğunun inzibati binasında ulu öndər Heydər Əliyevə həsr olunan guşə yenidən təşkil edilib. Mayın 10-da rayonun mərkəzində ucaldılmış Heydər Əliyevin abidəsi ziyarət edilərək xatirəsi dərin ehtiramla anılıb.

## Qəbələ rayon prokurorluğu








Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinin qeyd edilməsi çərçivəsində rayon prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda tədbir keçirilib, prokurorluğun inzibati binasında ulu öndər Heydər Əliyevə həsr olunan guşə yenidən təşkil olunub, rayonun mərkəzində ucaldılmış Heydər Əliyevin abidəsi ziyarət edilərək xatirəsi dərin ehtiramla yad edilib.









## Quba rayon prokurorluğu

Aprelin 4-də və mayın 10-da rayon prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda tədbirlər keçirilib, prokurorluğun inzibati binasında ulu öndər Heydər Əliyevə həsr olunan guşə yenidən təşkil olunub. Mayın 10-da ulu öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək xatirəsi dərin ehtiramla yad edilib.

## Qobustan rayon prokurorluğu





Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinin qeyd edilməsi çərçivəsində rayon prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda tədbir keçirilib, prokurorluğun inzibati binasında ulu öndər Heydər Əliyevə həsr olunan guşə yenidən təşkil olunub.

## Neftçala rayon prokurorluğu

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinin qeyd edilməsi çərçivəsində mayın 3-də rayon prokurorluğunda toplantı keçirilib. Tədbirdə ulu öndər Heydər Əliyevin dövlətin, xalıq taleyində, prokurorluq orqanlarının inkişafında misilsiz xidmətlərindən danışılıb.









Rayonun ictimaiyyət nümayəndələrinin, digər hüquq-mühafizə orqanlarının əməkdaşları ilə ulu öndər Heydər Əliyevin Neftçala şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyulub, xatirəsi dərin ehtiramla yad edilib.

Tədbirlər çərçivəsində rayon ərazisində ağaclar əkilib, digər yaşıllaşdırma işləri görülüb.

## Şəki şəhər prokurorluğu

Aprelin 26-da Şəki şəhər prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda tədbir keçirilib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhər ərazisinin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyularaq xatirəsi dərin ehtiramla yad olunub. Sonra prokurorluğun inzibati binasında prokurorluğun inzibati binasında ümummilli lider Heydər Əliyevə həsr edilən guşədə şəkillərlə tanışlıq həyata keçirilib. Tədbirdə şəhər prokuroru Elmar Camalov tədbir iştirakçıları qarşısında çıxış edib, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, misilsiz xidmətlərindən danışıb.










## Şəmkir rayon prokurorluğu










Rayon prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda konfrans keçirilib. Tədbirdə prokurorluğun işçiləri ilə yanaşı rayon hüquq-mühafizə orqanlarının əməkdaşları da iştirak ediblər.

Yubileyin qeyd edilməsi çərçivəsində rayon prokurorluğu tərəfindən ağac əkmə kampaniyası təşkil edilərək işçiləri rayonun İsrafil Məmmədov küçəsində yerləşən torpaq sahəsində 195 ədəd meyvə ağacı, 35 ədəd şam ağacı və 450 ədəd gül-bəzək kolları əkiblər.

## Ucar rayon prokurorluğu

Mayın 2-də Ucar rayon prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda tədbir keçirilib.

Tədbirdə prokurorluğun işçiləri ilə yanaşı qonaqlar – "Yeni söz" qəzetinin baş redaktoru və digər şəxslər iştirak ediblər. Tədbir başlamadan əvvəl ulu öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Rayon prokuroru Elşən Abdullayev tədbiri giriş sözü ilə açaraq Azərbaycan dövlət müs-



təqilliyinin əbədi, dönməz və sarsılmaz bir tarixi nailiyyətə çevrilməsində Heydər Əliyevin xidmətlərindən danışıb.

Daha sonra ulu öndərin nəsillərə nümunə olan həyat və mübarizə yolu haqqında rayon prokurorluğunun müstəntiqi Elvin Teymurzadə məruzə ilə çıxış edib. Prokurorun köməkçisi Elmir Paşazadənin "Hüquq sisteminin formalaşmasında Heydər Əliyev irsi" mövzusunda çıxışı ilə müasir hüquq sisteminin qurulmasında ulu öndərin gördüyü işlərdən bəhs edib.



Mövzu ətrafında rayon "Yeni söz" qəzetinin baş redaktoru Səbuhi Vəliyev və başqaları çıxış ediblər.

Sonda rayon prokuroru bir daha müasir dövlət quruculuğunda ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərini qeyd edərək həmin siyasətin bu gün də ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi bildirilib.

Mayın 10-da ictimaiyyət nümayəndələri ilə birlikdə ümummilli lider Heydər Əliyevin rayon ərazisinin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyularaq xatirəsi dərin ehtiramla yad olunub.

## Zəngilan rayon prokurorluğu



Aprelin 19-da Zəngilan rayon prokurorluğunda "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda tədbir keçirilib.

Tədbirdə Müasir Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın xilaskarı olan ümummilli liderimiz Heydər Əliyevin siyasi kursu, misilsiz xidmətlərindən danışılıb.

***

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinin qeyd edilməsi çərçivəsində digər rayon (şəhər) prokurorluqlarında da silsilə tədbirlər həyata keçirilib.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Prokurorluq işçilərinin kütləvi informasiya vasitələrində dərc olunmuş məqalələri

## Heydər Əliyev Azərbaycanda hüquqi islahatların banisidir

**Azərbaycanın müasir tarixini ümummilli lider Heydər Əliyevin fəaliyyətindən kənar təsəvvür etməyin mümkünsüzlüyü ictimai fikirdə birmənalı şəkildə qəbul edilən real həyat həqiqətidir. Bu həqiqət nəinki Azərbaycanın müasir mövcudluğunda, həm də ona aparan yollarda qarşıya çıxan saysız-hesabsız maneələrin aradan qaldırılmasında ulu öndər Heydər Əliyevin nümayiş etdirdiyi uzaqgörənlikdə, iradə və qətiyyətdə, müdriklik və dərin zəkada təzahür edir.**

Azərbaycan xalqı öz dövlət müstəqilliyini əldə etdikdən sonra cəmiyyətin gələcək inkişafı üçün hüquqi islahatların həyata keçirilməsi, tamamilə yeni mütərəqqi və demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin, qanunvericilik bazasının formalaşdırılması zərurir idi. Lakin, 90-cı illərin əvvəllərində ölkədəki mövcud vəziyyət qarşıda duran həyati əhəmiyyətli vəzifələrin yerinə yetirilməsinə imkan vermirdi. Azərbaycanda hüquqi dövlət quruculuğu prosesinə başlanılması ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərqərar olunmasını zəruri edirdi. Məhz belə ağır vəziyyətində xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev qısa zaman kəsiyində Azərbaycanda ictimai-siyasi sabitliyi tam təmin etməyə nail oldu. Davamlı ictimai-siyasi sabitliyə nail olunması isə vətəndaşların hüquq və mənafelərinin müdafiəsinə, beynəlxalq münasibətlər sisteminə inteqrasiyaya istiqamətlənən, sosial ədalət prinsipinə əsaslanan demokratik və hüquqi dövlət quruculuğuna imkan yaratdı. Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması isə ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin nəticəsidir.

Demokratik, hüquqi və dünyəvi dövlət kimi formalaşmış müasir Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkül tapması, milli-mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin misilsiz tərəqqisi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun həyata keçirdiyi genişmiqyaslı milli dövlət quruculuğu proqramı ölkəmizin bütün sahələrdə qazandığı uğur və nailiyyətlərin konseptual əsası olmuşdur. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyanın müəllifi kimi ulu öndər Heydər Əliyev dövlət hakimiyyətinin demokratik prinsiplər əsasında bölünməsinə, beynəlxalq standartlara uyğun hüquq normalarının və qanunvericilik bazasının yaradılmasına, müasir idarəetmə üsullarının tətbiqinə nail olmuşdur. “Biz demokratik, dünyəvi, sivilizasiyalı dövlət quraraq, bütün bəşəri dəyərlərdən istifadə edərək, ümumbəşəri dəyərlərin xalqımız üçün və milli mentalitetimiz üçün, mənəviyyatımız üçün uyğun cəhətləri götürüb tətbiq edərək heç vaxt dinimizdən, adət-ənənələrimizdən ayrıla bilmərik və imtina edə bilmərik” deyən ümummilli lider Heydər Əliyev Azərbaycanın demokratiya yolu ilə inkişafını gələcək üçün təminat hesab edərək fəaliyyətinin bütün dövrlərində əsas dayaq kimi xalqa arxalanırdı. Ulu öndərin mövqeyi belə idi: Azərbaycandakı bütün prosesləri xalqın istəyinə uyğun istiqamətləndirmək.

İnsan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə həyata keçirilən hüquqi islahatların ən mühümü isə yaşamaq hüququnun təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər olmuşdur. Ulu öndərin təşəbbüsü ilə 1993-cü ildə Azərbaycanda ölüm cəzasının icrasına moratorium qoyulmuş, 1998-ci il fevralın 10-da isə Azərbaycanda ölüm cəzası ləğv edildi. Bu tarixi addım isə humanizm,

insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ümummilli lider Heydər Əliyevin gələcək nəsillərə misilsiz töhfəsidir. Ulu öndər qeyd edirdi: "Mən, cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq, ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm". Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında demokratik və hüquqi dövlət quruculuğu yolunda atılan addımlır, beynəlxalq standartlara əsaslanan köklü hüquqi islahatlar insan və vətəndaş hüquq və azadlıqlarının təminatı sahəsində əsaslı dönüşə səbəb olmuşdur. Heydər Əliyevin «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirlməsi haqqında» 1994-cü il 9 avqust tarixli Fərmanı ilə cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir.

Bu bir həqiqətdir ki, müstəqil dövlətimizin ilk milli Konstitusiyasının qəbul olunması və müstəqillik tariximizdə ilk parlament seçkilərinin keçirilməsi ilə Azərbaycanın tarixi inkişafının yeni bir mərhələsi başlandı. Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanaraq ümumxalq müzakirəsinə çıxarılan Konstitusiya layihəsi 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq səsverməsində-referendumda qəbul edildi. Konstitusiyanın qəbul edilməsi ilə ölkəmizdə məhkəmə-hüquq islahatlarının əsası qoyuldu. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyasında yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər öz əksini tapmışdır. Konstitusiyada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplər təsbit olunmuş, insan hüquq və azadlıqlarının müdafiəsi isə dövlət siyasətinin əsas istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin əsas məqsədi kimi müəyyən edilmişdir.

Ölkəmizdə hüquqi islahatların həyata keçirilməsinin təmin edilməsi məqsədilə 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradılmışdır. Həyata keçirilən islahatlar qanunların və digər normativ hüquqi aktların hazırlanması, hüquqi informasiya sisteminin genişləndirilməsi, məhkəmə və bütövlükdə hüquq-mühafizə sisteminin islahatı, qanunların əhali arasında təbliği və öyrənilməsi kimi mühüm tədbirləri özündə ehtiva edir. "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Prokurorluq haqqında", "Polis haqqında" qanunların və digər aktların qəbul edilməsi ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində atılan ilk, lakin çox vacib addım olmaqla müstəqil məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə imkan yaratmışdır.

Konstitusiyada bəyan edilmiş məhkəmə hakimiyyətinin müstəqilliyi qəbul edilmiş qanunlarda daha da inkişaf etdirilərək öz real təminatını tapmış və məhkəmə hakimiyyətinin müstəqilliyinə hüquqi zəmin yaratmıdır. Bu sahədə qəbul olunmuş qanunlar isə yeni məhkəmə sistemini, onun təşkilati əsaslarını müəyyən edərək, məhkəmə və hakimlərin müstəqilliyinin təmin edilməsinə, hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminatın verilməsinə, məhkəmələrin fəaliyyətinin və hakimlərin statusunun beynəlxalq standartlara uyğunlaşdırılmasına yönəlmişdir. Həyata keçirilən islahatlar nəticəsində prokurorun məhkəmədə tərəf kimi iştirak etməsi, ittiham tərəfi ilə müdafiə tərəfi arasındakı tarazlığın bərpa edilməsi və onların məhkəmə prosesində bərabər hüquqlara malik olması, məhkəmə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsi, məhkəmə icraatında qeyri-prosessual münasibətlərə yol verilməməsi və bu kimi yeni müddəalar məhkəmə-hüquq sistemində tətbiq edilməyə başlanıldı.

Konstitusion hüquqların təminatı baxımından "Konstitusiya Məhkəməsi haqqında" Qanunun qəbul edilməsi və Konstitusiya Məhkəməsinin yaradılması demokratik-hüquqi dövlət quruculuğu yolunda atılmış böyük addım idi. Sözsüz ki, vətəndaşların Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququna malik olmaları onların hüquqlarının müdafiəsi baxımından olduqca əhəmiyyətli vasitənin əldə edilməsi deməkdir. Xüsusilə qeyd edilməlidir ki, 2002-ci il 24 avqust tarixdə keçirilmiş referendum nəticəsində Konstitusiya Məhkəməsinin səlahiyyətlərində də əhəmiyyətli dəyişikliklər edilərək, Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ olan subyektlərin dairəsi xeyli genişlənmişdir.

Cəmiyyətin inkişafı, yeni iqtisadi münasibətlərə keçid prokurorluğun da funksiyalarına və statusuna da yenidən baxılmasını zəruri etmişdir. Prokurorluq orqanlarının dövlətçilik maraqlarına, qanunun aliliyinə, insan və vətəndaş hüquq və azadlıqlarının

müdafiəsinə xidmət edən sivil və demokratik orqan kimi formalaşması, onun səmərəli fəaliyyətinin təşkili isə ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır. Əsas Qanunda prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydasında təsbit edilmişdir. Ulu öndər Heydər Əliyevin müdrik dövlətçilik iradəsi ilə gerçəkləşən bu reallıq prokurorluq orqanlarının cəmiyyətdə və dövlət təsisatları sırasında olan yerini müəyyənləşdirməklə prokurorluğa dövlət səviyyəsində göstərilən ən yüksək qayğının təzahürü kimi bizdə böyük qurur hissi doğurur. Minnətdarlıq hissi ilə qeyd etmək lazımdır ki, prokurorluq orqanlırının sonrakı dövrdə də cəmiyyətdə yüksək ictimai etimad qazanması və dövlətçiliyin sadiq keşikçisinə çevrilməsi məhz ulu öndər Heydə Əliyevin rəhbərliyi altında aparılmış mütərəqqi hüquqi islahatların nəticəsidir. Bu islahatların əsas məqsədi prokurorluq orqanlarının səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Ulu öndərimiz qeyd edirdi ki: "Azərbaycan Prokurorluğu hər zaman dövlətçiliyin və qanunçuluğun keşiyindədir. Mən hesab edirəm ki, respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiqli xidmət edir". Böyük dövlət xadiminin rəhbərliyi altında prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunu müstəsna əhəmiyyət daşımışdır. Bu Qanun prokurorluq orqanlarının fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması baxımından ciddi hüquqi zəmin formalaşdırmışdır. "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun və digər qanunvericilik aktlarının qəbul edilməsi, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativ sənədlərin təsdiq edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənmə prosesi yeni mərhələyə yüksəldilmişdir. Əldə edilmiş uğurların təməlində isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəllifi olduğu hüquqi dövlət və hüquqi sistem quruculuğu konsepsiyasının, sosial-iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirilməsi dayanır.

Ulu öndər Heydər Əliyevin prokurorluq işçilərinə ünvanlanmış dəyərli tövsiyələri və prokurorluq peşəsinə verdiyi qiymət hər bir əməkdaşın xalqına və dövlətinə sədaqət hissini gücləndirməklə böyük ruh yüksəkliyi yaratmışdır. Ümummilli liderin **"Prokurorluq peşəsi ağır çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız"** sözlərini prokurorluq işçiləri öz fəaliyyətlərində əsas istiqamət kimi götürürlər.

Ulu öndərimizin siyasi kursunu uğurla davam və inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi məqsədilə bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. Dövlət başçısı prokurorluğun cəmiyyətin və dövlətin maraqlarının qorunmasındakı rolunu qiymətləndirərək demişdir: **"Prokurorlar demokratik cəmiyyətdə prokurorluğa xas olan funksiyaları yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayırlar."**

Ötən müddətdə prokurorluq əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, onların fəaliyyətinin stimullaşdırılması istiqamətində dövlət başçısı tərəfindən bir sıra mühüm normativ aktlar imzalanmış, bölgələrdə yeni formalaşmış apellyasiya məhkəmələrində dövlət ittihamının təşkili işinə xüsusi diqqət ayrılmışdır.

Naxçıvan Muxtar Respublikasında Prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, Muxtar Respublika Prokurorluğu və tabe rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün bütün lazımi şərait yaradılmışdır. 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən

yeni inzibati binalar tikilərək prokurorluq əməkdaşlarının istifadəsinə verilmişdir. Muxtar Respublikada sosial-iqtisadi və demokratik inkişafa uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin yüksək keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət göstərilir. Azərbaycan Respublikasının Prezidentinin «Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında» 2006-cı il 02 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuşdur. Bu Fərmanın icrası nəticəsində Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün müasir standartlara tam cavab verən yeni inzibati binalar tikilmiş, Şərur rayon prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparıldıqdan sonra əməkdaşların istifadəsinə verilmişdir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı və yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalist avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilərək 2012-ci ildə Naxçıvan şəhər və Babək rayon prokurorluqlarının inzibati binalarının açılışı olmuş, prokurorluq əməkdaşlarının fəaliyyəti üçün nümunəvi şərait yaradılmışdır.

Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də "Prokurorluq haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası qanunları ilə tənzimlənir. Muxtar Respublika Prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmişdir. "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək, Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən mürdik dövlətçilik siyasəti nəticəsində bu gün Azərbaycan Respublikasında mütərəqqi və dünyəvi dəyərlərə uyğun islahatlar aparılmaqla demokratik, hüquqi və sivil dövlət qurulmuş, dönməz və dayanıqlı ictimai-siyasi sabitlik əldə edilməklə qanunun aliliyinə və insan hüquq və azadlıqlarına real təminat verən vətəndaş cəmiyyəti formalaşmışdır.

Bir sözlə, sadalanan məqamlar bir daha onu göstərir ki, bu gün insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsiplərinə prioritet istiqamət kimi müstəsna dəyər verən müstəqil Azərbaycan Respublikasının hüquqi, dünyəvi və demokratik dövlət imicinin formalaşmasında ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri əvəzsizdir. 1993-2003-cü illər Azərbaycanın demokratik prinsiplərə sadiq bir dövlət kimi inkişafında mühüm bir dövr olmaqla dünya birliyinə inteqrasiya yolunda ona çox böyük nailiyyətlər qazandırdı. Ulu öndər Heydər Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi, gərgin zəhməti və təşəbbüskarlığı, yaradıcı dühası və beynəlxalq nüfuzu olmadan bütün bunları əldə etmək isə mümkünsüz idi. Cinayətkalığa qarşı mübarizə sahəsində əldə edilmiş bütün müsbət nailiyyətlər qanunun aliliyi prinsipini fəaliyyətinin əsas devizinə çevirmiş ulu öndər Heydər Əliyevin ölkəmizdə həyata keçirdiyi məqsədyönlü hüquqi islahatların məntiqi nəticəsidir. Bu gün tam əsasla demək olar ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən mütərəqqi qanunlar, həyata keçirilən məqsədyönlü tədbirlər ölkəmizdə demokratik və hüquqi dövlətin möhkəm əsasını yaratmışdır.

Ölkəmizdə hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə qanunvercilik və institusional islahatlar daha da genişləndirilməkdədir. Demokratik və hüquqi dövlət quruculuğu prosesi hazırda ulu öndər Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Səbuhi Şahverdiyev,**
*Naxçıvan Muxtar Respublikasının prokuroru,*
*II dərəcəli dövlət ədliyyə müşaviri*
8 may 2018-ci il

# Heydər Əliyevin əbədiyaşar ideyaları bu gün də, sabah da Azərbaycanın uğurlarının təminatçısıdır

*"Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir".*
**Heydər Əliyev**
**Azərbaycan xalqının ümummilli lideri**

*"1993-2003-cü illər sabitlik, inkişaf illəri olmuşdur. Heydər Əliyev bir daha göstərdi ki, ən ağır böhran vəziyyətindən çıxış yolu var. O da cəsarətdir, düşünülmüş müstəqil siyasət və addımlardır".*
**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Hələ sağlığında canlı əfsanəyə çevrilmiş, adı daim qürur duyduğu Azərbaycanla birgə çəkilən müdrik siyasətçi və böyük nüfuza malik dövlət xadimi Heydər Əliyev siyasi uzaqgörənliyi, dərin təfəkkürü, polad kimi mətin iradəsi, iti zəkası, qeyri-adi cəsarəti və bənzərsiz qətiyyəti ilə dünyanın nadir şəxsiyyətləri sırasında şərəfli yer tutmuşdur. O, müasir bəşər tarixinin iki müxtəlif ictimai-siyasi quruluşunda hakimiyyət zirvəsinə yüksəlməyə nail olmuş və siyasi mübarizədə yenilməzliyini ömrünün sonuna kimi qoruyub saxlamağı bacarmışdır. Azərbaycanı dünyaya tanıtmaqla beynəlxalq aləmdə özünəməxsus yerini müəyyən edən bu dahi şəxsiyyətin zamanında atdığı addımların mahiyyətini, nə qədər gərəkli olduğunu indi daha dərindən dərk edir, əhəmiyyətini və nəticələrini həyatımızda hiss edirik.**

### Azərbaycanı müstəqilliyə aparan milli məfkurənin formalaşması

Məlum olduğu kimi, xalqın bir millət kimi formalaşmasının əsas şərtlərindən biri onun kimliyinin təməlini təşkil edən milli-mənəvi dəyərlər sisteminə malik olmasıdır. Buna görə də, ulu öndər Heydər Əliyev mövcud reallığı nəzərə alaraq, xalqımızın itməmiş, lakin zəiflədilmiş dəyərlərinin canlandırılması üçün ömrü boyu çalışmış, hətta kommunist rejiminin çətin şəraiti də onu bu yoldan çəkindirə bilməmişdir. Xalqların milli-mənəvi dəyərlərinin zəiflədilərək ümumi "kommunist dəyərlər" sisteminin aşılandığı bir dövrdə Heydər Əliyev xalqımızın zamanın sınaqlarından çıxmış üstün milli-mənəvi dəyərlərinin saxlanılması üçün yorulmadan çalışaraq buna müvəffəq olmuşdur.

Tarixə qısa nəzər salsaq görərik ki, XX əsrin 20-30-cu illərində ermənilərin və qeyri millətlərin bədniyyətli nümayəndələrinin yuva salmış olduğu, xalqımıza qarşı qanlı repressiyalar hazırlayıb həyata keçirmiş dövlət təhlükəsizlik orqanlarının azərbaycanlılaşdırılması və xalqımızın düşmənlərindən təmizlənməsi kimi son dərəcə çətin və şərəfli işə ilk dəfə hələ sovet rejiminin ən güclü çağında məhz Heydər Əliyev başlamışdır. Odur ki, onun bu sahədəki xidmətləri vətən və xalq qarşısında adi xidmətlər kimi qiymətləndirilə bilməz. Başqa sözlə, Heydər Əliyev 1950-1960-cı illərdə qeyrətli və milli əhval-ruhiyyəli vətən oğullarını Dövlət Təhlükəsizlik Komitəsinə işə cəlb etməklə, əslində xalqımızın namuslu övladlarına qarşı gözlənilən növbəti təqiblərin qarşısını alır, milli kadrları hər cür təhlükədən qoruyurdu.

Hər kəsə məlumdur ki, 1960-cı illərin əvvəllərində respublika iqtisadiyyatında öz həllini gözləyən çoxsaylı problemlər mövcud idi. Ölkəmizin sənaye potensialı və digər göstəriciləri aşağı səviyyədə olduğu üçün Sovet İttifaqında geridə qalmış kənd təsərrüfatı respublikası kimi tanınırdı. Azərbaycanı bu vəziyyətdən çıxarmaq üçün xalqa əsl rəhbər ola biləcək şəxsiyyətə böyük ehtiyac duyulurdu. 1969-cu ildə

hakimiyyətə gələn Heydər Əliyev xalqımızın milli mənlik şüurunun alovlanmasına təkan verməklə, məqsədyönlü tədbirlər həyata keçirərək respublikamızı qısa müddətdə sürətlə inkişaf etdirdi və nəticədə Azərbaycan geridə qalmış kənd təsərrüfatı respublikasından aqrar-sənaye respublikasına çevrilməklə, Sovet İttifaqında ön sıraya keçərək öz layiqli yerini tutdu. Bununla da, bir çox cəhətdən özünü təmin etməklə, ümumittifaq büdcəsinə böyük töhfələr verən iki respublikadan biri oldu.

### Peşəkar milli kadrların formalaşdırılması

Əlbəttə, Azərbaycan müstəqil deyildi və Sovet İttifaqında müəyyən ideoloji çərçivələr məhdudiyyət yaradırdı. Buna baxmayaraq, totalitar rejimin sərt tələblərinin qüvvədə olduğu bir dövrdə Heydər Əliyev Azərbaycana ilk dəfə olaraq fikir plüralizmi, demokratik düşüncə tərzi, güclü sosial ədalət duyğusu gətirməklə, keçmiş ittifaq rəhbərliyində çalışdığı illərdə müdrik bir siyasətçi kimi Azərbaycanın bütün sahələrdə daha da qüdrətlənməsi üçün əlindən gələni əsirgəmədi. Müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə ixtisaslı milli kadrların hazırlanması istiqamətində Heydər Əliyevin gördüyü böyük işlər bu müdrik şəxsiyyətin uzaqgörənliyinin parlaq sübutu idi. Bu məsələnin vacibliyini dərindən dərk edən ümummilli lider Heydər Əliyev hələ sovetlər dönəmində, SSRİ-nin iflas təhlükəsi heç kimin ağılına gəlmədiyi bir vaxtda milli kadrların, xüsusilə peşəkar hərbçilərin hazırlanması istiqamətində misilsiz işlər görürdü. Belə ki, o, azərbaycanlı gənclərin hərtərəfli formalaşması üçün onların ali təhsil, o cümlədən xaricdə təhsil almalarına xüsusi önəm verməklə yüzlərlə şəxsin müxtəlif dövlətlərin ali təhsil müəssisələrində, həmçinin ali hərbi məktəblərində təhsil almaları istiqamətində əməli tədbirlər həyata keçirirdi. Digər istiqamət isə ölkə daxilində milli təhsil müəssisələrinin təkmilləşdirilməsi və yeni təhsil ocaqlarının yaradılması idi. Rusiyada fəaliyyət göstərən “Suvorov”, “Naximov” uşaq hərbi məktəbləri ilə yanaşı, milli respublikalar arasında ilk dəfə və yalnız Bakıda da belə bir məktəbin açılmasına mərkəzi hakimiyyətdən icazə almaq çox çətin olsa da, Heydər Əliyev buna nail oldu və 19 iyul 1971-ci il tarixdə Silahlı Qüvvələrin peşəkar milli hərbçi heyəti ilə komplektləşdirilməsində müstəsna əhəmiyyəti olan Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı. Azərbaycanlıların hərbi peşələrə yiyələnməsini təmin etmək, milli hərbi kadrlar yetişdirmək məqsədi ilə təsis edilmiş, yaradıldığı gündən minlərlə hərbçi hazırlamış, SSRİ dövründə ittifaqın hər yerində qeyri-rəsmi olaraq “Heydər Əliyev məktəbi” adlandırılan bu təhsil ocağının ölkəmiz müstəqillik qazandıqdan sonra, milli ordu quruculuğu sahəsində əvəzsiz rol oynaması ulu öndərin siyasi uzaqgörənliyinin bariz təsdiqidir.

Ulu öndər Heydər Əliyev bütün bunlarla kifayətlənməyərək, mütəmadi olaraq, respublikanın təhsil müəssisələrində tədrisin səviyyə və keyfiyyəti ilə maraqlanaraq, bu sahəyə xüsusi diqqət yetirirdi. Bu isə öz növbəsində Azərbaycan gənclərinin təhsilə, xüsusilə ali hərbi təhsilə maraqlarının artmasına səbəb olurdu. Belə ki, onun 7 aprel 1973-cü il tarixdə Bakı Ali Ümumqoşun Komandanlıq Məktəbində olarkən orada təhsilin keyfiyyəti və azərbaycanlı kursantların sayı ilə maraqlanması, tədrisin səmərəliliyi və yerli kursantların sayının artırılması barədə göstərişləri qısa zaman kəsiyində Azərbaycanın müxtəlif bölgələrindən gənclərin hərbi məktəblərə cəlb olunmalarına, nəticədə onların peşəkar hərbçi kimi yetişmələrinə böyük təsir göstərdi.

Bununla da, ümummilli liderin şəxsi müdaxiləsi və qayğısı ilə ötən əsrin 70-ci illərindən başlayaraq ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başladı.

### Ədalətin bərpası və haqqın zəfəri

Azərbaycan inkişaf edib yüksəldikcə, onun rəhbərinin də nüfuzu artırdı. Heydər Əliyevin ali vəzifələrə seçilməsi, ardıcıl olaraq, ən yüksək fəxri adlar alması, habelə onun bilavasitə himayədarlığı ilə xalqımızın çoxsaylı mədəniyyət, incəsənət, elm xadimləri və digər ziyalılarına Sovetlər İttifaqının fəxri adları və mükafatlarının verilməsi, onların yüksək vəzifələrə təyinatı xalqımızı nə qədər qürurlandırırdısa, tarixi düşmənlərimiz olan erməniləri bir o qədər məyus edirdi. Bununla belə, onlar ilk vaxtlar bunu büruzə vermir, təfəkkür-tərzlərinə xas olan yaltaqlıqla vəziyyətdən çıxmağa çalışırdılar. 1982-ci ildə dahi öndərimizin ittifaq rəhbərliyinin ən yüksək pillələrindən birinə–SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi və Mərkəzi Komitənin Siyasi Bürosuna üzv seçilməsi ermənilər üçün növbəti ağır zərbə oldu. Yeni vəzifənin də öhdəsindən xüsusi peşəkarlıqla gələn müdrik rəhbər Heydər Əliyevin şöhrəti artdıqca, ölkə rəhbərliyinin yüksək eşelonunda əyləşənlərin də ona qarşı qısqanclıq hissləri güclənirdi və bu ermənipərəst Qorbaçovun hakimiyyətə gəlişindən sonra açıq-aşkar nəzərə çarpırdı. Yaranmış fürsətdən

istifadə edən ermənilər onun vəzifədən uzaqlaşdırılması üçün hər vasitəyə əl atırdılar. 1987-ci ilin oktyabrında Heydər Əliyev vəzifədən istefa verməyə məcbur oldu. Həmin dövrdə ölkədə yenidənqurma pərdəsi altında bir-birindən mürəkkəb proseslər baş verirdi. Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Ermənistana birləşdirmək ideyası da ortaya atıldı. Buna qədər Heydər Əliyev amili, onun gücü, dəmir iradəsi və qüdrəti erməni millətçilərini bu kimi təxribatlardan çəkindirirdi. Təsadüfi deyildir ki, erməni millətçiləri Dağlıq Qarabağ məsələsini 1987-ci ildə, Heydər Əliyevin siyasi rəhbərlikdən getməsindən heç iki həftə keçməmiş qaldırmaqla onun Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi fikrini ortaya atdı, bununla əlaqədar Xankəndidə və Ermənistanda fasiləsiz mitinqlər başlandı. Azərbaycanın o vaxtkı rəhbərliyi bu təxribatların qarşısında aciz olduğundan öz qətiyyətli mövqeyini ortaya qoya bilmədiyi üçün, həmin məsələ böyük bir problemə çevrildi və Azərbaycanın ağrılı illəri başladı. Bir tərəfdən ölkədə yaranmış özbaşınalıq, anarxiya, xaos, hakimiyyət zəifliyi, xalq ilə iqtidar arasında yaranmış uçurum, digər tərəfdən isə Ermənistanın Azərbaycana qarşı əsassız iddiaları ölkəmiz üçün ciddi çətinliklər yaradırdı. Baş verənlərdən ən faciəlisi isə “Qanlı yanvar” qırğını və torpaqlarımızın işğal olunması idi. Sözsüz ki, o dövrdə Heydər Əliyev hakimiyyətdə olsaydı bu hadisələrin heç biri baş verməzdi. Əfsuslar olsun ki, Azərbaycanın o zamankı rəhbərliyi baş verənlərin qarşısını almaq üçün heç bir iş görməməklə günahsız insanları qurban verdi.

Məlumdur ki, o vaxta qədər Heydər Əliyevin yenidən fəal siyasətlə məşğul olmaq niyyəti yox idi. Bununla belə, ümummilli lider baş verənlərə biganə qala bilməzdi. Odur ki, “xalqın, vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir”-deyən ulu öndərin hər bir təhlükəni gözaltına alaraq, heç nədən və heç kəsdən çəkinmədən 1990-cı ilin sərt qış günlərində Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlib, respublikada “20 Yanvar” faciəsini törətmiş Sovet İttifaqı rəhbərliyini kəskin şəkildə ittiham edən son dərəcə cəsarətli və qətiyyətli bəyanatla çıxış etməklə, Azərbaycan xalqının yanında olduğunu bildirməsi, yeni tarixi epoxanın başlanğıcında Heydər Əliyevin müstəqillik uğrundakı mübarizəsinin mesajı olmaqla çox böyük əhəmiyyət kəsb edirdi.

Təbii olaraq bundan sonra ona qarşı təzyiqlər və təxribatlar kampaniyası geniş vüsət aldı və həmin kampaniya daxilində hətta onu həbs etmək belə istədilər. Buna baxmayaraq, o, heç nədən və heç kimdən çəkinməyərək Azərbaycana üz tutsa da, ona Bakıda yaşamağa imkan verilmədiyi üçün doğulub boya-başa çatdığı Naxçıvana qayıtdı və orada xalq onu böyük təntənə ilə qarşıladı. Qeyd olunmalıdır ki, həmin vaxt ermənilərin məkirli niyyəti, həmçinin Naxçıvanın da işğalına yönəlsə də, Heydər Əliyev buna imkan verməyərək Naxçıvanı qorudu və müstəqilliyin əldə edilməsi yolunda həlledici addımlar atdı. Məhz onun təşəbbüsü ilə ilk dəfə olarq Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı elan edildi və Azərbaycanın Ali Məclisinə bu bayrağın dövlət bayrağı kimi qəbul edilməsi barədə vəsatət göndərildi. Bununla yanaşı, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözlərinin çıxarılması ilə müstəqilliyə doğru gedən yolda çox ciddi addımlar atıldı.

Göründüyü kimi, Azərbaycanın dövlət müstəqilliyinə gedən yol müdrik liderin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvandan başlamışdır.

### Xalqın iradəsinin təntənəsi, itirilmək təhlükəsində olan müstəqilliyin xilası

Hadisələrin məntiqi davamı olaraq, 1992-ci ilin noyabrında siyasi platforması Azərbaycanın parlaq gələcəyindən xəbər verən, ulu öndər Heydər Əliyevin xalq arasında hörmət və siyasi nüfuzuna söykənməklə, bilavasitə onun liderliyi ilə Yeni Azərbaycan Partiyası yaradıldı. Müxalifət partiyası kimi yaradılmış Yeni Azərbaycan Partiyasının siyasi arenaya gəlməsi Azərbaycanda bütün məsələlərin demokratik və sivil qaydada həll edilməsi üçün xüsusi əhəmiyyətə malik olan çox mühüm bir hadisə idi.

Yeni Azərbaycan Partiyası öz düzgün fəaliyyəti, bilavasitə xalqa və milli maraqlara xidməti sayəsində qısa zaman kəsiyində, 1993-cü ildə iqtidar partiyasına çevrildi. Azərbaycan xalqı növbəti dəfə müdrikliyini göstərib öz dahi rəhbərinə üz tutaraq onun hakimiyyətə gəlməsini təkidlə tələb etməklə Yeni Azərbaycan Partiyasının iqtidar partiyasına çevrilməsinə şərait yaratdı. Yeri gəlmişkən, qeyd olunmalıdır ki, bu partiya nəinki Azərbaycanda, həmçinin Cənubi Qafqazda ən böyük partiyadır.

Azərbaycanı və xalqını canından çox sevən ulu öndər Bakıya gəldi. Lakin Azərbaycan və Bakı onun 1982-ci ildə qoyub getdiyi məkan deyildi. Eynən, vaxtilə Napoleon qalibiyyətli “Misir yürüşü”ndən sonra Fransaya qayıdanda gördüyü və Fransa Respublikasının hökumət rəhbərlərinə “Mənim çiçəklənən vəziyyətdə qoyub getdiyim Fransanı nə kökə salmısınız? Sizə sülh qoyub getdim, qayıdanda müharibə

tapdım! Sizə İtaliyanın milyonlarını qoyub getdim, qayıdanda soyğunçu qanunlar və səfalət tapdım!”- deməklə təsvir etdiyi mənzərə ilə rastlaşan Napoleondan fərqli olaraq, ümummilli lider abad etdiyi ölkəni qayıdıb bərbad görəndə şikayətlənmədi, əksinə daha böyük cəsarət və həvəslə ölkəni bu dərin böhrandan, əslində dövlətçiliyi və müstəqilliyi itirmək təhlükəsindən xilas etmək üçün qısa müddət ərzində vətəndaş müharibəsinin dayandırılmasına nail oldu. Bundan sonra, Azərbaycanda sabitliyin bərpasını təmin etdi və böyük islahatların başlanmasına rəvac verdi. İndi hər bir Azərbaycan vətəndaşı çox gözəl bilir ki, ölkəmizin müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən 1993-cü ildə Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsəydi, nəinki bugünkü möhtəşəm Azərbaycan olmazdı, ümumiyyətlə onun mövcudluğu şübhə altına düşə bilərdi.

### Güclü iqtisadiyyat müstəqilliyin mühüm şərtidir

Ümummilli lider Heydər Əliyev deyirdi: “Azərbaycan dünyaya günəş kimi doğacaq”. Ulu öndər üçün bu kəlam gəlişigözəl söz yığını deyildi. Çünki, onun üçün Vətənə–Azərbaycana xidmət həyatın, yaşamın özü idi və buna görə də o, ömrünün qalan hissəsini də xalqına həsr etdi. Hələ dövlət müstəqilliyinin bərpasından sonrakı illərdə Heydər Əliyev yeni iqtisadi sistemə keçidin zəruriliyini bəyan etməklə yanaşı, eyni zamanda keçid prosesində əhalinin sosial maraqlarının təminatını, xüsusən aztəminatlı insanların sosial müdafiəsini, iqtisadi potensialın ilk növbədə xalqın rifahına yönəldilməsini dövlətin strateji vəzifələrindən biri kimi qarşıya qoymuşdu. Heydər Əliyevin strategiyası bazar iqtisadiyyatına keçid şəraitində aparılan islahatların əhalinin rifahına mənfi təsirinin son dərəcə azaldılmasını və köklü iqtisadi islahatlar şəraitində etibarlı sosial müdafiə sisteminin qurulmasını tələb edirdi.

Hər kəsə məlumdur ki, Heydər Əliyevin respublikamızda siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan vətəndaş müharibəsindən xilas oldu, atəşkəs haqqında saziş imzalandı, əks halda, həmin vaxtlarda Azərbaycana sərmayə gətirmək, investorları sərmayə qoymaq üçün həvəsləndirmək, onları inandırmaq həddindən artıq çətin, demək olar ki, mümkünsüz bir məsələ olardı. Ancaq bütün bunlara baxmayaraq, ulu öndər 1994-cü ilin sentyabr ayında Azərbaycanın müstəqillik tarixində mühüm əhəmiyyəti olan “Əsrin müqaviləsi” kimi bir müqavilənin imzalanmasına nail oldu. Azərbaycan neftinin dünya bazarlarına çıxmasında gərgin əməyi olan Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini də öz əlləri ilə qoymuşdur. Bundan sonra, Azərbaycanı dünyada böyük qaz potensialına malik olan bir dövlət kimi tanıdan “Şahdəniz” layihəsinin reallaşması da bu dahi şəxsiyyətin xidməti idi.

Xüsusi vurğulamaq lazımdır ki, türk dünyasının bir-birilə, o cümlədən bütün dünya ilə birləşdirilməsinə xidmət edən tarixi “İpək Yolu” layihəsinin həyata keçirilməsi işində Heydər Əliyevin təşəbbüsü və gördüyü işlər müstəsna əhəmiyyətə malikdir. Əsas məqsədi Qədim İpək Yolunun bərpasından, Orta Asiya və Qafqaz ölkələrinin dünya iqtisadiyyatına fəal qoşulmasını təmin etməkdən ibarət olan bu böyük layihənin reallaşdırılmasında Bakı-Tbilisi-Ceyhan boru xəttinin müstəsna əhəmiyyətini dərk edən Heydər Əliyev, bütün qüvvəsini əvvəlcə BTC layihəsinin, sonra isə digər mühüm layihələrin reallaşdırılmasına yönəltmişdir. Tarix onun bu uzaqgörənliyini qısa bir zamanda təsdiq etdi və göstərdi ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru xəttinin, Şərq-Qərb nəqliyyat dəhlizinin, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası və qədim “İpək Yolu”nun bərpası, Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının qüdrətlənməsinə yönələn müdrik siyasəti olmaqla bərabər, həm də türk dünyasının birləşdirilməsinə xidmət edirdi.

Azərbaycan iqtisadiyyatının son 20 illik inkişaf tarixi bariz şəkildə göstərir ki, Heydər Əliyev məntiqindəki "müstəqillik-iqtisadiyyat" dialektikası öz dərinliyi, yeniliyi və konkretliyi ilə həmişə aktualdır, həmçinin dahi rəhbərin müəyyən etdiyi bütün sahələrdə islahatlar aparmaq yolu ilə ölkə iqtisadiyyatını inkişaf etdirmək və mövcud iqtisadi potensialdan istifadənin səmərəsini artırmaqla onu xalqın bütün təbəqələrinin həyat tərzinin yaxşılaşdırılmasına yönəltmək kimi bir-birini tamamlayan iki istiqamət ölkənin müasir inkişaf gerçəkliyinin obyektiv nəzəri-praktiki təməli kimi çıxış edir. Müstəqil şəraitdə, heç kimə ümid bəsləmədən iqtisadiyyatımızı düzgün inkişaf etdirməyi, öz sərvətlərimizdən səmərəli istifadə etməklə dövlətçiliyimizi möhkəmləndirməyi, təkcə siyasi-mənəvi deyil, həm də yüksək milli gəlir əldə etməklə insanların həyat səviyyəsini yaxşılaşdırmağı əsas şərt hesab edən Heydər Əliyev deyirdi: "Müstəqillik ona görədir ki, biz öz taleyimizin sahibi olaq, öz sərvətlərimizə yiyələnək və bu sərvətlərdən istifadə edərək xalqımızın daha yaxşı yaşamasına nail olaq".

Qeyd olunmalıdır ki, Azərbaycanın müstəqil dövlət kimi varlığı və inkişafı üçün respublikanın iqtisadi

potensialı əsas şərt sayılsa da, bu potensialdan səmərəli istifadənin çox mühüm əhəmiyyət kəsb etməsi ulu öndər tərəfindən dəfələrlə vurğulanmışdır. Fəxrlə deyə bilərik ki, müasir şəraitdə dövlət müstəqilliyimiz üçün vacib olan iqtisadi potensialımız Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində formalaşmışdır. Mövcud iqtisadi potensialdan səmərəli istifadə etmək üçün hər gün, hər ay, hər rüb və hər il yorulmadan çalışmağın zəruri olduğunu bildirən Heydər Əliyev, bunu iqtisadiyyatın inkişafı, nəticədə ölkəmizin qüdrətlənməsinin və vətəndaşlarımızın rifahının yüksəldilməsinin əsas şərti kimi qiymətləndirirdi. İslahatlar aparılarkən xarici ölkələrin təcrübəsindən bəhrələnməyi daim tövsiyə etməklə yanaşı, həmin işdə kortəbii ehkamçılığa və tələskənliyə qarşı çıxan Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, bu iş Azərbaycan Respublikasının iqtisadiyyatına uyğun olaraq təşkil olunmaqla yerli şərait, milli xüsusiyyətlər və ənənələr nəzərə alınmaqla həyata keçirilməlidir. Azərbaycan üçün xarakterik xüsusiyyətlər nəzərə alınmaqla iqtisadi islahatların yüksək peşəkarlıqla aparılması sözsüz ki, Heydər Əliyev dühasının bəhrəsi idi. Dünya təcrübəsi də bunu təsdiq edir ki, islahatların müvəffəqiyyəti düşünülmüş, əsaslandırılmış strategiya və taktikadan başqa, bir çox sosial-siyasi və ideoloji amillərdən də asılıdır.

Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş fundamental iqtisadi islahatlar sayəsində sürətlə qüdrətlənən Azərbaycanda paralel olaraq digər sahələrdə, o cümlədən hüquq sahəsində də əsaslı islahatların aparılmasına zəmin yarandı.

## Hüquqi islahatlar dövlət quruculuğunun ayrılmaz tərkib hissəsidir

Məlum olduğu kimi, 1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycanda cinayətkarlığa qarşı mübarizə gücləndirilərək qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Bu barədə danışılarkən ulu öndərin 9 avqust 1994-cü il tarixdə imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərmanının misilsiz rolu xüsusi vurğulanmalıdır. Bu sahədə aparılan islahatlar, o cümlədən sözügedən fərman hüquq-mühafizə orqanlarını qanunların pozulması hallarına, xüsusən də, mütəşəkkil cinayətkarlığa, korrupsiyaya və terrorizmə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı səfərbər etməklə, "cəzanın labüdlüyü" prinsipinin real təmin olunması istiqamətində ən ciddi tədbirlər görülməsini təmin etdi. Məhz müdrik şəxsiyyət Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı. Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biri də müstəqil respublikamızın ilk Konstitusiyasının yüksək demokratik meyarlar və ümumbəşəri prinsiplər əsasında hazırlanması və ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi olmuşdur. Təsadüfi deyil ki, bu ali qanun xalq arasında "Heydər Əliyev Konstitusiyası" adlandırılır. 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə bərabər, demokratik-hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu. Heydər Əliyevin təşəbbüsü və şəxsi nəzarəti ilə həyata keçirilən islahatların hüquqi bazasının yaradılması, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm sənədlər qəbul edildi, respublikamız müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşuldu, qanunvericilik, icra və məhkəmə hakimiyyətinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədi ilə silsilə tədbirlər həyata keçirildi. Bu tədbirlər sırasında Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli Sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyasını xüsusi qeyd etmək lazımdır. Bu komissiya inkişaf etmiş dövlətlərin hüquq islahatları ilə bağlı təcrübəsindən bəhrələnərək, xalqımızın dövlətçilik tarixində yaratdığı ənənələri qorumaqla mühüm işlər gördü. Yeni ictimai münasibətlərə uyğun Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, Əmək, İnzibati Xətalar, Cəzaların İcrası və digər məcəllələrin qəbulu isə respublikamızda bu sahədə atılan addımların səmərəsini daha da artırdı.

## Bağışlamaq güclülərə xas olan xüsusiyyətdir

1993-cü ilin iyun ayından ölkəmizdə icrasına moratorium qoyulmuş ölüm cəzası 10 fevral 1998-ci il tarixdə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ləğv edildi. Heydər Əliyevi böyük şəxsiyyət kimi xarakterizə edən ən mühüm kefiyyətlərdən biri də onun siyasətinin yüksək humanizm və insanpərvərlik prinsiplərinə əsaslanması idi. Geniş ürəyə və zəngin mənəviyyata

malik olan Heydər Əliyev təqsirkarları qanunvericiliyə uyğun olaraq cəzalandırmağın tərəfdarı olsa da, onun xeyirxahlığı, insanpərvərliyi bəzi hallarda cinayətkarları bağışlamağa sövq edirdi. Azərbaycan Prezidenti yanında Əfv Komissiyasının yaradılması və əfvetmə institutunun bərpası da qeyd olunanaların əyani göstəricisidir. Xüsusi vurğulanmalıdır ki, 1995-2003-cü illərdə ümummilli lider Heydər Əliyevin imzaladığı 32 əfv fərmanı ilə üç mindən artıq məhkum azadlığa buraxılmış, eyni zamanda onun təşəbbüsü ilə bu dövrdə qəbul edilmiş "Amnistiya haqqında" Milli Məclisin yeddi qərarı 60 mindən artıq şəxsə şamil edilmişdir.

### Ulu öndər keyfiyyətcə yeni prokurorluq yaratdı

Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyin maraqlarına, qanunun aliliyinə, insan və vətəndaş hüquqlarının müdafiəsinə xidmət edən sivil bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunverici, maddi və sosial bazanın yaradılması da, ölkəmizdə həyata keçirilən möhtəşəm islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının memarı–ümummilli lider Heydər Əliyevin böyük qayğı və dəstəyi sayəsində mümkün olmuşdur. Müstəqil Azərbaycanın ali qanununda ilk dəfə olaraq ölkəmizin məhkəmə hakimiyyəti sistemində prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, onun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələrinin qanunvericilik qaydasında təsbit edilməsi də Heydər Əliyevin bilavasitə tapşırıq və göstərişlərinin icrasının nəticəsi idi. Dahi rəhbərin qanunvericilik təşəbbüsü əsasında qəbul edilmiş 7 dekabr 1999-cu il tarixli "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu qarşıda duran bu və ya digər vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmış, prokurorluq orqanlarının daha da demokratikləşməsini, onların qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etmişdir. Ümummilli lider Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə "1 oktyabr-Prokurorluq işçilərinin peşə bayramı günü"nün təsis edilməsi isə tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğa dövlət qayğısının ifadəsi, prokurorluğun roluna rəsmi münasibətin dövlət səviyyəsində təzahürü olmuşdur. Ulu öndər Heydər Əliyevin prokurorluğun, özünün dediyi kimi, çətin və şərəfli işini, həmçinin dövlətçiliyə olan sədaqətini dəyərləndirməklə, onun fəaliyyətinə yüksək qiymət verməsi hər bir prokurorluq işçisini qürurlandırmaqla bərabər, onların üzərinə daha böyük məsuliyyət qoymuşdur.

Prokurorluğa göstərilən dövlət qayğısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin 27.09.2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" da bu qayğının bariz təzahürüdür. Azərbaycan Prokurorluğunun tarixində inkişafın, təkmilləşmənin və hərtərəfli müasirləşdirmənin təməlini qoyan bu proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi, hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, fəaliyyətinin daha səmərəli təşkili, digər hüquq-mühafizə orqanları ilə əlaqələrin genişləndirilməsi, eləcə də, prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün hərtərəfli zəmin yaratdı. Yeri gəlmişkən qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun kollektivi də öz fəaliyyətində daim ümummilli lider Heydər Əliyevin ideyalarını və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin idarəçilik prinsiplərini rəhbər tutmaqla, qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərini tələb edilən səviyyədə həyata keçirməklə Silahlı Qüvvələrdə qanunçuluğun və hərbi intizamın daha da möhkəmləndirilməsinə çalışır. Ulu öndər tərəfindən əsası qoyulmuş və möhtərəm Prezidentimizin uğurla davam etdirdiyi ordu quruculuğu sahəsində həyata keçirilən kompleks tədbirlərin nəticəsi olaraq son illərdə hərbi xidmət əleyhinə olan cinayətlərin sayı kəskin şəkildə azalmış, döyüş bölgələrində fərarilik cinayətlərinin kökü tamamilə kəsilmişdir.

### Azərbaycanın parlaq gələcəyinə hesablanmış müdrik tövsiyə və xalqın seçimi

Dünya şöhrətli siyasətçi Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətindən biri də odur ki, o, zəngin idarəçilik irsi yaratmaqla, gələcək nəsillərin bundan yararlanması üçün geniş imkanlar açmışdır. Bu da ondan irəli gəlirdi ki, xalqımızın taleyi Ümummilli lideri daim düşündürən əsas məsələ idi. Bu səbəbdəndir ki, 2003-cü ildə Azərbaycan xalqı ölkənin gələcək taleyi ilə bağlı onun məsləhətinin intizarında olarkən, ulu öndər Azərbaycanın gələcəyini düşünməklə verdiyi çox dəyərli tövsiyəsi ilə xalqı düz yola istiqamətləndirdi: "İlham Əliyev yüksək intellektli,

praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu öndərə sonsuz inamı olan xalq verilən dəyərli tövsiyədən bəhrələnərək düzgün seçim etməklə, Azərbaycan xalqının bitib-tükənməz sevgisini qazanmış cənab İlham Əliyevi özünə lider seçdi.

Təbii və qanunauyğun bir haldır ki, bu gün də Azərbaycana ümummilli liderimizin zəngin dövlət idarəçiliyi təcrübəsinin əsaslarını dərindən mənimsəmiş, xalqına xidməti həyat amalına çevirmiş və Heydər Əliyev siyasətinə sadiqliyini öz müstəsna xidmətləri ilə əyani şəkildə sübuta yetirən İlham Əliyev kimi müdrik lider, qətiyyətli şəxsiyyət və hərtərəfli biliklərə malik siyasətçi rəhbərlik edir.

**Uğurların məntiqi və dinamik inkişaf**

Möhtərəm Prezidentimiz İlham Əliyev dövlət idarəçiliyinin möhkəm təməl prinsipləri əsasında Azərbaycanın sürətlə qüdrətlənməsini özünəməxsus peşəkarlıqla təmin etməklə yanaşı, onun yüksək templə inkişafını bu gün uğurla həyata keçirir. Belə ki, inkişafın başlıca strateji əsaslarından olan ictimai-siyasi sabitlik və təhlükəsizlik mühiti yüksək səviyyədə təmin edilir, ölkə iqtisadiyyatı durmadan güclənir, ordumuz müasir tələblərə uyğun daha mükəmməl qurulur, iqtisadi mənfəətin dünyanın ən qiymətli sərvəti rolunda çıxış edən insan kapitalına çevrilməsi üçün məqsədyönlü addımlar atılır, informasiya texnologiyalarının son nailiyyətləri həyatımızın ayrılmaz hissəsinə çevrilir. Təsadüfi deyil ki, ölkəmizin uğurları beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Dünya İqtisadi Forumunun hesabatlarında MDB ölkələri sırasında son illərdə Azərbaycanın liderliyini ardıcıl olaraq qoruyub saxlaması da bunun bariz nümunəsidir.

Bütün bunlarla yanaşı, ölkədə aparılan demokratik islahatlar da getdikcə daha geniş vüsət almaqla insan hüquq və azadlıqlarının təminatı sistemi daha da mükəmməlləşdirilir, tolerant bir mühit, vətəndaş cəmiyyəti formalaşdırılır. Buna görə də, hər bir vətəndaş dövlətlə sıx əlaqədə olmaqla onunla olan münasibətlərdə müəyyən edilmiş hüquq və vəzifələrini, mənsub olduğu dövlətin bugününə və gələcəyinə görə daşıdığı məsuliyyəti daha düzgün dərk edir.

Müstəqilliyin atributlarından sayılan Silahlı Qüvvələrin formalaşdırılması, bu gün qürur duyduğumuz Azərbaycan Ordusunun nailiyyətləri ulu öndər Heydər Əliyevin müdrik siyasətinin böyük uğurlarındandır. İftixar hissi ilə deyə bilərik ki, Milli Ordumuz dövlətimizin təhlükəsizliyini, əhalinin əmin-amanlığını ləyaqətlə qoruyur. Hər kəsə məlumdur ki, 2016-cı ilin aprel ayının 2-dən 5-dək təcavüzkar Ermənistanın silahlı qüvvələri işğal altında saxladıqları ərazilərimizi bir qədər də genişləndirməyə ciddi cəhd göstərdi. Silahlı Qüvvələrimizin mövqelərinə doğru irəliləmək üçün təxribatlara əl atan işğalçılar atəşkəsi ciddi şəkildə pozaraq geniş müharibə təhlükəsi yaratdı. Hərbçilərimiz böyük peşəkarlıq və şücaət göstərərək nəinki öz mövqelərini qoruya bildi, hətta düşməni mövqelərindən geri çəkilməyə məcbur etməklə, bir sıra mühüm strateji məntəqələri işğaldan azad etdi. Bu döyüş əməliyyatlarında Azərbaycan hərbçilərinin göstərdiyi peşəkarlıq və qəhrəmanlıq ordumuzun yüksək döyüş ruhunu və qabiliyyətini, torpaqlarımızı azad etməyə hər an qadir olduğunu və qələbə əzmini əyani nümayiş etdirdi. Bütün bunlar, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətinin, ordumuzun qəhrəmanlığının və xalqımızın mübarizliyinin sıx vəhdətinin nəticəsi idi. Bu döyüşlər həm də Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsinə, məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıtmasına əlverişli şərait yaratmaqla, böyük qayıdışın başlanğıcı oldu.

Azərbaycanın yüksək templə hərtərəfli qüdrətlənməsindən danışarkən dərin elmi bilikləri, geniş düşüncəsi, peşəkar idarəçilik qabiliyyəti, davranışı, xalqına və həyat yoldaşına olan sədaqəti, bir sözlə, əsl Azərbaycan xanımına xas müsbət cəhətləri ilə bütün dünya qadınlarına örnək olan Mehriban xanım Əliyevanın dövlət və xalq qarşısında geniş-miqyaslı xidmətləri haqqında danışmamaq mümkün deyil. Onun ölkənin Birinci vitse-prezidenti kimi mühüm dövlət postuna təyin edilməsi də hazırkı inkişafımızın daha da sürətlənməsinə və milli maraqlara hesablanmış bir qərar idi. Heç kəsə sirr deyil ki, xalqımızın qəlbində Mehriban xanıma dərin, misilsiz inam və etimad var. İnsanların öz dərd-səri ilə bağlı müraciətlərinin çox böyük bir hissəsinin ona ünvanlanması bunun aşkar göstəricisidir. Təbiidir ki, bu həm də dövlətimizin ədalətinə və gücünə olan inamdır. Möhtərəm Prezidentin sosialyönümlü siyasətinin həyata keçirilməsində də Mehriban xanımın zəhməti və fəaliyyəti misilsizdir. Sözsüz ki, onun bundan əvvəl iştirak etdiyi xarici və daxili

siyasətdə bütün dünyada etiraf olunan fəaliyyəti hazırda yeni statusda daha yüksək səmərəliliklə davam edir, bu da öz növbəsində xalqımızın və dövlətimizin yeni uğurları üçün xüsusi əhəmiyyət kəsb etməkdədir.

Tarixi proseslərin təhlili və müxtəlif dövrlərin təcrübəsi belə qənaətə gəlməyə əsas verir ki, varislik prinsipinə riayət edilmədən xalqın rifahına xidmət edən ideyalar məcmusunun reallaşmasının və dinamik inkişafının davamlı xarakter alması mümkün deyil. Belə ki, bu halda mövcud olan mütərəqqi ideyalar aşınmalara məruz qalaraq məhvə məhkum ola bilər. Buna görə də, müdrik və uzaqgörən, xalqa, cəmiyyətə xidmət edən ideyaların sivil qaydada, demokratik prinsiplər əsasında ötürülməsi cəmiyyətin inkişafı üçün çox vacib amildir. Bu mənada siyasi sələfindən estafet kimi qəbul etdiyi strateji inkişaf kursunu yeni müstəvidə zənginləşdirməklə müasir dövrün tələblərinə uyğun şəkildə yüksək dinamizmlə reallaşdıran möhtərəm Prezidentimiz İlham Əliyev əsl vətənpərvər və qurucu lider əzmi ilə xalq qarşısında verdiyi vədləri gördüyü işlərlə doğrultmaqla, milli ideyalara sadiqliyin mükəmməl nümunəsini yaratmışdır. Zəngin elmi biliyi, yüksək erudisiyası, uzaqgörən düşüncəsi, möhkəm siyasi iradəsi, qətiyyəti, praqmatizmi, nümunəvi idarəçilik qabiliyyəti, təvazökarlığı, sadəliyi və ən əsası Heydər Əliyev siyasi kursunun etibarlı qarantı olması ilə xalqın sonsuz rəğbətini qazanmış cənab İlham Əliyevin 11 aprel 2018-ci il tarixdə keçirilmiş Prezident seçkilərindəki növbəti parlaq qələbəsi dediklərimizi bir daha təsdiq etdi. Onun seçkilərin nəticələri elan olunduqdan sonra qələbəsini ilk olaraq məhz sadə insanlar arasında qeyd etməsi də xalqa bağlılığın parlaq təcəssümü idi. 18 aprel 2018-ci il tarixdə keçirilmiş andiçmə mərasimində "...Bizim Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyimiz Azərbaycan xalqı tərəfindən dəstəklənir. Biz bu siyasətdən dönməyəcəyik, bundan sonrakı illərdə də işğalçını bütün işlərdən, regional işlərdən təcrid edəcəyik, onları ifşa edəcəyik, gələcək illərdə isə bizim gücümüz daha da artacaq. Çünki bu gün reallaşan böyük təşəbbüslər, layihələr bizim gücümüzü daha da artıracaqdır. Onu da biz dünya birliyinə, ictimaiyyətinə çatdırırıq ki, nəinki Dağlıq Qarabağ, indiki Ermənistan bizim tarixi torpaqlarımızdır. Təkcə sözlə yox, biz sübutlarla dünya birliyinə bunu çatdırırıq. Elmi əsərlər yazılır, arxivlər qaldırılır, tarixi kitablar yazılır. Bunu sübut edən kifayət qədər tarixi sənəd var. XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin 80 faizini azərbaycanlılar təşkil edirdi. Biz bir neçə dəfə deportasiyaya məruz qalmışıq. Bütün bunları biz çatdırmalıyıq, çatdırırıq və bu, öz səmərəsini verməkdədir..."- deyən cənab İlham Əliyevin növbəti inamlı nitqi isə hər bir azərbaycanlını qürurlandırmaqla xalqda özünəgüvən hissini bir qədər də artırdı.

Möhtərəm Prezidentimiz İlham Əliyevin özünü hər zaman xalqın birinci xidmətçisi kimi bəyan etməsi də məhz Heydər Əliyev ideyalarına, onun siyasi irsinə sədaqətin göstəricisidir. Xalqına bağlılığını və xalqla iqtidar arasında olan sıx birliyi təcəssüm etdirən belə bir optimist mövqenin 2003-cü ildən bəri getdikcə daha da möhkəmləndirilməsinin nəticəsidir ki, respublikamız sürətlə inkişaf edir. Bu isə xalqda belə bir əminlik yaradır ki, Azərbaycan xalqının lideri cənab İlham Əliyevin rəhbərliyi ilə təkcə özümüzün deyil, bütün dünyanın, hətta uğurlarımıza qısqanclıqla yanaşan rəqiblərimizin də etiraf etdiyi nailiyyətlərimiz bizə hər dəfə daha yüksək zirvələr fəth etməyə imkan verəcəkdir. Möhtərəm Prezidentimizin dərin zəkaya, yüksək erudisiyaya, zəngin dövlətçilik təcrübəsinə, polad kimi möhkəm iradəyə, öz xalqına sonsuz məhəbbətə və bəşər övladına qarşı humanizmə əsaslanan idarəçiliyinin nəticəsidir ki, əhali və ərazi cəhətdən böyük olmayan Azərbaycan dövləti çağdaş dünyanın sayılıb-seçilən, sadəcə regionun deyil, bəşəriyyətin mühüm problemlərinin həllində söz sahibi olan ölkəyə çevrilmişdir.

Cənab Prezident öz fəaliyyəti ilə sübut etdi ki, millətin əzəməti və qüdrəti onun sayı ilə deyil, liderinin böyüklüyü ilə ölçülür.

Qürurumuzu artıran daha bir amil ondan ibarətdir ki, xalqımızın və dövlətçiliyimizin taleyində misilsiz rolu olan, müasir Azərbaycanın qurucusu və onun müstəqilliyinin memarı, ölkəmizi davamlı inkişaf yoluna çıxarmaqla dünya birliyinə qovuşdurmuş əvəzsiz tarixi şəxsiyyət–ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi respublikamızda, eləcə də onun hüdudlarından çox-çox uzaqlarda böyük təntənə ilə qeyd edilməklə, əbədiyaşar liderimizin xatirəsi dərin ehtiramla anılır.

Qətiyyətlə deyə bilərik ki, fədakar həyatı, çoxşaxəli və möhtəşəm fəaliyyəti ilə "Dünyanın ən böyük azərbaycanlısı" adını qazanmış ulu öndərimizin əziz xatirəsi dünya tarixində və hər bir vicdanlı azərbaycanlının qəlbində əbədi olaraq qalacaqdır.

**Xanlar Vəliyev,**
*Azərbaycan Respublikasının Hərbi prokuroru,*
*ədliyyə general-leytenantı*
"Xalq" qəzeti, 8 may 2018-ci il

# Demokratik dəyərlərə əsaslanan inkişafın Azərbaycan modeli

*Ulu öndərin adı ilə bağlı olan bu inkişaf uğurlu gələcəyə təminat yaradır*

**Müasir Azərbaycanın bütöv qərinəsi, tarixi taleyi, bu illər ərzində, xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində, sözün həqiqi mənasında, dirçəlişi ümummilli liderimiz, müstəqil respublikamızın memarı və qurucusu Heydər Əliyevin adı ilə bağlıdır. Məhz bu illərdə ulu öndərimiz rəhbəri olduğu Azərbaycanın bütün məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət, xalqımızı bir millət kimi tarixin ağır sınaqlarından uğurla çıxarmış, müasir Azərbaycanın işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Qısa müddət ərzində Azərbaycan onilliklərə bərabər tərəqqi mərhələsini keçməyi bacarmış, inkişafın özünəməxsus modelini yaradaraq qazandığı genişmiqyaslı nailiyyətlərin miqyasını davamlı artırmışdır. Bu inkişaf modelinin əsas xüsusiyyəti təkcə dinamik sosial-iqtisadi inkişaf yox, eyni zamanda demokratik meyarlar, o cümlədən hüququn aliliyini özündə ehtiva etməsi, ictimai-siyasi həyatın bütün sferalarında sürətli yüksəlişi uğurla təmin etməsidir. Əldə olunan bu möhtəşəm müvəffəqiyyətləri şərtləndirən strategiyanın müəllifi isə təkcə Azərbaycanın yox, eləcə də dünya siyasət tarixinə ən böyük şəxsiyyətlərdən biri kimi adı yazılan, fəaliyyəti ilə zamanın fövqündə dayanan, həyatını, mənsub olduğu xalqa təmənnasız xidmətə həsr edən ümummilli lider Heydər Əliyevdir.**

Hər bir xalq öz taleyində müstəsna rol oynamış fenomen şəxsiyyətlərin zəngin ömür yolunu, mükəmməl dövlətçilik və siyasi irsini, təcrübəsini öyrənərək gələcək nəsillərə çatdırır. Antik yunan filosofu Demokrit zamanında yazırdı ki, siyasət insanları inandırmaq, müəyyən məqsədlər naminə səfərbər etmək, onların şüuruna təsir göstərmək vasitəsidir. Siyasi liderin etimad qazanmaq üçün seçdiyi vasitə nə qədər dürüst və saf olarsa, xalqın həmin şəxsiyyətə inamı bir o qədər güclü olar. Bu mənada ümummilli lider Heydər Əliyevin ən nəcib mənəvi keyfiyyətlərindən biri də siyasi fəaliyyətinin bütün dövrlərində məhz sosial ədalət, düzgünlük və humanizim prinsiplərinə istinad etməsi olmuşdur. Məhz bu zəngin mənəvi keyfiyyətləri ilə ulu öndər milyonlarla insanın qəlbində ölməzlik məşəli yandırmışdır.

Azərbaycanda haqq-ədalət prinsiplərinin cəmiyyət həyatının aparıcı amilinə çevrilməsində Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. O özünün siyasi fəaliyyətində və dövlət idarəçiliyi təcrübəsində bu prinsipləri həmişə üstün tutaraq, qanunçuluğa hamı tərəfindən dürüst əməl edilməsini sağlam cəmiyyətin təşəkkül tapması üçün başlıca təməl kimi müəyyənləşdirmişdir. Qanunun aliliyini və sosial ədalətin bərqərar edilməsi üçün hələ respublikaya ilk dəfə rəhbər seçildiyi 1969-cu ildən məqsədyönlü addımlar atan Heydər Əliyev qısa müddətdə təkcə Azərbaycanda deyil, ümumən keçmiş ittifaqda haqsızlığa, hüquqa zidd əməllərə qarşı özünün qətiyyətli və barışmaz mövqeyi ilə böyük hörmət və ehtiram qazana bilmişdir. Respublikanın hüquq-mühafizə orqanlarında sağlam mənəvi-əxlaqi mühitin yaradılması, cinayətkarlığa, xüsusən, rüşvətxorluğa, korrupsiyaya qarşı kəskin və səmərəli mübarizə aparılması o dövrün ən səciyyəvi xüsusiyyətləri kimi tarixə yazılmışdır. Həmin dövrdə Heydər Əliyevin irəli sürdüyü və sovetlər birliyinin hər yerində rəğbətlə qarşılanan "Qoy ədalət zəfər çalsın" çağırışının real təsir sahələrindən biri də respublikamızda ali hüquq təhsili sahəsi olmuşdur. Ulu öndərin təşəbbüsü ilə 1970-80-ci illərdə Azərbaycanda ali hüquq təhsili verən dövlət universitetində bu ixtisasa qəbul qaydalarında edilən mühüm dəyişikliklər sadə zəhmətkeş ailələ-

rindən çıxmış yüzlərlə istedadlı və zəkalı gənclərin hüquqşünas olmaq arzusunun gerçəkləşməsinə şərait yaratdı. Azərbaycanın prokurorluq orqanlarının şəxsən illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Heydər Əliyev həmin dövrü xarakterizə edərək demişdir: "Mən xüsusi qeyd etmək istəyirəm ki, 1960, 1970, 1980-ci illərdə Azərbaycanda milli prokuror kadrları hazırlandı, yetişdi və bu gün Azərbaycan prokurorluğunun əsasını təşkil edən kadrlar yüksək peşəkarlığa, hüquqi təhsilə malik olan və öz vəzifələrini yerinə yetirə bilən kadrlardan ibarətdir. Bunlar hamısı bir gündə, bir ildə hazırlana bilməzdi. Azərbaycanda prokurorluq orqanları on illər ərzində təşkil olunmuş, formalaşmış, inkişaf etmiş və bugünkü yüksək peşəkar səviyyəyə çatmışdır".

1993-cü ilin böhranlı yayında xalqın təkidli çağırışı ilə hakimiyyətə qayıdan ulu öndər yeni yaranmış dövləti məhv olmaq təhlükəsindən xilas etdikdən sonra əsaslı islahatlar yolu ilə Azərbaycanın siyasi, iqtisadi, sosial sistemini yeniləşdirmək yolunda cəsarətli, düşünülmüş ardıcıl tədbirlər həyata keçirdi. Bu gün böyük qurtuluşun ulu öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışının nəticələrini təhlil edərkən qeyd etmək lazımdır ki, dövlətçiliyimizin xilası prokurorluq orqanlarının da fəaliyyətinə və sonrakı taleyinə çox önəmli təsir göstərdi. İctimai-siyasi sabitliyin, qanunçuluğun bərpası, dövlətin və cəmiyyətin təhlükəsizliyinin qorunması, cinayətkarlığın qarşısının alınması məqsədilə həyata keçirilən qətiyyətli tədbirlər respublikada qanunun aliliyinin təmininə, hüquq-mühafizə sisteminin möhkəmlənməsinə, eyni zamanda yeni köklü islahatlara istiqamətlənməsinə şərait yaratdı. Dövlət çevrilişi və ulu öndərin həyatına sui-qəsd cəhdlərinin, xarici düşmənlərin terror aktlarının qarşısının qətiyyətlə alınması, qanunsuz silahlı birləşmələrin ləğv edilməsi, kriminogen durumun stabilləşməsi nəticəsində Heydər Əliyev siyasətinin, müstəqil dövlətimizin gücünə inam artdı. Qanunçuluğun qorunması kimi ali prinsipi dövlətçiliyin başlıca məqsədinə çevirən Heydər Əliyevin qətiyyətli rəhbərliyi altında dövlət-vətəndaş münasibətlərində yeni bir mərhələ başlandı. Azərbaycanda insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması, humanizm ideyalarının gerçəkləşməsi, sivil cəmiyyətin formalaşması, dövlət idarəçiliyinin demokratikləşməsi mümkün oldu. Heydər Əliyev dühasının şərəfli tarixi, qanunların icrasına nəzarət, cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində zəngin ənənələri olan Azərbaycan prokurorluğunun fəaliyyətini daim diqqətdə saxlamışdır. Müstəqillik illərində həyata keçirilən prinsipial islahatlar sayəsində prokurorluq orqanları demokratik məzmunda yenidən formalaşmış, qanunçuluğun aliliyini təmin edən mükəmməl bir dövlət təsisatı kimi nüfuz qazanmağa nail olan prokurorluq orqanları dövlətçiliyimizin mühüm sütunlarından biri kimi ölkədə qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində fəal iştirak etmişlər.

Ulu öndərin misilsiz xidmətlərindən birini də xüsusi xatırlamaq lazımdır. Heydər Əliyev hələ 1990-cı ildə Naxçıvana rəhbərlik etdiyi dövrdə cümhuriyyət ənənələrinin davamı kimi müstəqilliyin ilk addımlarını atmışdı. Muxtar Respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarılmış, Naxçıvan Ali Soveti "Ali Məclis" adlandırılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilmiş, Kommunist Partiyasının yerli orqanlarının fəaliyyəti dayandırılmış, ittifaqın saxlanılması barədə referendumdan imtina edilmişdir.

Ulu öndərin öz fəaliyyətində xüsusi diqqət yetirdiyi başlıca cəhətlərdən biri də demokratik meyarların daha möhkəm özüllər üzərində bərqərar olması, vətəndaş cümhuriyyəti, hüquqi dövlət quruculuğu ilə bağlı olmuşdur. Bu istiqamətdə həyata keçirilən tədbirlər cəmiyyət həyatının bütün sahələrini əhatə edərək, ölkəmizdə siyasi, iqtisadi və hüquqi sistemin əsaslı surətdə dəyişməsi ilə xarakterizə olunaraq, ən müasir dünya standartlarına uyğunlaşdırılmışdır. Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə ölkəmizdə reallaşdırılan hüquqi islahatlar, qanunvericilikdə edilən dəyişikliklər, yeni institusional təsisatların yaradılması Azərbaycanın qarşısında tamamilə yeni mərhələnin açılmasına rəvac vermişdir. Ümummilli liderimizin rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci ildə keçirilmiş ümumxalq səsverməsi - referendum yolu ilə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyası respublikamızın hüquqi dövlət quruculuğu istiqamətində inkişafının hüquqi təsisatlarına, hakimiyyətin və dövlətin əsaslarını müəyyən etmiş, ən yüksək hüquqi qüvvəyə malik olmaqla, hüquq sisteminin bünövrəsini təşkil etməklə əsaslı məhkəmə-hüquq

islahatlarının həyata keçirilməsinə zəmin yaratmışdır. Konstitusiya prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikasının baş prokurorunun tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqan kimi təsbit edərək onun statusunu müəyyənləşdirmişdir. Konstitusiyanın müəyyən etdiyi meyarlar əsasında 7 dekabr 1999-cu ildə qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu, həmin qanunda nəzərdə tutulmuş hallarda və qaydada cinayət işinin başlanması və ibtidai istintaq aparılmasını cinayət işləri ibtidai araşdırmağa prosessual rəhbərliyin həyata keçirilməsi və bu zaman qanunlara riayət olunmasının təmin edilməsini, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarəti, məhkəmədə iddia qaldırılmasının (ərizənin verilməsini) mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak etməsini, məhkəmələrdə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak etməklə dövlət ittihamının müdafiəsini, məhkəmə qərarlarından protest verilməsini, habelə məhkəmələr tərəfindən təyin olunmuş cəzaların məqsədinə nail olmasında iştirakı prokurorluğun fəaliyyət istiqamətinə aid etmişdir.

Əsas qanunumuzda prokurorluğun dövlət quruluşu sistemində layiqli yerinin müəyyənləşdirilməsi məhz ulu öndərin bu orqana diqqət və qayğısının nəticəsidir. O həmişə inandığı və etibar etdiyi prokurorluq orqanlarına bu orqanların əqidəli və peşəkar əməkdaşlarına hörmət və etiramını hər il oktyabr ayının 1-i prokurorluq orqanlarının işçilərinin peşə bayramı günü elan etməsi ilə bir daha göstərmişdir. Bu barədə imzaladığı 17 iyul 1998-ci il tarixli sərəncamı, eləcə də prokurorluq işçilərini dövlət təltiflərinə layiq görməsi ümummilli liderimizin prokurorlara verdiyi dəyərin bariz nümunəsidir. Ulu öndərimiz deyirdi: "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim, çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda, Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram". Məhz bu inamla aparılan islahatlar prokurorluq orqanlarının fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılmasını, qanunçuluğun möhkəmləndirilməsi, cinəyatkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində bu orqanların rolunun artırılmasını, kadr siyasətinin daha da təkmilləşdirilməsini, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsini təmin etmişdir.

Ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu sahəsindəki siyasəti bu gün də uğurla davam etdirilir. Müasir dövrdə demokratiyanın inkişafı, qanunçuluğun təminatı, insan hüquq və azadlıqlarının qorunması həm də sosial rifah, iqtisadi tərəqqi amilləri ilə şərtlənir. Respublikamızın iqtisadi imkanları genişləndikcə, Azərbaycanın ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi yolla irəliləməklə, insan və azadlıqlarının təminatı, demokratikləşmə sahəsində yeni-yeni uğurlara imza atır. Ulu öndərin xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib, dinamik islahatlar yoluna çıxardığı Azərbaycan hazırda dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilmişdir. Respublikamız sürətli sosial-iqtisadi inkişafını qoruyub saxlayır, böyük infrastruktur layihələri, regional proqramlar həyata keçirir. Avropanın enerji təhlükəsizliyində əsas söz sahibi kimi mühüm rol oynayır. Cəmiyyətin bütün sahələrində müşahidə olunan dirçəliş, intibah insan hüquqlarının təmini sisteminin təkmilləşməsində də öz sözünü deyir. Ən başlıcası, bu gün Azərbaycan cəmiyyətinin bütövlüyü və monolitliyi təmin olunmuş, insanlarda uğurlu gələcəyə nikbin baxış formalaşmışdır. 11 aprel 2018-ci il Azərbaycan Respublikasının prezident seçkilərində Heydər Əliyev siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevə yenidən etimad göstərən ölkə vətəndaşları əmindir ki, Azərbaycanda bütün sahələrlə yanaşı, demokratiyanın tam bərqərar olmasına və hüquqi dövlət quruculuğunun inkişafına xidmət edən bu islahatlar qarşıdakı illərdə də inamla davam etdiriləcəkdir.

**Nazim Abbasov,**
*Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi,*
*III dərəcəli dövlət ədliyyə* müşaviri
"Respublika" qəzeti, 3 may 2018-ci il

# Hüquqi islahatların banisi

**Qarşıdan xalqımızın yetirdiyi fenomenal tarixi şəxsiyyət, öz əməlləri ilə ümummilli liderə çevrilmiş Heydər Əliyevin 95 illik yubileyi gəlir. Ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə, fəaliyyətinin bütün mərhələlərində məhz Azərbaycan dövlətinin və xalqının mənafeyi uğrunda əzmlə mübarizə aparan Heydər Əliyev böyük strateq kimi özünə əbədi və tükənməz sevgi qazanmışdır. Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir. 95 illik yubileyi ərəfəsində ulu öndərin xalqımız qarşısında xidmətlərinə nəzər salmaqla həm də əziz xatirəsini ehtiramla yad edirik.**

Ümumiyyətlə, hər bir xalqın tarixən formalaşmış dövlətçilik ənənələrinin konkret dövlət modelində gerçəkləşməsi üçün əlverişli siyasi mühit və iradə ilə yanaşı, güclü liderin də olması mühüm şərtdir. Tarix göstərir ki, daxilən güclü, vətənpərvər və xarizmatik lideri olmayan xalqın yaranmış real şansdan düzgün faydalanması, milli iradəsini ortaya qoyaraq həqiqi müstəqillik istəyinə qovuşması mümkün deyildir. Xalqların həqiqi azadlığına zəmin yaradan iqtisadi müstəqillik də məhz fenomen şəxsiyyətlərin milli resursları nəzərə almaqla müəyyənləşdirdiyi inkişaf strategiyasına əsaslanır. Belə liderlər milli dövlətçilik ideyalarının praktik surətdə gerçəkləşməsinin, davamlı və sabit tərəqqi üçün dayanıqlı əsasların yaradılmasının müəllifinə çevrilirlər.

Heydər Əliyev də tarixdə dərin iz qoyan belə liderlərdən biridir. Belə ki, rəhbərliyə başladığı gündən hər bir vətəndaş, bütövlükdə xalq ona arxa duran, mənafeyini qoruyub müdafiə edən böyük şəxsiyyətin hakimiyyətə gəldiyini görürdü. Ulu öndər hansı sahəyə nüfuz edirdisə, orada yeniliklər yaradır, əsaslı bir iş görürdü. Həm də bu fəaliyyət təkcə bu günlə məhdudlaşmır, gələcəyə ünvanlanırdı. Heydər Əliyev qısa müddətdə ölkədə mədəni və mənəvi intibahı təmin etməklə bu mütərəqqi prosesi iqtisadiyyatdakı uğurlarla üzvi surətdə əlaqələndirdi, paralel şəkildə həyata keçirdi. Təsadüfi deyil ki, 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın şanlı inkişaf və quruculuq salnaməsinin ən dolğun, şərəfli səhifələrini təşkil edir.

Həlledici məqamlarda xalqı üzləşdiyi çətinliklərdən xilas etmək böyük və qüdrətli şəxsiyyətlərin çiyninə düşür. Ölkənin, xalqın taleyində ümummilli liderin rolu və tarixi missiyası da bununla müəyyən olunur. Bu mənada, geniş zəkası, fitri uzaqgörənliyi, polad iradəsi ilə ətrafındakılardan daim fərqlənən Heydər Əliyevin simasında Tanrı xalqımıza XX əsrdə həm də əsl xilaskar bəxş etmişdir. Müstəqilliyimizin ilk illərində ölkədə baş verən hadisələr hamımızın yaxşı xatirindədir. O ağır günlərdə hər kəsi yalnız bir sual düşündürürdü: dövlətimizin taleyi necə olacaq? O ağır günlərdə xalqımız tarixi və müdrik qərar qəbul edərək özünün sədaqətli oğlunun, görkəmli dövlət xadimi və dünya şöhrətli siyasətçi Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıtmasını xahiş və tələb etdi. Heç zaman öz seçimində yanılmayan xalq Azərbaycanın xilasını, xaos və anarxiyadan qurtuluşunu, müstəqilliyinin qorunmasını və əbədiliyə çevrilməsini məhz onun fəaliyyətində görürdü. Ulu öndər xalqın arzu və çağırışına biganə qalmadı və tarixi missiyasını gerçəkləşdirməkdən ötrü hakimiyyətə döndü.

1993-cü ilin iyun ayından etibarən ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyillərinə son qoydu və Heydər Əliyevin dövlət quruculuğu siyasətinin gerçəkləşməsinə gətirib çıxardı. Ulu öndər qısa zamanda ölkədə ictimai-siyasi sabitliyi tam təmin etməklə ölkə iqtisadiyyatındakı tənəzzül prosesinin qarşısının alınmasına xidmət edən zəruri tədbirlər həyata keçirdi. Çox böyük müdriklik və uzaqgörənliklə hazırladığı yeni neft strategiyasının həyata keçirilməsi lokomotiv rolunu oynayaraq iqtisadiyyatın digər sahələrinin də inkişafına yardım göstərdi, eyni zamanda Azərbaycanın dünyaya inteqrasiyasını sürətləndirdi. Ümummilli liderin rəhbərliyi altında hazırlanaraq 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası müstəqil dövlət quruculuğu prosesinin əsas prioritetlərini müəyyənləşdirdi. Bundan sonra bütün sahələrdə islahatlar keçirildi, möhkəm qanunvericilik bazası yaradıldı.

Müstəqillik illərində respublikamızda ardıcıl olaraq həyata keçirilmiş köklü və sistemli islahatlar nəticəsində inkişaf etmiş dünya ölkələrinə məxsus müsbət cəhətləri və milli xüsusiyyətləri özündə birləşdirən, beynəlxalq prinsip və müddəalara tam uyğun olan hüquq sistemi yaradılmış, dövlət təsisatları ən yüksək standartlara müvafiq şəkildə formalaşdırılmışdır. O cümlədən prokurorluq orqanları tam yenidən qurulmaqla müasir dövrün tələblərinə cavab verən, fəaliyyətində qanunçuluq, dövlətçilik, siyasi bitərəflilik, obyektivlik və qərəzsizlik prinsiplərinə əsaslanan demokratik məzmunlu bir orqana çevrilmişdir.

Azərbaycan prokurorluğunun sivil və demokratik məzmunlu bir qurum kimi tam yenidən formalaşması isə ölkəmizdə həyata keçirilən hüquq islahatlarının memarı kimi Heydər Əliyevin dövlətçilik siyasəti, onun qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Ölkə prokurorluğu çoxillik tarixə malik olaraq bir sıra onilliklər ərzində fəaliyyət göstərsə də, yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qayğısı və diqqəti nəticəsində onun tərəfindən imzalanmış 17 iyul 1998-ci il tarixli sərəncama əsasən hər il oktyabr ayının 1-i prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunur. Peşə bayramı gününün təsis edilməsi prokurorluğa böyük qayğının ifadəsi olmaqla yanaşı, prokurorluq əməkdaşlarının fəaliyyətinin layiqincə dəyərləndirilməsinin təzahürüdür.

Məhz ümummilli lider Heydər Əliyevin 26 aprel 2000-ci ildə Respublika Prokurorluğunun rəhbər işçiləri ilə keçirdiyi və prokurorluğun həyatında müstəsna rol oynamış tarixi görüşdən sonra Azərbaycan Respublikası Prokurorluğunda hərtərəfli islahatlara başlanılmaqla, dövlət başçısının tövsiyə və göstərişlərinə müvafiq olaraq həyata keçirilən tədbirlər sayəsində prokurorluğun demokratik məzmunda yeniləşdirilməsi, neqativ təzahürlərin aradan qaldırılması, müasir standartlar səviyyəsində işləməyə qadir olan kadr korpusunun formalaşdırılması, son nəticədə cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi işinin zəruri tələblər səviyyəsinə qaldırılması təmin edilmişdir. Bu tarixi görüşdən sonra prokurorluq orqanlarında köklü islahatlar və struktur dəyişikliyi aparılmış, elmi əsaslı normativ hüquqi baza yaradılmış, prokurorluğun fəaliyyəti beynəlxalq standartlara uyğunlaşdırılmış, insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində ciddi nailiyyətlər əldə edilmişdir.

Həmin dövrdən başlayaraq həyata keçirilən yeni islahatlar nəticəsində zamanın ruhuna, yeni siyasi, iqtisadi, sosial reallıqlara uyğun olaraq ölkəmizdə prokurorluq orqanlarının statusunda, səlahiyyətlərində və fəaliyyətində köklü dəyişikliklər baş vermiş, kadr siyasətində ciddi dönüşün yaradılması və şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Bu dövrdə prokurorluqda sağlam mühitin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri ön plana çəkilmiş, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artmış və nüfuzu yüksəlmişdir.

Ulu öndərin siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" bu dövlət orqanının müasir dövrün yüksək tələbləri səviyyəsində inkişafında xüsusi əhəmiyyətə malik olmuşdur. Azərbaycan Prokurorluğunun tarixində yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşmə dövrünün əsasını qoymuş bu mühüm dövlət sənədinin icrası ilə əlaqədar həyata keçirilmiş tədbirlər nəticəsində hüquqi dövlət quruculuğunda və hüquq sisteminin inkişafında, qanunçuluğun, cəmiyyətin və dövlətin maraqlarının qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində prokurorluğun rolu artmışdır. Eyni zamanda onun fəaliyyətində şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulmasına, müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməklə ən son informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqinə, prokurorluq orqanlarının işinin onun qarşısında dayanan vəzifələrə və tələblərə uyğun olaraq yüksək səviyyədə qurulmasına, ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində peşəkarlığın artırılmasına, vətəndaşların müraciətlərinə daha həssas və diqqətli yanaşılmasına nail olunmuşdur.

Prokurorluq orqanlarında şəffaflıq və açıqlıq prinsiplərinə diqqət yetirilməsi Azərbaycan Respublikası Prezidentinin "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın

təsdiq edilməsi haqqında" 27 aprel 2016-cı il tarixli sərəncamının müddəalarından irəli gəlir. Milli Fəaliyyət Planı Açıq hökumət prinsiplərinin tətbiqinin genişləndirilməsi və korrupsiyaya qarşı mübarizəyə dair tədbirlərin davamlılığının təmin edilməsi, korrupsiyanın qarşısının alınması üzrə yeni mexanizmlərin tətbiqi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi, sahibkarların hüquqlarının müdafiəsi məqsədilə təsdiq edilmişdir. Sərəncamın 4-cü bəndinə müvafiq olaraq "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda Baş Prokurorluğa həvalə edilmiş tədbirlərin tam və vaxtında icrasını təmin etmək məqsədilə geniş tədbirlər planı hazırlanıb təsdiq edilməklə icraya yönəldilmişdir.

Prokurorluq orqanlarında yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması prosesi dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik gənc hüquqşünaslar hesabına, obyektivlik və ədalətlilik meyarlarına əsaslanaraq həyata keçirilmişdir. Bu amillərə prokurorluq orqanlarına qulluğa qəbulla yanaşı, kadrların yerdəyişməsi, xidməti vəzifələrinin icrasına vicdanla yanaşaraq fəaliyyətində nailiyyətlər qazanmış və peşəkarlıq səviyyəsi ilə fərqlənən şəxslərin vəzifədə irəli çəkilməsi, müvafiq iş təcrübəsi, analitik düşüncə və təşkilatçılıq qabiliyyəti olan prokurorluq işçilərinin müstəqil işə təyin edilməsi zamanı da önəm verilmişdir.

Bu gün də prokurorluq orqanlarında islahatlar davam edir, yeniləşmə prosesi gedir, gənc kadrlar işə qəbul edilir, vəzifədə irəli çəkilir, yeni iş ruhu, canlanma və inkişaf hiss olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən prokurorluğa daim diqqət və qayğı göstərilir, fəaliyyətimizin daha da təkmilləşdirilməsi, əməkdaşlarımızın maddi-sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülür. Mütəmadi olaraq prokurorluq əməkdaşlarının yüksək dövlət mükafatlarına və ali xüsusi rütbələrə layiq görülməsi, onların sosial-maddi vəziyyətinin yaxşılaşdırılması və prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, prokurorluğun maddi-texniki bazasının daha da möhkəmləndirilməsi istiqamətində görülən tədbirlər fəaliyyətimizin səmərəliliyinin artırılmasında əhəmiyyətli rol oynayır.

Fəxarətlə qeyd etməliyik ki, bu gün respublikamızda prokurorluq orqanları tərəfindən daxili işlər, ədliyyə, məhkəmə və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsi təmin olunmuşdur. Prokurorluq orqanlarının bütün səyləri ilk növbədə dövlət başçısının göstərişlərindən, Azərbaycan Respublikasının Konstitusiyasından, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunundan, digər qanunvericilik aktları, Azərbaycan Respublikası Baş prokurorunun əmr və sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsinə, müasir məzmunlu islahatların eyni intensivliklə davam etdirilməsinə, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsinə, yeni iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılmasına, möhkəm nizam-intizam yaradılmaqla neqativ təzahürlərin vaxtında aradan qaldırılmasını təmin edən işlək nəzarət mexanizminin yaradılmasına istiqamətləndirilmişdir.

Ölkəmizdə gedən uğurlu inkişaf proseslərinə mane olan məsələlərin aradan qaldırılması mühüm əhəmiyyət kəsb edir. Bu sırada korrupsiya və rüşvətxorluq hallarına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə son illərdə bir sıra tədbirlər həyata keçirilmiş, mübarizə metodlarının daha səmərəli olması üçün qanunvericilik bazası gücləndirilmişdir. Hazırda korrupsiyaya qarşı mübarizə prokurorluğun fəaliyyətinin ən vacib və önəmli istiqamətini təşkil edir. Məlum olduğu kimi, korrupsiyaya qarşı daha effektli əks təsirin həyata keçirilməsi həmin istiqamətdə görülən tədbirlərin kompleks xarakterli, ardıcıl və hərtərəfli olmasını, dövlət idarə və müəssisələrinin fəaliyyətində aşkarlığın və şəffaflığın artırılmasını, görülən işlər və əldə edilən nəticələr barədə ictimaiyyətin mütəmadi olaraq məlumatlandırılmasını, əhaliyə göstərilən xidmətlərin elektron vasitələrlə həyata keçirilməsinin təşkilini, xidmətlərin göstərilməsi prosedurunun sadələşdirilməsini, vətəndaşların elektron vasitələrlə informasiya almaq imkanlarının genişləndirilməsini, neqativ hallarla mübarizədə ictimaiyyətin köməyindən daha geniş istifadə edilməsini, cəmiyyətdə korrupsiyaya qarşı dözümsüzlüyün möhkəmləndirilməsini şərtləndirir. Qeyd olunan amillər nəzərə alınmaqla respublikamızda korrupsiyaya qarşı əks təsirin gücləndirilməsi istiqamətində son dövrlər həyata keçirilən daha ardıcıl və müfəssəl tədbirlər, hərtərəfli hazırlanmış təşkilati, institusional və hüquqi islahatlar bu bəlanın aradan qaldırılması sahəsində ciddi uğurların əldə edilməsinə zəmin yaratmışdır.

Həyata keçirilən hüquqi islahatların nəticəsi olaraq Bakı Şəhər Prokurorluğu da inkişaf yolu keçmiş,

qarşısında dayanan vəzifələrin yerinə yetirilməsi istiqamətində uğurlar əldə etmişdir. Hazırda Bakı Şəhər Prokurorluğu və ona tabe rayon prokurorluqları Azərbaycan Konstitusiyasını, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununu və digər qanunvericilik aktlarını, Baş prokurorun əmr, sərəncam və göstərişlərini rəhbər tutaraq Bakı şəhərində cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməkdədir.

Paytaxtın prokurorluq orqanlarının keçirdiyi istintaq tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş cinayətlərin, o cümlədən qəsdən adamöldürmə, qəsdən adam öldürməyə cəhd cinayətlərinin, quldurluq, bağlı qalmış ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin açılması və bir sıra digər qanun pozuntularının qarşısının alınması təmin edilir. Həmçinin bu kateqoriyadan olan cinayətlərin, ağır və xüsusilə ağır cinayətlərin sayında azalma müşahidə olunur. Bütün bunlar respublikamızda ictimai-siyasi sabitliyin təmin edilməsi sahəsində görülmüş işlərin müsbət nəticəsidir. Şəhər prokurorluğu orqanları tərəfindən ibtidai araşdırmaya prosessual rəhbərlik sahəsində tələbkarlıq daha da artırılmış, istintaq və təhqiqatın tam, hərtərəfli və obyektiv aparılmasına nəzarət gücləndirilmişdir.

Cinayətkarlıqla mübarizə, qanunçuluğun müdafiəsi ilə yanaşı, Bakı şəhər prokurorluğu tərəfindən qarşıda dayanan vəzifələrin yerinə yetirilməsi istiqamətində həyata keçirilmiş bir sıra tədbirləri diqqətə çatdırmaq istəyirəm. Azadlığın cəmiyyətin ən ümdə və zəruri şərti olduğunu dəfələrlə vurğulayan Prezident İlham Əliyev qəbul etdiyi hüquqi aktlar və əfv sərəncamları ilə cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə xüsusi önəm verdiyini, şəxsi cəmiyyətdən təcridetmədən islahetmənin daha effektiv və səmərəli olduğunu göstərmişdir. Prezident İlham Əliyevin ötən il fevralın 10-da imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncamı da dövlət başçısının humanist siyasətinin növbəti təzahürü oldu.

Sərəncamda verilmiş tapşırıq və tövsiyələrin yerinə yetirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu, Ali Məhkəmə, Ədliyyə və Daxili İşlər nazirlikləri nümayəndələrinin iştirakı ilə işçi qrupu yaradılmışdır və bu məsələ Baş prokurorun xüsusi diqqətindədir. Sərəncamda qarşıya qoyulan vəzifələrin və bu sahədə Baş prokurorun göstərişlərinin icrası istiqamətində Bakı Şəhər Prokurorluğu tərəfindən zəruri tədbirlər həyata keçirilməkdədir.

Təbii ki, bununla yanaşı, mühüm vəzifə öhdəliklərimizdən olan cinayətkarlıqla səmərəli mübarizə, qanunçuluğun müdafiəsi, ədalət mühakiməsinin uğurla təmin olunması əsas diqqət yetirdiyimiz məsələlərdir. Cəmiyyətdə böyük rezonans doğuran xuliqanlıq və bu kimi kateqoriyadan olan işlər üzrə kəsərli tədbirlərin görülməsi, vaxtında cinayət işlərinin başlanaraq, təqsirli şəxslərin məsuliyyətə cəlb olunmaqla barələrində ən ciddi qətimkan tədbirlərinin seçilməsinin təmin edilməsi ictimaiyyətdə razılıqla qarşılanır.

Son illərin kriminogen durumunda yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma halları narahatçılıq doğuran məsələlərdəndir. Prezident İlham Əliyevin 2012-ci il dekabrın 26-da imzaladığı "Yol-nəqliyyat hadisələri ilə əlaqədar təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmənin şəffaflığının artırılması ilə bağlı tədbirlər haqqında" sərəncamından irəli gələn vəzifələrin layiqincə icrası Bakı Şəhər Prokurorluğu tərəfindən daim nəzarətdə saxlanılır. Son dövrlər yol nəqliyyat hadisələrinin araşdırılması ilə əlaqədar müsbət nəticələr əldə edilmişdir. Ölümlə nəticələnən yol-nəqliyyat hadisələri şəhər prokurorluğunun diqqət mərkəzində olmuşdur. Bu mənada cinayət xarakterli yol-nəqliyyat hadisələrinin gizlədilməsi, eləcə də cinayət xarakterli yol nəqliyyat hadisələrinin inzibati xəta kimi rəsmiləşdirilməsinin qarşısının alınması üçün zəruri tədbirlər görülməklə bu sahədə nəzarət artırılmışdır. Həyata keçirilmiş qabaqlayıcı-profilaktik tədbirlərin nəticəsidir ki, paytaxtda baş vermiş ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin, həmin hadisələr nəticəsində ölənlərin sayı, eyni zamanda bağlı qalmış cinayətlərin sayı ildən-ilə azalmışdır.

Xüsusilə narahatlıq doğuran məsələlərdən biri də paytaxtın bir sıra apteklərində vətəndaşlara güclü təsiredici vasitələrin satılmasıdır. Bəzi apteklərdə həkim resepti ilə satılmalı olan, bir sıra hallarda isə satılması tamamilə qanunsuz olan, qadağan olunmuş təsiredici vasitələrin vətəndaşlara, xüsusən gənclərə satılması Bakı şəhəri üzrə prokurorluq orqanlarının diqqət mərkəzindədir. Nəticədə paytaxt ərazisində güclü təsir edən maddələri satan apteklərə qarşı mübarizə gücləndirilmiş və bir neçə aptekin sahibi məsuliyyətə cəlb edilməklə

güclü təsir edən maddələrin məktəblilərin, tələbələrin və digər şəxslərin arasında yayılmasının qarşısının alınması sahəsində müsbət irəliləyişlər əldə edilmişdir.

Həmçinin tikinti, əməyin mühafizəsi qaydalarının pozulması və istehsalatda baş verən insan tələfatları, onların sağlamlığına zərər vurulması ilə nəticələnən qəzalarla bağlı tam, hərtərəfli və obyektiv araşdırmanın aparılması təmin edilmiş, rayon prokurorluqlarında bu kimi işlər üzrə süründürməçilik hallarına yol verildiyi müəyyən edildiyi hallarda həmin işlərin şəhər prokurorluğunun İstintaq İdarəsində davam etdirilməsi təmin edilməklə vətəndaşların haqlı narazılıqlarına son qoyulmuşdur. Bundan başqa, paytaxtın rayon prokurorluqlarında və polis orqanlarında mülki xarakterli işlər üzrə əsassız olaraq cinayət işlərinin başlanmasının, şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinin qarşısını almaq məqsədilə bu növ materiallar şəhər prokurorluğunda müzakirə edildikdən sonra müvafiq qərar qəbul edilmişdir.

Son illərdə prokurorluq orqanlarında müasir informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən, informasiya-kommunikasiya vasitələrinin tətbiqinin yaratdığı geniş imkanlardan istifadə edilməsi, İKT tətbiqi dairəsinin daha da genişləndirilməsi fəaliyyətimizin səmərəliliyini daha da artırmışdır. Bakı Şəhər Prokurorluğunda və tabe rayon prokurorluqları üzrə müasir informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən hərtərəfli istifadə edilir. O cümlədən Baş Prokurorluq tərəfindən hazırlanmış “Elektron sənəd dövriyyəsi” və “Elektron cinayət” proqramları hazırda Bakının bütün prokurorluq orqanlarında uğurla tətbiq olunur.

Ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında əhalinin müraciətlərinə qayğı ilə yanaşılaraq, vətəndaşların qəbulu məsələlərinə xüsusi diqqət göstərilir. Bu məsələ Bakı Şəhər Prokurorluğunun daim diqqətindədir. Bakı Şəhər Prokurorluğunda, eləcə də tabe rayon prokurorluqlarında vətəndaşların qəbulu işinə xüsusi əhəmiyyətlə yanaşılaraq yerlərdə və şəhər prokurorluğunda insanların mütəmadi olaraq prokurorluğun rəhbərliyi tərəfindən qəbul edilməsi, mahiyyətinə görə xüsusi əhəmiyyət kəsb edən müraciətlərin nəzarətə götürülməklə qısa müddət ərzində araşdırılması təmin edilməkdədir.

Şəhər prokurorluğu tərəfindən bir sıra profilaktiki işlərin görülməsi də təmin edilməkdədir. Belə ki, bizim təşəbbüsümüzlə Bakının bütün rayonlarında hüquqi biliklərin təbliği, cinayət törətmələrinin qarşısının alınması, yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın profilaktikası, onların zərərli vərdişlərə aludə olmamaları, narkomaniya, radikal dini cərəyanlarla mübarizə sahəsində təbliğat işləri aparılır və bu da öz müsbət nəticəsini verməkdədir. Bununla bağlı aidiyyəti dövlət orqanlarına müvafiq tövsiyələr də verilmişdir.

Ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı olan Prezident İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Baş prokurorunun təşəbbüsü, rəhbərliyi və gündəlik nəzarəti ilə həyata keçirilən köklü islahatlar Azərbaycan prokurorluğunu və onun əsas tərkib hissələrindən olan Bakı Şəhər Prokurorluğunu insan hüquq və azadlıqlarının layiqli qarantına çevirən etibarlı dövlət orqanı kimi formalaşdırmışdır. Bakı Şəhər Prokurorluğu cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparan, bu sahədə daim profilaktik tədbirlər görən, rayon ərazisində qanunların eyni cür və dürüst icrasını təmin edən bir orqan kimi öz vəzifələrinin öhdəsindən layiqincə gəlməkdədir.

Əminliklə bildirmək istəyirəm ki, Bakı Şəhər Prokurorluğu bundan sonra da üzərlərinə düşən bütün vəzifələri yüksək keyfiyyətlə yerinə yetirəcək, vətənimizə, xalqımıza və dövlətimizə sədaqətlə xidmət etməklə fəaliyyətlərini qanunvericiliyin və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi tələblər səviyyəsində quracaq, insan hüquq və azadlıqlarının müdafiəsində, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunmasında, cinayətkarlığa qarşı mübarizənin aparılmasında yeni nailiyyətlər əldə edəcək.

Bu gün Azərbaycan öz intibahının yeni mərhələsini yaşayır. Ulu öndər Heydər Əliyevin memarı olduğu müasir Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edir, dövlətçiliyimiz gündən-günə daha da möhkəmlənir. Hər bir prokurorluq əməkdaşı üçün kifayət qədər məsuliyyətli olan bu dövrdə qarşımızda mühüm vəzifələr dayanır. Əsas konstitusion vəzifəmiz və ulu öndər Heydər Əliyevin əbədiyaşar ruhu qarşısında müqəddəs borcumuz isə Azərbaycan dövlətçiliyinin daha da qüdrətlənməsi, respublikamızda hüququn aliliyi və qanunçuluğun daha möhkəm təmin olunması naminə fədakarlıqla çalışmaqdır.

**İlqar Abbasov,**
*Bakı şəhər prokuroru,*
*III dərəcəli dövlət ədliyyə müşaviri*
“Azərbaycan qəzeti”, 4 may 2018-ci il

# Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi

**Müasir Azərbaycanın otuz ildən artıq müddətdə dövlət quruculuğu, iqtisadi dirçəliş, ictimai-siyasi və sosial həyatda tərəqqi dövrünü əhatə edən bütöv bir epoxası ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Elə dünya iqtisadi sektorunda ən sabit və yüksək inkişaf indikatorlarına malik ölkə hesab olunan Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ötən illərdə əldə etdiyi nailiyyətlərə, sıçrayışlı inkişafa, yüksək sosial tərəqqi erasına məhz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hazırlayaraq həyata keçirdiyi iqtisadi inkişaf doktrinasının reallaşdırılması sayəsində mümkün olunmuşdur. Onun müəyyən etdiyi mükəmməl inkişaf konsepsiyasının həyata keçirilməsi dövlət suverenliyini bərpa edən Azərbaycanda demokratik dövlət quruculuğu və kompleks islahatların reallaşmasına, azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılmasına, yeni iqtisadi dövrün tələblərinə uyğun təsərrüfat sisteminin yaradılmasına və sıçrayışlı inkişafın təmin olunmasına dərin əsaslar yaradıb.**

Azərbaycan ötən yüzillikdə iki dəfə dövlət müstəqilliyi qazanıb. Müstəqilliyin dayaq sütunlarını, milli-ideoloji əsaslarını, suveren dövlətçilik institutlarını yaratmaq və onu həyata keçirmək güclü dövlət siyasətinin və eyni zamanda, milli liderin olmasını tələb edib. Məhz dövlət müstəqilliyini qoruyub saxlamaq, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, ölkənin ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq və digər ümummilli məqsədlər Azərbaycan xalqının təkidli tələbindən sonra 1993-cü ildə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin gərgin və qətiyyətli əməyi sayəsində mümkün olmuşdur.

Ulu öndərin gərgin əməyi nəticəsində, Azərbaycan onun hakimiyyətinin birinci erasında – 1969-1982-ci illərdə respublikada güclü iqtisadiyyatın təməlinin qoyulması sayəsində qısa müddət ərzində yüksək iqtisadi inkişafa nail olub. Bu, Heydər Əliyevin görkəmli dövlət xadimi, peşəkar siyasətçi olmaqla yanaşı, həm də respublikanın xalq təsərrüfatına dərindən bələd olan ölkə başçısı olduğu barədə fikirləri təsdiqləyir. Çünki 1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə yürüdülən iqtisadi və sosial siyasət sayəsində respublika iqtisadiyyatının bütün sahələrinin, elmin və mədəniyyətin inkişaf etməsi, xalqın həyat səviyyəsinin yüksəldilməsinə yalnız xalq təsərrüfatının dərin bilicisi olmaqla müvəffəq olmaq mümkün idi. Məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatların sayəsində Azərbaycan aqrar-sənaye respublikasından sənaye-aqrar respublikasına çevrildi. Respublikada aparılan geniş miqyaslı quruculuq işləri nəticəsində Azərbaycanda bir neçə il ərzində yeni yaşayış massivləri, binalar, məktəblər, sənaye müəssisələri tikildi, yollar salındı. Azərbaycan gənclərinin elmin və təhsilin dərinliklərinə yiyələnməsi və ölkənin sabahı üçün peşəkar kadr olması üçün Heydər Əliyevin gərgin səyi nəticəsində on minlərlə azərbaycanlının keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almaları üçün şərait yaradıldı.

Heydər Əliyevin fəaliyyəti nəticəsində respublikada həyatın elə bir sahəsi qalmadı ki, orada inkişaf, tərəqqi müşahidə olunmasın. Ölkənin iqtisadiyyatı, xalqın rifah halı, elm və incəsənət, səhiyyə sahələri inkişaf edərək Azərbaycanı keçmiş müttəfiq respublikaları sırasında ən ön yerlərdən birini tutmasına gətirib çıxardı. Azərbaycan quruculuq, yaradıcılıq və tərəqqi dövrü keçirirdi, cəmiyyətin bütün təbəqələrində fasiləsiz inkişaf, irəliləyiş ruhu hökm sürürdü. Məhz bütün deyilənlərin nəticəsində yalnız Azərbaycan, həmçinin keçmiş SSRİ respublikalarından Rusiya və Ukrayna İttifaq büdcəsindən dotasiya almırdı. Tarixdən məlum olduğu kimi, iqtisadi müstəqillik, iqtisadi qüdrət millətin siyasi müstəqilliyinin bazisini təşkil edir. Bu baxımdan keçən əsrin 70-80-ci illərində Azərbaycanın iqtisadi sahədə qazandığı nailiyyətlər siyasi müstəqillik yolunda mühüm təməl hesab edilməlidir. Bu mənada, ulu öndərin bu fəaliyyəti ilə təkcə, İttifaq respublikası olan Azərbaycanın deyil, həm də gələcək müstəqil

Azərbaycanının möhkəm təməlini, sonrakı nəsillərin xoşbəxt və firavan həyatının təməlini qoydu.

Ulu öndər ilk növbədə, çoxmülkiyyətli bazar iqtisadiyyatının başlıca tələblərinin təmin olunması istiqamətində siyasi iradə nümayiş etdirdi və iqtisadi transformasiyanın qanunauyğunluqlarını nəzərə alaraq əsaslı islahatlara start verdi. Heydər Əliyev həmin dövrdə müstəqil dövlətin yeni transformasiyaya keçidlə islahatlar həyata keçirməsinin olduqca çətin və mürəkkəb olduğunu bildirirdi: "**Azərbaycan istiqlaliyyət əldə etdiyi vaxtdan bəri öz həyatını, dövlətini, iqtisadiyyatını, öz milli mənafelərini əsas tutaraq, demokratiya prinsipləri əsasında qurur. Bu da bütün iqtisadi sistemin ciddi şəkildə yenidən qurulmasını qarşıya bir şərt kimi qoyur. Bununla əlaqədar olaraq Azərbaycan azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir və bu yolla gedir. Təbiidir ki, 70 il ərzində başqa sosial-iqtisadi sistem şəraitində yaşamış olan respublika üçün bu yol son dərəcə çətin və mürəkkəbdir. Lakin bununla yanaşı, bu iqtisadiyyatdakı çətinlikləri aradan qaldırmaq, sosial-iqtisadi böhrandan çıxmaq və Azərbaycanı dünya iqtisadi sisteminə qoşmaqdan ötrü iqtisadiyyatın inkişafını beynəlxalq standartlara müvafiq surətdə təmin etmək üçün yeganə yoldur".**

Ulu öndər Azərbaycanın milli inkişaf doktrinasını hazırlamaqla respublikamızın uzunömürlü tərəqqisinə dərin əsaslar yaradıb. Müstəqil Azərbaycanın yüksək inkişaf mərhələsinə çıxmasında, milli-iqtisadi təhlükəsizliyinin möhkəmlənməsində və zəngin iqtisadiyyata malik olmasında neft amili xüsusi rol oynayır. Neft sərvətlərinin mənimsənilməsi, işlənilməsi və nəqli, ən əsası isə düzgün, düşünülmüş iqtisadi strategiyaya uyğun neft siyasətinin həyata keçirilməsi respublikamızın hazırkı tərəqqi mərhələsinə çatmasına dərin əsaslar yaradıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra neft sənayesində tamamilə yeni mərhələnin əsası qoyuldu. Bu dövrdə başlıca vəzifə müstəqil ölkənin neft sənayesinə xarici neft kompaniyalarını cəlb etmək və yeni nəql marşrutları yaratmaqdan ibarət idi.

Liberal bazar iqtisadiyyatının bütün komponentlərini həyata keçirməyi islahatların başlıca hədəflərinə çevirən Azərbaycan hökuməti 1994-cü ildən başlayan bərpa və dinamik inkişaf dövrünün tələblərinə uyğun qətiyyətli addımlar atdı. Dövlətin tabeçiliyində olan torpaq mülkiyyəti kəndlilərə verildi ki, bu sahədə respublikamız MDB-də ilk islahat aparan ölkə hesab olunur.

Ulu öndərin atdığı qətiyyətli addım sayəsində 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ölkənin neft-qaz sənayesinin dirçəlməsinə və Azərbaycanın gələcək rifahının başlanğıcı olmaqla respublikanın enerji sektorunun inkişafı iqtisadiyyatın qeyri-neft sahəsinin fəal artımına gətirib çıxarmışdır. Həm də bu sazişin böyük iqtisadi faydası ilə yanaşı, daha bir əhəmiyyəti var idi: Saziş dünyanın aparıcı dövlət və şirkətlərini bir daha əmin etdi ki, Azərbaycan müstəqil və etibarlı tərəfdaşdır. Bu ölkədə işləmək və sərmayə qoymaq olar. "Əsrin müqaviləsi" bütün dünya dövlətlərinin Azərbaycana inamını artırdı və bir qədər sonra dünyanın ən böyük və tanınmış neft şirkətlərinin ölkəmizə axınına şərait yarandı.

"Əsrin müqaviləsi"nin həyata keçirilməsinə başlanan vaxtdan Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlərə başlanıldı. 1999-cu ilin dekabrında Azərbaycanın ilk mənfəət nefti ilə doldurulmuş tankeri dünya bazarlarına çıxarıldı. Ulu öndər Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri kimi Azərbaycan neftinin dünya bazarlarına nəqlini vacib hesab edirdi. Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Şərq-Qərb marşrutunun yaradılmasından ibarət idi. Ulu öndər Heydər Əliyevin əzmkarlığı və qətiyyəti nəticəsində Bakı-Tbilisi-Ceyhanın çəkilməsinə dair sazişin imzalanması mümkün oldu. Ulu öndərin qəti əzmkarlığı və Türkiyə, Azərbaycan və Gürcüstan dövlətlərinin birliyi nəticəsində çoxlarının əfsanə hesab etdiyi layihə reallığa, gerçəkliyə çevrildi. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salındı. İyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. BTC dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin, dünya xalqları ilə Azərbaycan xalqının əlaqələrinin yenidən qurulmasına təkan verdi, Azərbaycanın xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə səbəb oldu.

Bazar iqtisadiyyatının əsas tələblərindən biri də, ilk növbədə, torpaq islahatlarının həyata keçirilməsi ilə bağlıdır. Torpaq sahibi olmadan mülkiy-

yətçinin azad və sərbəst istehsal fəaliyyəti ilə məşğul olması qeyri-mümkündür. Buna görə də, Heydər Əliyev iqtisadiyyatın böhrandan xilas edilib inkişaf etdirilməsinin yeganə yolunun islahatlar olduğunu bildirdi və torpaqların vətəndaşların istifadəsinə verilməsi üçün bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında müvafiq fərmanlar imzalaması islahatlarla bağlı prosesləri xeyli sürətləndirdi.

O vaxtdan təxminən 23 il keçəndən sonra cəsarətlə demək olar ki, 1993-2003-cü illərdə Heydər Əliyev prezident olduğu on il ərzində aşağıda qeyd olunan strategiyanı müəyyən etmiş və gərgin əməyi sahəsində buna nail olmuşdur.

– 1994-cü ildən etibarən Qarabağ cəbhəsində atəşkəs rejiminə nail olmaqla iqtisadi inkişafın əsas prioritetlərinin formalaşdırılması;

– ölkənin həyatında çox zəruri olan ictimai-siyasi sabitləşmə, demokratik prinsiplərin və təsisatların yaradılması və təkmilləşdirilməsi;

– dövlət aparatının möhkəmləndirilməsi və iş qabiliyyətli dövlət idarəçilik təsisatlarının formalaşdırılması;

– cəmiyyətdə yeni davranış norma və stereotiplərinin yaradılması, yeni - açıq və demokratik vətəndaşlığın formalaşdırılması;

– müstəqil dövlətin neft strategiyasının yaradılması, bu strategiyanın əsası olan “Əsrin müqaviləsi” sazişinin imzalanması, ölkənin əsas regional energetik aktora transformasiyasının başlanması;

– “Böyük İpək Yolu” layihəsində fəal iştirak etməklə Azərbaycanın regional logistik mərkəz kimi rolunun dəyişməsi;

– həyat qabiliyyətli tarazlı xarici siyasət modelinin formalaşdırılması;

– müasir və döyüş qabiliyyətli ordunun yaradılması və s.

1995-2003-cü illər ərzində ölkəmizdə böyük sosial-iqtisadi dəyişikliklər müşahidə olunmağa başladı. Beləliklə də, ulu öndər Heydər Əliyev həm nəzəri səviyyədə, həm də praktikada norma və dəyərlər məcmusunu həyata keçirmiş, bu məcmu həyat qabiliyyətli demokratiya modelinə çevrilmişdir. Heydər Əliyevin prezident olduğu dövrdə ölkənin müasir inkişafı üçün möhkəm təməl qoyulmuş, Azərbaycanın qərarlaşmış dövlət kimi qəbul olunması təmin edilmiş, gələcəkdə Azərbaycanın müasir dünyaya inteqrasiyası üçün şərait yaradılmışdır.

Azərbaycanın iqtisadi-sosial və siyasi-hüquqi sisteminin qurulmasında olduğu kimi, demokratik inkişafa, xüsusilə də, söz və mətbuat azadlığına olan diqqət-qayğısı da özünü yüksək nəticələrdə göstərirdi. Ulu öndərin Azərbaycan mətbuatının inkişafında rolu özünü müstəqillik illərində xüsusilə nümayiş etdirib. Müstəqilliyimizin ilk illərində təsadüf nəticəsində hakimiyyətə gəlmiş iqtidarın hərbi və siyasi senzurasında boğulan Azərbaycan mətbuatı yalnız ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra xilas oldu, inkişaf etdi.

Dahi liderin ölçüyəgəlməz səyləri nəticəsində Azərbaycanda mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirildi. Vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin olunması ilə bağlı bir sıra beynəlxalq konvensiya və sazişlərə qoşuldu. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” 6 avqust 1998-ci il tarixli fərmanı KİV-in sərbəst inkişafı, cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım oldu. Bu fərmanla Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində Dövlət Sirlərinin Mühafizəsi Baş İdarəsi ləğv edildi, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşmüş hesab edildi. Həmçinin, 1998-ci ildə senzuranın ləğvi müstəqil mətbuatımızın ictimai fikrə təsir edən və “dördüncü hakimiyyət” funksiyasını həyata keçirən real gücə çevrildi. Məhz bundan sonra mətbuatımızın azad cəmiyyətin və demokratik ölkənin formalaşdırılmasında rolu ortaya çıxdı, hərtərəfli şəkildə dövlət qayğısı ilə əhatələnən mediamız həmin dövrdə müstəqil Azərbaycanın atributuna çevrildi. Mətbuata dövlət nəzarəti olan senzuranın aradan qaldırılmasından sonra beynəlxalq standartlara cavab verən “Kütləvi informasiya vasitələri haqqında”, “Məlumat azadlığı haqqında” qanunlar qəbul edildi, KİV-in təsis edilməsi və fəaliyyəti üçün qanunvericiliyin təkmilləşdirilməsi, optimal hüquqi mühitin formalaşdırılması istiqamətində mühüm addımlar atıldı.

Bir sözlə, ümummilli lider Heydər Əliyevin onillik prezidentliyi dövründə ölkə kökündən dəyişmiş, daxili və xarici siyasətin bir çox istiqamətlərində əhəmiyyətli uğurlar qazanılmışdır. Azərbaycan dövləti uzunmüddətli yaşamaq qabiliyyətini, cəmiyyət isə tarixi prosesin növbəti mərhələsində iştirak etməyə hazır olduğunu nümayiş etdirmişdir. Müasir Azərbaycan Respublikasının müstəqilliyi həm ölkənin sadə vətəndaşları, həm də qlobal miqyaslı mühüm güc mərkəzləri üçün aksioma çevrilmişdir. Məhz Heydər Əliyev şəxsiyyəti, onun xarizması, iradəsi, təcrübəsi göstərilən dövrdə bizim üçün "millət", "dövlətçilik", "idarəçilik sistemi", "hakimiyyət", "inkişaf etmiş iqtisadiyyat", "mənəvi dirçəliş", "liderlik", "transformasiya", "çoxvektorluluq" kimi sistem dəyərlərin təşəkkülündə və möhkəmlənməsində mühüm rol oynadı.

Bu gün də Heydər Əliyev ideyaları Azərbaycan hökuməti tərəfindən uğurla reallaşdırılıb və yüksək nəticələr əldə edilib. İqtisadiyyatın proporsional və balanslaşdırılmış inkişafının təmin olunması və effektivliyə doğru irəliləyişi, bazar iqtisadiyyatının intensivləşdirilməsi, liberal iqtisadiyyatın yeni mexanizmlərinin tətbiq olunması və digər islahatlar əhalinin maddi və mənəvi rifahının yüksəlməsinə, sosial ədalətin bərqərar olmasına şərait yaradıb. Bu prinsiplər ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin başlıca hədəflərini təşkil etmiş və dövlət başçısının rəhbərliyi ilə sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması prosesində mühüm uğurlara imza atılmışdır.

Demokratik, hüquqi və dünyəvi dövlət kimi formalaşmış müasir Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkül tapması, milli-mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin misilsiz tərəqqisi Heydər Əliyevin adı ilə bağlıdır. Onun həyata keçirdiyi genişmiqyaslı milli dövlət quruculuğu proqramı ölkəmizin bütün sahələrdə qazandığı uğur və nailiyyətlərin konseptual əsası olmuşdur. Müstəqil Azərbaycanın Əsas Qanununun – Konstitusiyanın müəllifi kimi ulu öndər Heydər Əliyev dövlət hakimiyyətinin demokratik prinsplər əsasında bölünməsinə, beynəlxalq standartlara uyğun hüquq normalarının və qanunvericilik bazasının yaradılmasına, müasir idarəetmə üsullarının tətbiqinə nail olmuşdur.

Cəmiyyətdə haqq və ədalətin zəfər çalması uğrunda fədakar mübariz kimi şöhrət qazanmış Heydər Əliyev özünün siyasi və dövlətçilik fəaliyyətində hüquqi dəyərlər sistemində insanların hüquq və azadlıqlarının ifadəsinin və müdafiəsinin ən ali forması qanunlara eyni cür, dürüst əməl edilməsini daim önə çəkmişdir. İlk dəfə respublikamızın rəhbəri seçildiyi 1969-cu ildən başlayaraq ulu öndər cəmiyyətdə qanunun aliliyi prinsipinin bərqərar olması üçün göstərdiyi qətiyyətli mövqeyi ilə Azərbaycanın da daxil olduğu keçmiş İttifaq dövləti miqyasında böyük nüfuz qazanmışdır. Həmin dövrdə hüquq-mühafizə orqanlarında sağlam mənəvi mühitin formalaşması istiqamətində prinsipial addımlar atılmış, cinayətkarlığa, xüsusən rüşvətxorluq və korrupsiya kimi ağır cinayətlərə qarşı genişmiqyaslı, güclü və səmərəli mübarizə təşkil edilmiş və bu tədbirlər hər yerdə əks-səda doğurmuş, rəğbətlə qarşılanmışdır.

Heydər Əliyevin təşəbbüsü ilə 1970-80-ci illərdə Azərbaycanda ali hüquq təhsilinin haqq-ədalət çərçivəsində, cəmiyyətin bütün təbəqələrinin mənafeyinə cavab verən prinsiplər əsasında təşkili, vətənpərvər, istedadlı, savadlı, dürüst və vicdanlı hüquqşünas kadrların hazırlanmasında müstəsna əhəmiyyət kəsb etmişdir. Həmin illərdə ali hüquq təhsili almaq istəyinə qovuşmuş yüzlərlə fəhlə-kəndli övladı bu gün də ulu öndərin xatirəsinə böyük rəğbət və ehtiramla respublikamızın hüquq-mühafizə sistemində millətimizə və dövlətimizə sədaqətli xidmət nümunəsi göstərir. Ulu öndərimiz Azərbaycanın prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda ötən əsrin tarixi gerşəkliyini xatırladaraq demişdir: **"Mən xüsusi qeyd etmək istəyirəm ki, 1960, 1970, 1980-ci illərdə Azərbaycanda milli prokuror kadrları hazırlandı, yetişdi və bu gün Azərbaycan prokurorluğunun əsasını təşkil edən kadrlar yüksək peşəkarlığa, hüquqi təhsilə malik olan və öz vəzifələrini yerinə yetirə bilən kadrlardan ibarətdir. Bunlar hamısı bir gündə, bir ildə hazırlana bilməzdi. Azərbaycanda prokurorluq orqanları on illər ərzində təşkıl olunmuş, formalaşmış, inkişaf etmiş və bugünkü yüksək peşəkar səviyyəyə çatmışdır".**

Hamımıza yaxşı məlumdur ki, dövlət müstəqilliyinin bərpasından sonrakı ilk illərdə respublikamız və xalqımız çox ağır sınaqlarla üzləşmiş, cəmiyyətimizdə qanunçuluğun əsasları ciddi şəkildə zəifləmiş, cinayətkarlıq halları görünməmiş səviyyəyə çatmışdı. Həmin vaxt hakimyyətdə olanların siyasi naşılığı, dövlət idarəçiliyindəki səriştəsizliyi, xalqa qarşı ədalətsiz hərəkətləri, xarici təcavüz şəraitində milli birliyin təmin edilməməsi son nəticədə ölkədə xao-

sa, hərc-mərcliyə, özbaşınalığa gətirib çıxarmış, müstəqilliyimizi məhv olmaq təhlükəsi altına salmışdı. Bu illərdə prokurorluq orqanlarında da qeyri-sağlam vəziyyət yaranmış, bu orqanlar öz fəaliyyətini qanun çərçivəsində göstərə bilməmiş, üzərinə düşən vəzifələri həyata keçirməkdə böyük çətinliklərlə üzləşmişlər.

Yalnız 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin müstəqil dövlətimizin ali rəhbərliyinə qayıdışından sonra respublikamızda ictimai-siyasi sabitliyin, qanunçuluğun bərqərar edilməsi, milli dövlətçiliyin və ictimai təhlükəsizliyin qorunması istiqamətində atılan məqsədyönlü addımlar cəmiyyətdə qanunçuluğa hörmət prinsipinin bərpasına, cəmiyyətin cinayətkar ünsürlərdən təmizlənməsinə, güclü və səmərəli hüquq-mühafizə sisteminin formalaşmasına şərait yaratmşdır. Ulu öndərin şəxsi iradəsi və siyasi uzaqgörənliyi nəticəsində Azərbaycan parçalanıb dağılmaq, müstəqilliyini itirmək və vətəndaş müharibəsi təhlükəsindən xilas olmuş, qısa müddət ərzində dövlət və hakimiyyət böhranına, xaos və anarxiyaya son qoyulmuş, torpaqlarımızın işğalı prosesinin qarşısını alan atəşkəs barədə razılaşma əldə edilmişdir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilmiş mütərəqqi islahatlar nəticəsində Azərbaycan prokurorluğu cəmiyyətdə öz nüfuzunu bərpa etməyə, yüksək ictimai etimad qazanmağa nail olmuş, dövlətçiliyin etibarlı sütunlarından birinə çevrilmişdir. Müstəqil dövlətçiliyimizin və cəmiyyətimizin cinayətkar qəsdlərdən qorunmasında, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində fəal mövqe tutan prokurorluq orqanları 1994-1995-ci illərdə qanunsuz silahlı dəstələr tərəfindən törədilən dövlət çevrilişlərinə cəhdlərin qarşısının alınmasında, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə işinin düzgün təşkilində, cinayətkarların tapılaraq qanun əsasında məsuliyyətə cəlb olunmasına nail olmuşlar.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyası hakimiyyət bölgüsü prinsiplərini özündə ehtiva etməklə, zamanın tələbilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm təməl yaratmışdır. Əsas Qanunda ilk dəfə olaraq respublikamızın dövlət quruluşu sistemində prokurorluğun layiqli yeri müəyyənləşdirilmiş, məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydasında təsbit edilmişdir.

Ulu öndər dövlət başçısı kimi daim inandığı, güvəndiyi və arxalandığı prokurorluq orqanlarına, bu orqanlarda şərəflə çahşanlara qayğısını heç vaxt əsirgəməmişdir. Prokuror peşəsinə dərin hörmət və ehtiramının bariz təzahürü kimi o, hər il oktyabr ayının 1-nin Prokurorluq işçilərinin peşə bayramı kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli sərəncam imzalamış, həmçinin prokurorluq işçilərini dövlət təltiflərinə layiq görmüşdür. Fərəh və qürur hissi ilə qeyd etməliyik ki, MDB-də prokurorluğun peşə bayramı gününün təsis edildiyi ilk ölkə Azərbaycan olmuşdur. Ulu öndərimiz prokurorluq işçilərinin peşə fəaliyyətini yüksək qiymətləndirirək demişdir: "**Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim, çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda, Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gun də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram".**

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında aparılan islahatlar nəticəsində prokurorluq orqanlarının səlahiyyətləri beynəlxalq standartlara uyğunlaşdırılmış, ölkədə qanunçuluğun möhkəmləndirilməsində, cinayətkarlığa qarşı mübarizədə bu orqanların rolu artırılmış, kadrların peşəkarlıq səviyyəsi yüksəldilmişdir. Konstitusiyanın qəbulundan sonra, onun 133-cü maddəsinə uyğun olaraq "Prokurorluq haqqında" Qanun layihəsinin hazırlanıb qəbul edilməsi və 7 dekabr 1999-cu il tarixdə qüvvəyə minməsi prokurorluğun totalitar rejimə xas bəzi funksiyalardan azad olmasını, onun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılmasını təmin etmişdir. Azərbaycan Prokurorluğunda demokratik, hüquqi dövlət quruculuğunun müasir tələblərinə cavab verən köklü islahatlar və səmərəli struktur dəyişikliklərinin əsası ulu öndər Heydər Əliyevin iştirakı ilə 26 aprel 2000-ci ildə keçirilən geniş müşavirədən sonra başlanmış və uğurla icra edilmişdir. Prokurorluğun həyatında müstəsna rol oynamış bu tarixi müşavi-

rədə dövlət başçısının verdiyi tövsiyə və göstərişlər əsasında həyata keçirilən tədbirlər bu orqanın demokratik məzmunda yeniləşdirilməsi, neqativ təzahürlərin aradan qaldırılması, müasir standartlar səviyyəsində işləməyə qadir olan kadr korpusunun formalaşdırılması, cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi işinin zəruri tələblər səviyyəsinə qaldırılması ilə nəticələnmişdir. Həmin müşavirədəki nitqində ulu öndərimiz demişdir: **"Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidır".** Müdrik və uzaqgörən rəhbərin bu tələb və tövsiyəsi hər bir prokurorluq işçisi üçün həyat və fəaliyyət meyarıdır. Ulu öndərin müstəqil dövlətimizə rəhbərliyi dövründə aparılan məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin beynəlxalq standartlara və demokratik prinsiplərə əsaslanan, milli dövlətçilik ənənələrindən qaynaqlanan möhkəm hüquqi bazasının yaradılması ardıcıl xarakter kəsb etmişdir. Ölkəmizdə dövlət quruculuğu prosesinin dərinləşməsi prokurorluğun cəmiyyətdə və idarəçilik sistemində rolunu daha artırmaq zərurəti yaratmış, 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən, prokurorluğa həm də qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Ulu öndər Heydər Əliyevin Baş Prokurorluğa və onun dövlətçiliyimizin möhkəmləndirilməsindəki roluna verdiyi yüksək dəyərin təzahürü olan bu hüquq ictimai həyatın ayrı-ayrı sahələrinin hüquqi tənzimlənməsindəki çatışmazlıqlar haqqında Milli Məclisə məlumatların verilməsi, habelə müvafiq qanun layihələrinin ali qanunverici orqana təqdim edilməsi ilə gerçəkləşdirilir. Ulu öndərin müstəqil, müasir dövlət quruculuğu konsepsiyasının tərkib hissəsi olan məhkəmə-hüquq islahatları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında son 15 ildə böyük uğurla davam etdirilmişdir. Bu baxımdan, dövlət başçısının prokurorluq orqanlarına inam və etmadının təzahürü olan qərarları da bu orqanların fəaliyyətininin təkmilləşdirilməsində və müasirləşdirilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, ölkə Prezidentinin 3 mart 2004-cü il tarixli Sərəncamı ilə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi yaradılmış, 3 sentyabr 2004-cü il tarixli "Korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramının (2004-2006-cı illər) təsdiq edilməsi barədə" Sərəncamda isə digər hüquq-mühafizə orqanları ilə yanaşı, prokurorluq işçilərinin də yüksək dövlət məvacibi ilə təmin edilməsi, onların əmək haqlarının mərhələlərlə artırılması, sosial təminatlarının yaxşılaşdırılması məsələləri əksini tapmışdır. "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın təsdiq olunması, korrupsiyaya qarşı ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətinin tamamilə yeni müstəviyə qaldırılmaqla, strukturunun və iş metodlarının təkmilləşdirilməsi və bu quruma əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin verilməsi möhtərəm Prezidentimizin prokurorluq orqanlarının dövlət idarəçiliyəndəki roluna verdiyi dəyərin bariz göstəricisidir.

Biz, prokurorluq orqanları əməkdaşları ulu öndərimiz tərəfindən əsası qoyulmuş ənənənin sadiq davamçısı olan möhtərəm Prezident cənab İlham Əliyevin diqqətini, qayğısını və dəstəyini daim görür və hiss edir, Baş Prokurorluğun rəhbərliyinin əmr və göstərişlərinə dürüst əməl etməklə öz xidməti vəzifələrimizin icrasında bu etimadı doğrultmağa çalışırıq.

Demokratik cəmiyyətdə öz funksiyalarını yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirməklə, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin olunmasında, bütövlükdə hüquq sisteminin inkişafında fəal və əhəmiyyətli rol oynamaqla ulu öndərimiz Heydər Əliyevin qurub yaratdığı müasir müstəqil Azərbaycanın daha da çiçəklənməsi naminə bundan sonra da qətiyyət və əzmlə işləmək, insan hüquq və azadlıqlarının müdafiəsinə, ictimai-siyasi sabitliyin, əmin-amanlığın və dövlətçiliyimizin layiqincə qorunmasına xidmət etmək prokurorluğun hər bir əməkdaşının şərəfli borcudur.

**Rauf Məmmədov,**
*Baş Prokurorluğunun Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizlik və Dövlət Sərhəd Xidmətlərinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini, baş ədliyyə müşaviri*
"Respublika" qəzeti, 22 aprel 2018-ci il

# Ulu öndərin ideyalarına sədaqətlə

**Sabitlik və davamlı inkişaf bu gün ölkəmizi nəinki regionda, ümumən dünya ölkələri arasında fərqləndirən, dinclik, təhlükəsizlik və əmin-amanlıq şəraitində vüsətli tərəqqi və quruculuq prosesinin getdiyi bir məkan kimi tanıtdıran çox mühüm amillərdir. Müasir müstəqil Azərbaycan dövlətinin təcrübəsi göstərir ki, ictimai-siyasi sabitliyə söykənən sosial-iqtisadi inkişaf hər cür yeniliyə, zamanın və həyatın bütün çağırışlarına cavab verməyə, beləliklə də, xalqın rifahının, vətəndaşların hüquq və azadlıqlarının təmini üçün geniş imkanlar açmağa qadirdir. Bəşər tarixinə bu möhtəşəm nümunəni verən dövlətin qurucusu ulu öndər Heydər Əliyevin 95 illik yubileyini qeyd edərkən, təbii ki, yaxın keçmişə qayıtmaq, müstəqil ölkəmizin hansı mürəkkəb sınaqlardan keçdiyini xatırlamaq lazım gəlir...**

Dövlət müstəqilliyinin bərpasından əvvəlki və sonrakı bir neçə ildə Azərbaycanın üzləşdiyi bəlaların səbəbləri barədə çox yazılır, çox danışılır. Nəhəng bir imperiyanın - güclü siyasi sistemin çökməsinə özünün azadlıq və müstəqillik mübarizəsi ilə təsir göstərən xalqımız həmin dövrdə çıxdığı yolun onu hansı istiqamətə aparacağını müəyyənləşdirməkdə çətinlik çəkirdi. Bu vəziyyətdən şəxsi mənafe naminə yararlanmağa çalışan bəzi qruplar isə ölkəni xaosa və qarşıdurmaya sürükləyirdilər. Dağlıq Qarabağda erməni separatizminin baş qaldırması və açıq ekstremizmə keçməsi, iqtisadi potensialın dağıdılması, ideya-mənəvi tənəzzülün cəmiyyəti parçalaması və s. təhlükəli hallar həmin dövrün müasir tariximizə qara hərflərlə yazılmış gerçəklikləridir. Məhz vahid liderin olmaması xalqın gücünün yaradıcı məcraya yönəlməsinə, qarşıda duran ümummilli məqsədlər üçün səfərbər edilməsinə imkan vermirdi. Yalnız Heydər Əliyevin yenidən fəal surətdə siyasətə qayıtması, müxtəlif təbəqələri təmsil edən vətənpərvərləri öz ətrafında birləşdirərək, tezliklə cəmiyyətin avanqard siyasi qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasını yaratması sayəsində müstəqil dövlətçiliyimizin xilası mümkün oldu. Ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıdışının tarixi əhəmiyyəti barədə cənab Prezident İlham Əliyev belə demişdir: *"...O da bir dönüş nöqtəsi idi. Çünki Azərbaycan çox ağır vəziyyətlə üzləşmişdi. Həm siyasi böhran, hərbi böhran, iqtisadi tənəzzül yaşanırdı və əlbəttə ki, ölkəmizin gələcək taleyi çox qaranlıq idi. Xalq o ağır günlərdə yeganə nicat yolunu Heydər Əliyevdə görürdü və o da xalqın etimadını həmişə olduğu kimi, doğrultdu. Onun rəhbərliyi ilə aparılan siyasət qısa müddət ərzində Azərbaycanda sabitliyə, inkişafa gətirib çıxarmışdır".*

Müstəqil dövlət quruculuğuna başlayarkən ulu öndər Heydər Əliyevin, ilk növbədə, cinayətkarlığa və hüquqa zidd hərəkətlərə qarşı mübarizəni önə çəkməsi, ictimai asayişin bərpasını və qorunmasını təmin etməsi cəmiyyətin sağlamlaşmasına, hər bir sahədə nizam-intizamın bərqərar olmasına şərait yaratdı.

Hələ Azərbaycana rəhbərliyinin birinci dövründə – sovet hakimiyyəti zamanında o, cəmiyyətdə haqq və ədalətin zəfər çalması uğrunda fədakar mübariz kimi şöhrət qazanmış, özünün siyasi və dövlətçilik fəaliyyətində insan hüquq və azadlıqlarının müdafiəsinin ən ali forması kimi qanunlara eyni cür, dürüst əməl edilməsinə nail olmuşdur. O dövrdə ulu öndərin təşəbbüsü ilə respublikada ali məktəblərin hüquq fakültəsinə qəbulda aparılan islahat nəticəsində sadə ailələrdən çıxan bilikli və istedadlı gənclər hüquqşünas ixtisası alaraq hüquq-mühafizə sistemində, o cümlədən prokurorluq orqanlarında işləməyə başlamış, yüksək vəzifələrə irəli çəkilmişlər. Ulu öndər həmin hüquqşünaslar nəslinin bir çox nümayəndəsinin bu gün müstəqil dövlətçiliyimizə ləyaqətlə xidmət etməsi faktına sonralar münasibətini belə bildirmişdir: "Mən xüsusi qeyd etmək istəyirəm ki, 1960, 1970, 1980-ci illərdə Azərbaycanda milli prokuror kadrları hazırlandı, yetişdi və bu gün Azərbaycan prokurorluğunun əsasını təşkil edən kadrlar yüksək peşəkarlığa, hüquqi təhsilə malik olan və öz vəzifələrini yerinə yetirə bilən kadrlardan ibarətdir. Bunlar hamısı bir gündə, bir ildə hazırlana bilməzdi. Azərbaycanda prokurorluq orqanları on illər ərzində təşkil olunmuş, formalaşmış, inkişaf etmiş və bugünkü yüksək peşəkar səviyyəyə çatmışdır".

Müstəqil dövlətçiliyin ən mühüm dayaqlarından olan məhkəmə-hüquq və ədliyyə sisteminin yeni şəraitdə hüquqi-demokratik dövlət quruculuğu məqsədlərinə uyğun olaraq sağlam əsaslar üzərində formalaşdırılması Heydər Əliyevin uzaqgörən siyasətinin prioritetlərindən idi və bu istiqamətdə o,

köklü islahatlar həyata keçirmişdir. Müstəqil Azərbaycanın Əsas Qanununun – Konstitusiyanın müəllifi kimi ulu öndər dövlət hakimiyyətinin demokratik prinsplər əsasında bölünməsinə, beynəlxalq standartlara uyğun hüquq normalarının və qanunvericilik bazasının yaradılmasına, müasir idarəetmə üsullarının tətbiqinə nail olmuşdur. Bu Konstitusiyaya əsaslanan islahatlar, ilk növbədə demokratik cəmiyyət quruculuğunun, insanların hüquq və azadlıqlarının təmininə, humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallara xidmət etmişdir. Bu baxımdan, ölüm cəzasını ləğv, əfv və amnistiya institutlarını bərpa etməklə ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqil dövlət kimi həm demokratiya və hüquq qaydalarına sadiqliyini, həm də humanist siyasət apardığını göstərmişdir.

Ulu öndərin 95 illik yubileyi xalqımız və dövlətimiz üçün çox əlamətdar bir vaxta təsadüf etmişdir: dünya azərbaycanlıları müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyini qeyd etməyə hazırlaşırlar. Cümhuriyyətin ən mühüm nailiyyətlərindən biri demokratik prinsiplərə uyğun dövlət təsisatlarının qurulması idi. Bu təsisatlar arasında 1 oktyabr 1918-ci ildə fəaliyyətə başlamasına qərar verilmiş prokurorluq orqanları da vardır. Ulu öndər Heydər Əliyev məhz həmin tarixi əsas götürərək 1998-ci ildə hər ilin oktyabrın 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı kimi qeyd edilməsi barədə Sərəncam imzalamış, prokurorluğun 80 illik yubiley tədbirində iştirak etmiş və dərin məzmunlu, proqram xarakterli nitq söyləmişdir. Onun 26 aprel 2000-ci ildə respublika prokurorluğunun rəhbər işçiləri ilə keçirdiyi tarixi görüş isə prokurorluq orqanlarının fəaliyyətində yeni bir dövrün başlanması ilə əlamətdar olmuşdur. Həmin görüşdə müdrik rəhbərin verdiyi tövsiyə və göstərişlər əsasında həyata keçirilən tədbirlər bu orqanın demokratik məzmunda yenilənməsinə, neqativ təzahürlərin aradan qaldırılmasına, müasir tələblərə cavab verən, yüksək nəzəri-praktiki hazırlığı olan kadr korpusunun formalaşdırılmasına, cinayətkarlığa qarşı mübarizənin, insan hüquq və azadlıqlarının müdafiəsi işinin zəruri tələblər səviyyəsində qurulmasına gətirib çıxarmışdır.

Ulu öndərin müstəqil dövlətçilik ideyalarını uğurla gerçəkləşdirən möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində çox mühüm addımlar atılmışdır. Prokurorluqda sağlam iş mühiti yaradılmış, dövlətçilik və qanunçuluq prinsipləri tam bərqərar edilmiş, nəticədə cəmiyyətimizdə bu orqana ictimai etimad artmış və onun nüfuzu yüksəlmişdir. Burada gedən yeniləşmə prosesi, gənc kadrların ədalət və şəffaflıq prinsipləri əsasında işə qəbulu, vəzifədə irəli çəkilməsi, sağlam mənəvi mühitin yaradılması dövlətimizin başçısı tərəfindən daim dəstəklənir.

Cənab Prezidentin prokurorluq orqanlarında kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə təsdiq etdiyi “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı” uğurla həyata keçirilmişdir. Nəticədə məhkəmə-hüquq islahatlarının tərkib hissəsi kimi prokurorluq orqanlarının işinin səmərəliliyi artırmış, kadr potensialı möhkəmləndirilmiş, müasir standartlara cavab verən informasiya texnologiyaları tətbiq edilmiş, prokurorluq işçilərinin iş şəraiti və maddi təminatı əsaslı şəkildə yaxşılaşdırılmış, sosial müdafiəsi gücləndirilmişdir.

Ulu öndərimizin prokurorluq işçilərinin peşə xüsusiyyətləri barədə söylədiyi müdrik fikirləri hər bir prokurorluq işçisi yaddaşına həkk etməli, onun müəyyənləşdirdiyi etik prinsiplərə, peşəkarlıq keyfiyyətlərinə layiq olmalıdır. “Mən arzu edirəm ki, hər bir prokurorluq işçisi öz peşəsinin hörmətini yüksək saxlasın, öz peşəsinin adını qorusun. O öz peşəsinin adını qoruyaraq öz şəxsi adını qoruyacaqdır. Arzu edirəm ki, müstəqil Azərbaycanın prokurorluğu və hər bir prokuroru cəmiyyətdə ən hörmətli, ən layiqli adam sayılsın”, - deyən ulu öndər Heydər Əliyevin bu arzusunu gerçəkləşdirmək müstəqil dövlətçiliyimizi qoruyan, cinayətkarlığa və hüquqa zidd hərəkətlərə qarşı sipər olan, vətəndaşların hüquq və azadlıqlarının, ümumilikdə cəmiyyətdə qanunun aliliyinin təmin olunmasına cavabdehlik daşıyan biz prokurorluq əməkdaşlarının xidməti və mənəvi borcudur.

Əminliklə deyə bilərik ki, Azərbaycanın prokurorluq orqanlarının müstəqil dövlətçiliyimizə və Heydər Əliyev ideyalarına sadiq kollektivi bu mühüm dövlət təsisatının mövcud qanunvericiliyə və beynəlxalq standartlara uyğun səmərəli və məqsədyönlü fəaliyyətini təmin etməyə səfərbər olunmuşdur.

**Nazim İmanov,**
*Binəqədi rayon prokuroru,*
*baş ədliyyə müşaviri*
“Respublika” qəzeti, 3 may 2018-ci il

# Ədalət inkaşafa və sabitliyə əsas zəmindir

*Qanunun aliliyi Heydər Əliyevin dövlət quruculuğu ideyasının təməl prinsipi idi*

**Cəmiyyətin maraq və mənafelərini ümumi bir ideya ətrafında birləşdirmək bacarığına malik ulu öndər Heydər Əliyevin böyük müdrikliklə yaratdığı müstəqil dövlətçilik modeli Azərbaycanın bütün inkişaf istiqamətlərini özündə ehtiva edir. Onun dövlət quruculuğu strategiyası, yaratdığı mükəmməl siyasi-iqtisadi konsepsiya hələ bundan sonra da Azərbaycanın tərəqqisinin yüksək dinamizmə əsaslanmasını təmin edəcək, ölkəmizə həmişə böyük uğurlar qazandıracaq. Çünki tarixin axarını dəyişən ideya və prinsiplərin daşıyıcısı olan ümummilli liderimiz hadisələrin inkişafını bir neçə onilliklər boyu əvvəlcədən görmək və duymaq kimi fitri istedada malik şəxsiyyət olaraq proseslərin Azərbaycanın milli maraqları çərçivəsində cərəyan etməsinə nail olmuşdur.**

Bu gün müstəqil respublikamızın əldə etdiyi nailiyyətlər, dünya birliyində nüfuzunun artması, malik olduğu potensialdan xalqın rifahı naminə layiqincə istifadə etməsi məhz Heydər Əliyev fenomeni sayəsində mümkün olmuşdur. Birmənalı şəkildə qəbul olunmuş bir həqiqətdir ki, kifayət qədər mürəkkəb və ziddiyyətlərlə dolu dövr kimi xarakterizə edilən XX əsrdə Heydər Əliyev kimi xarizmatik lider ölkəmizə rəhbərlik edərək Azərbaycanı sürətli, dönməz inkişaf yoluna çıxarmışdır. Ulu öndər bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmiş, Azərbaycanın dövlət müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri olmuşdur. Ümummilli liderin müəyyənləşdirdiyi inkişaf kursu bu gün onun layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına cavab verən səviyyədə uğurla davam etdirilir. Siyasi və makroiqtisadi baxımdan sabit, dayanıqlı və davamlı iqtisadi inkişafa malik ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüsçüsü və fəal iştirakçısı, mötəbər beynəlxalq tədbirlər məkanı kimi tanınan müstəqil respublikamızın qazandığı möhtəşəm nailiyyətlər böyük şəxsiyyət Heydər Əliyevin müdrik siyasətinin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir.

11 aprel 2018-ci il prezident seçkilərinin nəticələri bir daha təsdiq etdi ki, xalqımız ulu öndər, dünya miqyaslı siyasətçi Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi kursa alternativ görmür. Ədalətli, şəffaf demokratik prinsiplərin əsasında qanunauyğun, seçicilərin fəallığı və mütəşəkkiliyi ilə keçirilən seçkilərdə cənab İlham Əliyevin parlaq qələbəsi xalqın bu siyasətə tam dəstəyini ifadə etdi. Azərbaycan xalqı cənab İlham Əliyevə yenidən etimad göstərməklə həm də bu günə kimi görülmüş işlərə yüksək qiymət verdi. Çoxsaylı yerli və beynəlxalq müşahidəçilər, ictimaiyyət tərəfindən diqqətlə izlənilən seçkilərdə cənab İlham Əliyevin parlaq qələbəsi iqtidar-xalq birliyinin sarsılmaz olduğunu nümayiş etdirməklə yanaşı, bütövlükdə Azərbaycan xalqının zəfəridir. Bu zəfər ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95 illiyinə, müstəqil respublikamızın varisi olduğu müsəlman şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə mühüm töhfədir.

Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri və əvəzsiz xidmətləri olan ulu öndər Heydər Əliyev xalqımızın dahi övladları sırasında ən yüksək zirvədə dayanır. O müstəqilliyi və azadlığı uğrunda mübarizə aparan millətin öndəri olmaq, dövlətçilik ənənələrini yaşatmaq, güclü və qüdrətli bir dövlətin möhkəm təməlini yaratmaq kimi, müqəddəs bir missiyanı şərəflə yerinə yetirmişdir. Müstəqil dövlətimizin əldə etdiyi bütün diqqətəlayiq nailiyyətlər Heydər Əliyevin milli inkişaf strategiyasına əsaslanır. Məhz bu strategiya ölkəmizdə demokratik, hüquqi və

dünyəvi dövlət quruculuğu prosesinin təməl prinsiplərini özündə ehtiva etməklə, həm də cəmiyyətdə birliyin və həmrəyliyin, elm, təhsil və mədəniyyət sahəsində tərəqqinin təmin olunmasına imkan vermişdir. Müstəqil Azərbaycan Respublikasının ilk əsas Qanununun - Konstitusiyasının müəllifi olan ulu öndər Heydər Əliyev bu konseptual sənəddə dövlət quruculuğunun demokratik prinsiplərinin təsbit edilməsinə nail olmaqla ölkəmizin bəşəri dəyərlərə sadiqliyini sübuta yetirmişdir. Konstitusiyanın hər bir kəlməsinin, hər bir sözünün mənasını dəfələrlə təhlil edən ümummilli lider bu işin məsuliyyətini qürurla daşıdığını bəyan etmişdir. Demokratik hüquqi dövlətin bütün prinsiplərinin - qanunun aliliyinin, insan hüquqlarının müdafiəsinin, hakimiyyət bölgüsünün, Konstitusiya nəzarəti prinsiplərinin təsbitinin, insan haqlarının təminin dövlətin ali məqsədi olduğunu elan edən Heydər Əliyev Konstitusiyası, həqiqətən də mükəmməl hüquqi sənəddir. Azərbaycanda haqq-ədalət prinsiplərinin cəmiyyət həyatının aparıcı amilinə çevrilməsində Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. O özünün siyasi fəaliyyətində və dövlət idarəçiliyi təcrübəsində bu prinsipləri həmişə üstün tutaraq, qanunçuluğa hamı tərəfindən eyni cür, dürüst əməl edilməsini sağlam cəmiyyətin təşəkkül tapması üçün başlıca təməl kimi müəyyənləşdirmişdir. Müxtəlif hüquq sahələri üçün əsas baza və istiqamətverici akt olan Konstitusiya mövcud qanunvericiliyə vahid istiqamət verməklə onun ümumi sistem kimi formalaşmasına şərait yaradır. Eyni zamanda bu ali sənəd ölkənin hüquq sisteminin əsasını təşkil edir, normativ-hüquqi aktlar vasitəsilə ictimai münasibətlərin hüquqi tənzimlənməsinin əsaslarını yaradır.

Konstitusiyanın qəbulu, digər çoxsaylı qanunvericilik aktları, ulu öndər tərəfindən verilən fərman və sərəncamlar respublikanın prokurorluq orqanlarında da müsbət istiqamətdə mühüm dəyişikliklərlə, sürətli inkişafa xidmət edən islahatlarla xarakterizə edilmişdir. Xüsusən də “Prokurorluq haqqında”, “Prokurorluq orqanlarında qulluqkeçmə haqqında”, “Prokurorluğun rəsmi emblemi haqqında”, “Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında”, “Polis haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında”, “Vəkillər və vəkillik fəaliyyəti haqqında”, “Məhkəmələr və hakimlər haqqında” qanunlar, Cinayət, Cinayət-Prosessual, Cəzaların İcrası, Mülki, Mülki-Prosessual, İnzibati Xətalar məcəllələri və digər bir sıra normativ hüquqi aktlar ölkəmizdə prokurorluğun yeri və rolunun müəyyən edilməsində müstəsna əhəmiyyət kəsb etmişdir.

İctimai həyatın bütün sahələri üzrə yeniləşən respublikamızda sabitliyin, qanunçuluğun, hüquq qaydalarının təminatında, dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında, kriminogen durumun yaxşılaşdırılmasında, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsində Azərbaycan Respublikası Prokurorluğunun da müstəsna xidmətləri vardır. Ötən müddətdə qanunvericilikdə nəzərdə tutulmamış qanunsuz silahlı dəstələrin dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında, mütəşəkkil cinayətkarlığın bütün forma və təzahürlərinə qarşı mübarizənin düzgün təşkilində və son nəticədə cəmiyyətin normal inkişaf harmoniyasının qorunub saxlanılmasında, prokurorluq orqanlarının rolu təqdirəlayiqdir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi, qanunçuluğun bərpası, məhkəmələrdə dövlət ittihamının daha mütərəqqi prinsiplər əsasında təşkili istiqamətində həyata keçirilən mühüm addımlardan biri də prokurorluq sistemində çoxşaxəli islahatların aparılması, bu orqanın funksiya və vəzifələrinin Konstitusiyaya uyğunlaşdırılması olmuşdur. Azərbaycanda cəmiyyətin dinamik inkişafı, yeni iqtisadi-siyasi, hüquqi münasibətlərə keçid, habelə Avratlantik məkana İnteqrasiya prokurorluğun statusuna yenidən baxılmasını zəruri etmişdir. Bu status ölkənin demokratik inkişafı ilə uzlaşmadığından prokurorluq sistemində genişmiqyaslı islahatların aparılması vacib idi. Əsas Qanunda ilk dəfə olaraq respublikamızın dövlət qulluğu sistemində prokurorluğun layiqli yeri müəyyənləşdirilmiş, məhkəmə hakimiyyəti isteminə daxil olan prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyəti prinsipləri, səlahiyyət dairəsi, vəzifələri qanunvericilik qaydasında təsbit edilmişdir. Prokurorluqda aparılan islahatların əsas qayəsi bu orqanın səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Ulu öndərin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisdə qəbul olunmuş və 7 dekabr 1999-cu il tarixdə qüvvəyə minmiş “Prokurorluq haqqında” Qanunun əhəmiyyəti bu mənada xüsusi vurğulanmalıdır. Mütərəqqi ruhlu qanunda prokurorluğun totalitar rejimə xas olan funksiyalardan azad olunması, onun fəaliyyətinin forma və metodlarının

demokratik dəyərlərə uyğunlaşdırılması nəzərdə tutulmuşdur. Bu qanunun qəbulu qarşıda duran bu və digər vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmış, prokurorluq orqanlarının daha da demokratikləşməsini, qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etmişdir.

Ümummilli lider Heydər Əliyevin prokurorluğa xüsusi diqqət və qayğısı da bu sferada sürətli inkişafa stimul vermişdir. Onun 17 iyul 1998-ci il tarixli sərəncamı ilə hər il oktyabrın 1-i prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunması prokurorluq orqanlarına dövlət qayğısının ifadəsi, eyni zamanda, bu sahədə fəaliyyət göstərənlərin əməyinə yüksək dəyərin verilməsinin əyani nümayişidir. Ümummilli lider prokurorluq orqanı işçiləri ilə vaxtaşırı görüşür, onlara tapşırıq və tövsiyələrini verirdi. Bu orqanların işini qiymətləndirən ulu öndər deyirdi: "Mən hesab edirəm ki, respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruculuğu sistemində öz yerini tutubdur. Və ölkəmizin müstəqilliyinə layiqli xidmət edir. Buna görə də biz 1995-ci ildə qəbul etdiyimiz ilk Konstitusiyada prokurorluğun yerini, səlahiyyətlərini və vəzifəsini müəyyən etmişik. Biz Azərbaycanda dövlət müstəqilliyini inkişaf etdirərək hüquqi, demokratik, dünyəvi dövlət quraraq respublikamızın dövlət orqanlarını, o cümlədən hüquq mühafizə orqanlarını Azərbaycanın milli mənafelərinə uyğun olaraq təşkil edir və onların vəzifələrini, səlahiyyətlərini də ölkəmizin milli mənafelərini müdafiə etmək nöqteyi-nəzərindən müəyyənləşdiririk. Belə bir dövrdə Azərbaycan Prokurorluğu Konstitusiyada müəyyən olunmuş səlahiyyətlərini həyata keçirərək ölkəmizin dövlətçiliyinin qorunmasına və möhkəmləndirilməsinə xidmət etməlidir, qanunun aliliyini təmin etməli və qanunun aliliyinə riayət etməlidir. Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının keşiyində durmalıdır. Bütün bunlar hamısı Konstitusiyada öz əksini tapıbdır".

Ulu öndərin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə digər sahələrdə olduğu kimi, məhkəmə-hüquq islahatları müasir dövrün tələblərinə uyğun daha da dərinləşdirilmişdir. Bu istiqamətdə qəbul edilmiş qanunlar və qərarlar dövlət başçısının hüquq mühafizə sistemində önəmli yer tutan prokurorluq orqanlarına inam və etimadının təzahürü olmaqla onların fəaliyyətinin təkmilləşdirilməsinə və müasirləşdirilməsinə şərait yaratmışdır. Cənab İlham Əliyev qeyd etmişdir: "Prokurorluqda sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri ön plana çəkilmiş, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artmış və onun nüfuzu yüksəlmişdir. Prokurorluq orqanlarında yeniləşmə prosesi gedir, gənc kadrlar işə qəbul edilir, vəzifədə irəli çəkilir, yeni iş ruhu, canlanma və inkişaf hiss olunur. Bu proseslər dövlət tərəfindən dəstəklənir və bundan sonra da dəstəklənəcəkdir".

Son on beş ildə ölkədə insan və vətəndaş hüquq və azadlıqlarının təmini istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Müasir dövrdə hüquq mühafizə orqanlarında, o cümlədən məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar konkret zamanla məhdudlaşmayan strateji əhəmiyyət daşıyan, daimi fəallıq, zəhmət tələb edən prosesdir. Dövlət başçısı cənab İlham Əliyev prokurorluq orqanlarının insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu ali instansiyaya çevrilməsinə, cəmiyyətdə yüksək etimad qazanmasına çalışmışdır. Bu islahatların başlıca məqsədi, eyni zamanda, prokurorluğun insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəçisinə çevrilməsini təmin etmək, onun mütəşəkkil cinayətkarlıqla, o cümlədən korrupsiya ilə mübarizədə imkanlarını daha da genişləndirməkdir. Son on beş ildə beynəlxalq tələblər səviyyəsində həyata keçirilən hüquq islahatları deməyə əsas verir ki, hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində hər bir vətəndaşın layiqli prezidenti olacağını bəyan etmiş möhtərəm İlham Əliyev bu vədini əməli işi ilə doğrultmuş, hüquq sisteminin daha da təkmilləşməsini uğurla təmin etmişdir. Ölkə vətəndaşları inanır ki, Azərbaycanda demokratiyanın və vətəndaş cəmiyyəti təsisatlarının inkişafına xidmət üçün bu islahatlar qarşıdakı illərdə də inamla və qətiyyətlə davam etdiriləcəkdir.

Əminliklə deyə bilərik ki, Vətəninə, Xalqına və Prezidentinə hər zaman sadiqlik nümayiş etdirən prokurorluq orqanları bundan sonra da üzərinə düşən bütün vəzifələri məsuliyyətlə yerinə yetirməklə, vətəndaşların azad və təhlükəsiz yaşamaq kimi fundamental hüququnun reallaşdırılması sahəsində bütün zəruri tədbirləri həyata keçirəcəkdir.

**Fəxri Ələsgərov,**
*Bakı şəhəri, Xəzər rayon prokuroru*
*baş ədliyyə müşaviri*
"Respublika" qəzeti, 29 aprel 2018-ci il

# Ulu öndərin ideyaları yaşayır və yaşadır

**Xalqların dünya miqyasındakı yeri və rolu qeyri-adi idarəçilik keyfiyyətləri, mütərəqqi ideyaları, fitri istedadı, mürəkkəb siyasi şəraitdə məsuliyyəti öz üzərinə götürmək bacarığı ilə fərqlənən dahi şəxsiyyətlərin tarixi missiyası ilə birbaşa bağlıdır. İctimai-siyasi formasiyanın xarakterindən asılı olmayaraq, bu zaman şəxsiyyət-lider amili mühüm əhəmiyyət kəsb edir. Məhz belə şəxsiyyətlər xalqının ən ümdə istək və arzularının siyasi və əməli anlamda ifadəçisi kimi, onun istiqlal məfkurəsinin reallığa çevrilməsində, gələcək inkişaf meyillərinin müəyyənləşməsində müstəsna rol oynayırlar.**

Azərbaycanda belə bir fövqəladə missiyanı bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına həsr etmiş Heydər Əliyev həyata keçirərək dünyanın ən qüdrətli siyasi xadimləri ilə bir sırada dayanmaq haqqı qazanmışdır. Bu nadir düha özünün dərin fəlsəfi dünyagörüşünə, tarixi irsə əsaslanaraq, milli dəyərlər zəminində müasir dövlətçilik sistemimizin ideoloji-siyasi dayaqlarını yaratmaqla XX əsrin sonunda yenidən əldə etdiyimiz müstəqilliyimizin əbədi və dönməz xarakter almasına nail olmuşdur. Məhz bu kimi misilsiz xidmətləri sayəsində Heydər Əliyev dünya azərbaycanlılarının, o cümlədən bütün türk dünyasının dərin sevgisini qazanaraq, xalqının siyasi və dövlətçilik şüurunda ümummilli lider yüksəkliyini fəth etmişdir.

Ulu öndərimizin həyat fəlsəfəsi onun müstəqil dövlətçilik və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliğ olunması və hərtərəfli inkişaf etdirilməsi Azərbaycanımızın işıqlı gələcəyi naminə mühüm məsələlərdəndir. Heydər Əliyev müasir dövlətimizin ideoloji-siyasi əsaslarını tarixi irs və milli-mənəvi dəyərlər əsasında yaradaraq onu real həyatda gerçəkləşdirmiş müdrik şəxsiyyət kimi hələ sağlığında ikən canlı əfsanəyə çevrilmişdir. Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası ən yeni tariximizdə məhz Heydər Əliyevə məxsusdur. Böyük rəhbərin dövlətçiliyimizin ən ağır günlərində göstərdiyi qətiyyət və iradə sonsuz Vətən sevgisinin parlaq nümunəsidir. Əsl vətəndaş, tarixi şəxsiyyət və ümummilli lider kimi o, millətini, torpağını labüd fəlakətlərdən qurtarıb, çevriliş, qiyam cəhdlərindən qoruyaraq cəmiyyətdə özünəinam hissini bərpa edib, ölkəmizdə sabitlik və firavanlığa təminat yaradıb.

Heydər Əliyev uzaqgörən, qətiyyətli siyasətçi olduğunu hələ ölkəyə ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə sübut etmişdir. Həmin illərdə Azərbaycanda dövlət quruculuğunda, iqtisadiyyatın, elmin, mədəniyyətin, bir sözlə həyatın ən müxtəlif sahələrində böyük nailiyyətlər qazanılmış, coşqun bir tərəqqi dövrü yaşanmışdır. Məhz bu illərdə milli və mənəvi dəyərlərin qorunub saxlanılmasında, dövlətçilik, o cümlədən parlamentarizm ənənələrinin inkişafı istiqamətində əməli addımlar atılmış, xalqın intellektual keyfiyyətlərinin meydana çıxması üçün əsaslı zəmin yaradılmışdır. Bu dövrdə onun xalqı qarşısında göstərdiyi ən böyük xidmətlərdən biri Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi olmuşdur.

Ümumiyyətlə, 1970-1985-ci illər yeni Azərbaycan tarixinə quruculuq illəri kimi daxil oldu. Ölkə həyatında baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan köklü struktur islahatlarının xarkterinə, xalqın maddi rifah halının yüksəlməsinə görə bu illər Azərbaycanın hərtərəfli tərəqqisində mühüm mərhələ idi. Bu dövrdə respublika iqtisadiyyatında böyük bir canlanma baş verdi. Yüzlərlə zavod və fabriklər inşa edildi, yeni istehsalat sahələri yaradıldı. Neft və neft avadanlıqları, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil hissələri, mineral gübrələr, çini-saxsı qablar, xalça və xalçaçılıq məmulatları istehsalı üzrə Azərbaycan keçmiş SSRİ-də ön sıraya çıxdı.

Heydər Əliyev sovet ideologiyasının tüğyan etdiyi bir vaxtda Azərbaycana fikir plüralizmi, demokratik və azad düşüncə tərzi, güclü sosial ədalət duyğusu və milli özünüdərk hissi gətirdi. O dövrdə keçmiş İttifaqın aparıcı elm və təhsil ocaqlarında gənclərimiz lazımi ixtisaslara yiyələndi, milli kadr korpusu yaradıldı. Sovet dövründə əldə edilmiş nailiyyətlər gələcəkdə müstəqil Azərbaycan dövlətinin qurulması üçün əsaslı zəmin yaratdı. Məhz bu illərdə Heydər Əliyev Vətəni – Azərbaycanı yük-

səkliklərə qaldırmaqla yanaşı özü də zəngin idarəçilik və dövlətçilik təcrübəsi toplayaraq dünyanın görkəmli siyasi və dövlət xadimlərindən birinə çevrildi.

Heydər Əliyev harada çalışmasından asılı olmayaraq həmişə xalqına, Vətəninə sədaqətlə qulluq etmiş, doğma Azərbaycanla heç vaxt əlaqələrini kəsməmişdir. O, Moskvada SSRİ rəhbərliyində təmsil olunduğu dövrdə də respublikanın inkişafı üçün əlindən gələni əsirgəmirdi. Siyasi Olimpin Kreml zirvəsini fəth etmiş Heydər Əliyev çox qısa bir vaxtda idarəçilik və dövlətçilik məharəti nümayiş etdirərək SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi ona həvalə olunmuş bütün sahələr üzrə irəliləyişə nail oldu. Bu onun xarizmatik şəxsiyyəti və özünəməxsus fərdi keyfiyyətləri ilə bağlı idi.

Bu istedadlı dövlət xadiminin fəaliyyəti təkcə Sovetlər İttifaqında deyil, hətta onun hüdudlarından kənarda da geniş əks-səda doğurmuşdur. Heç də təsadüfi deyildir ki, xarici mətbuatda onu **"Sovetlərin dəmir müsəlman rəhbəri", "Kremldəki türk"** kimi dəyərləndirirdilər.

Azərbaycanı parçalamaq, etnik münaqişəyə cəlb etmək məqsədi ilə tezliklə qondarma Dağlıq Qarabağ problemi ortaya atıldı. Xalq öz haqlı etiraz səsini qaldıraraq azadlıq istəyini bəyan edəndə isə Qanlı 20 Yanvar faciəsi törədildi. Bakı küçələrində əliyalın əhalinin üzərinə sovet tankları yeridildi. O faciəli günlərdə Heydər Əliyev yenə xalqı ilə birlikdə olduğunu sübut etdi. Respublikanın Moskvadakı daimi nümayəndəliyinə gələrək Mərkəzin və Azərbaycan rəhbərliyinin xəyanətkar mövqeyini ifşa edən bəyanat verdi. Bu cəsarətli siyasi bəyanat təkcə Azərbaycanda deyil, həm də bütün keçmiş SSRİ-də yeni siyasi eranın başlanğıcı oldu.

1991-1992-ci illərdə cəbhə xəttində vəziyyət günü-gündən kəskinləşirdi. Artıq Xocalı faciəsi baş vermiş, xəyanət nəticəsində Şuşa və Laçın düşmənə təslim edilmişdi. Yaranmış vəziyyətdən istifadə edən Xalq Cəbhəsi parlamentin binasına hücum çəkərək hakimiyyəti zorla ələ aldı. Ancaq cəbhəçilərin səriştəsizliyi ucbatından daxili və xarici siyasətdə buraxılan səhvlər onsuz da mürəkkəb olan vəziyyəti daha da gərginləşdirdi.

Bu hakimiyyət də əvvəlki iqtidar kimi Heydər Əliyevin nüfuzuna qısqanclıqla yanaşır, hər vəchlə onu respublikada baş verən siyasi proseslərdən təcrid etməyə cəhd göstərirdi. Ancaq xalqın taleyinə biganə qala bilməyən ziyalılar, sadə zəhmət adamları başa düşürdülər ki, ölkəni gözləyən fəlakətlərdən ancaq Heydər Əliyev müdrikliyi xilas edə bilər. Bu məqsədlə onlar "Səs" qəzetində "Azərbaycan Sizin sözünüzü gözləyir" adlı müraciətlə çıxış edərək Heydər Əliyevin rəhbərliyi altında yeni bir siyasi partiyanın yaradılması barədə görkəmli dövlət xadiminə müraciət etdilər.

Bundan qorxuya düşən Xalq Cəhbəsinin silahlı qüvvələri 1992-ci il oktyabrın 24-də Naxçıvanda çevriliş etməyə, Heydər Əliyevi tutduğu vəzifədən devirməyə cəhd göstərdilər. Heydər Əliyev xalqın dəstəyinə arxalanaraq dövlətçiliyə balta vurmaq istəyənlərin məkrli niyyətlərinin qarşısını aldı. Sonralar o, siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında silahlı müxalifət tərəfindən növbəti dəfə belə cəhdlər olunacaqdı. Ancaq xalq yenə də Heydər Əliyevlə birlikdə öz kövrək addımlarını atmaqda olan müstəqil dövlətinin keşiyində möhkəm dayandığını bir daha nümayiş etdirdi.

Bu dövrdə respublikada separatçılıq meylləri tüğyan edir, o dövrki hakimiyyətin "milli qəhrəmanı" Surət Hüseynov qoşunları cəbhə xəttindən çəkərək iqtidara meydan oxuyurdu. Hadisələri düzgün qiymətləndirə bilməyən rəhbərlik, əhali arasında günbəgün öz nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

1993-cü ilin iyunun 4-də iqtidarın fərsizliyi ucbatından Gəncədə qardaş qanı töküldü. Hadisələrin ertəsi günü - iyunun 5-də Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Ali Məclisi hadisə ilə əlaqədar bəyanat verdi. Bəyanatda qəhrəman Cavad xanın nəvələri - gəncəlilərə müraciət edilərək onların imperiya nökərlərinə layiqli cavab verəcəklərinə, müstəqilliyimizi və gənc Azərbaycan dövlətini qoruyub saxlayacaqlarına böyük inam ifadə olunurdu.

Bakı isə hələ də susurdu. Əksinə, səriştəsizlik, bəd əməlləri ucbatından özlərini itirmiş yuxarı dairələrdə qədim Gəncə əhalisinin köçürülməsi, şəhərin bombardman edilməsi barədə sərsəm fikirlər səslənirdi. İyunun 8-də isə Əbülfəz Elçibəyin Milli Məclisdəki məntiqsiz çıxışı və AXC-nin bəyanatı hamını sarsıtdı. Bu düşünülməmiş avantürist hərəkətlərin məntiqi nəticəsi kimi Gəncə elliklə ayağa qalxdı. Vəziyyətin ciddiliyini nəzərə alan siyasi partiyalar, cəmiyyətlər və digər təşkilatlar iqtidara qarşı etiraz bəyanatı imzaladılar.

O günlərdə Gəncədə aramsız mitinqlər keçirilirdi. Bu mitinqlərdə şəhər əhalisi ölkəni vətəndaş müharibəsinə sürükləyən respublika rəhbərliyinin istefasını və Gəncə hadisələrinə siyasi qiymət verilməsini qətiyyətlə tələb edirdi. İqtidar çaşqınlıq içərisində idi. Belə bir mürəkkəb vəziyyətdə iflasa uğradıqları ilə barışmalı olan cəbhəçilər də vəziyyətdən

çıxış yolunu xalqın istəyi ilə razılaşaraq Heydər Əliyevin Bakıya dəvət edilməsində görürdülər. Dövlətçiliyimizin müqəddəratının həll olunduğu belə bir məqamda Heydər Əliyevin xalqın təkidli tələbini nəzərə alaraq Bakıya gəlişi respublika əhalisində böyük ümidlər yaratdı.

İyunun 15-də Heydər Əliyev xalqın yenilməz iradəsi ilə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Heydər Əliyevin ölkənin Ali Qanunvericilik orqanına sədr seçilməsi respublika həyatında cox mühüm bir hadisə oldu. Bu siyasi qayıdış, sözün həqiqi mənasında, Azərbaycanı azərbaycanlılara, milləti özünə qaytardı. Hadisələrin sonrakı gedişi göstərdi ki, 15 iyun Azərbaycanın müstəqillik tarixində yeni siyasi eranın başlanğıcı oldu !

Onun heyrətamiz xilaskarlıq missiyası nəticəsində Azərbaycan tezliklə təlatümlərindən, sarsıntılardan uğurla çıxaraq gələcəyə, inamla baxan bir dövlətə çevrildi. Heç də təsadüfi deyildir ki, müstəqil Azərbaycanın parlamenti Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı gününü özünün 1997-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan xalqının Milli Qurtuluş günü elan etmişdir.

Əslində Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması müstəqil Azərbaycanı məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, “ömrümün qalan hissəsini də xalqıma qurban verirəm” deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi.

Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ilə qoca Qafqazın bu bölgəsində yeni bir siyasi dövr, yeni təfəkkür mərhələsi başlandı. Məhz bu yeni dövr Azərbaycanın XXI əsrə hüquqi, demokratik dövlət kimi adlamasına əsaslı təminat yaratdı.

Ulu öndər cəmiyyətdə demokratik dəyərlərin bərqərar olması üçün siyasi, iqtisadi, sosial, hüquqi islahatların həyata keçirilməsini çox önəmli hesab edirdi. Bu məqsədlə o, ölkənin yeni Konstitusiya layihəsinin hazırlanmasını ən vacib vəzifələrdən biri kimi qarşıya qoydu.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiya gərgin fəaliyyətə başladı. Komissiyanın 1995-ci il 5 iyun tarixli ilk iclasında Heydər Əliyev komissiyanın qarşısında duran vəzifələr haqqında belə demişdi: «Komissiyanın qarşısında çox böyük iş durur. Biz gərək həm tarixi keçmişimizi, həm son illərin təcrübəsini təhlil edək və müstəqil Azərbaycan dövləti üçün uzunmüddətli bir Konstitusiya layihəsi hazırlayaq. Güman edirəm ki, biz bu işin öhdəsindən gələcəyik və qarşımıza qoyulan bu vəzifəni layiqincə həyata keçirəcəyik. Komissiyamızın üzərinə düşən məsuliyyət böyükdür. Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun».

Beləliklə də, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizin siyasi tarixində tamamilə yeni bir səhifə açaraq hüquqi, demokratik, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğunun, bazar iqtisadiyyatının bərqərar edilməsinin möhkəm təməlini yaratdı. Bəşər tarixində mövcud olan ən demokratik, mütərəqqi müddəaları özündə əks etdirən Konstitusiyamız cəmiyyətin yeni inkişaf modelinin müəyyənləşdirilməsi üçün hüquqi əsas yaratdı. Bununla da Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, vətəndaş cəmiyyəti elementlərinin bərqərar edilməsi baxımından tariximizin ən məhsuldar dövrlərindən birinin başlanğıcı qoyuldu.

İlk milli Konstitusiyamız bu həqiqəti bir daha nümayiş etdirdi ki, Heydər Əliyev nəinki dünya miqyaslı siyasi və dövlət xadimi, həm də zamanın nəbzini dəqiq tutmağı bacaran böyük islahatçıdır. Ulu öndər birləşdirilməsi nadir hallarda mümkün olan üç amili – milli ənənələr, modernləşmə və adekvat demokratiya amillərinin vəhdətinin Azərbaycan üçün uğurlu modelini qura bildi və bu dəyərlər sistemi sonrakı islahatlar strategiyası üçün misilsiz əhəmiyyətə malik oldu.

Ölkənin əsas qanununun tələblərindən irəli gələn hərtərəfli islahatların aparılması məqsədi ilə Heydər Əliyevin 1996-cı il 21 fevral tarixli sərəncamı ilə Hüquq İslahatları Komissiyası yaradıldı. Onun rəhbərlik etdiyi bu komissiya dövlətimizin hüquq bazasının yaradılmasında, möhkəmləndirilməsində və inkişaf etdirilməsində, ölkəmizin hüquq sisteminin Avropanın kontinental hüquq sistemi ilə inteqrasiyasının reallaşmasında vacib rol oynadı.

Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycanda geniş miqyaslı siyasi, iqtisadi, sosial, hüquq islahatları həyata keçirildi, cəmiyyətdə demokratik dəyərlərin möhkəmləndirilməsi yolunda lazımi addımlar atıldı, dəfələrlə azad və ədalətli prezident, parlament və bələdiyyə seçkiləri keçirildi. Azərbaycanda çoxpartiyalı, plüralist parlament quruldu. Siyasi partiyaların və qeyri-hökumət təşki-

latlarının fəaliyyəti üçün hər cür şərait yaradıldı. Kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti, məlumat azadlığı təmin edildi.

Azərbaycanda yeni hüquqi sistemin yaradılması istiqamətində Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis bir çox mühüm qanunvericilik aktları qəbul etdi. Burada ilk növbədə yeni məcəllələrin - Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, İnzibati Xətalar, Cəzaların İcrası, Seçki, Əmək, Ailə, Vergi, Gömrük və digər məcəllələrin qəbulu xüsusi qeyd edilməlidir. Ümumiyyətlə, ölkədə siyasi, iqtisadi, sosial və hüquq islahatlarının qanunvericilik mexanizminin yaradılmasına və təkmilləşdirilməsinə yönəldilən 1.500-ə qədər qanun, qərar və digər aktlar ümummilli liderimizin imzası ilə parlamentə təqdim edildi və geniş müzakirələrdən sonra qəbul edildi. Bütün bu aktlar Azərbaycanın demokratik yolla ardıcıl inkişafı, hüquqi dövlət quruculuğu üçün bütün təminatları yaratdı.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar hüquq-mühafizə orqanları sistemini yenidən formalaşdırmağa imkan verdi. Bu istiqamətdə aparılmış islahatlar nəticəsində insan hüquqlarına və azadlıqlarına təminatın başlıca mexanizmi olan məhkəmələrə müstəqillik verildi, həmin sahədə qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması üçün lazımi tədbirlər həyata keçirildi. 1998-ci ildə ümummilli liderimizin təşəbbüsü ilə Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzası ləğv edildi və bu barədə Milli Məclisdə müvafiq qanun qəbul olundu.

Ölkədə aparılan islahatlar sayəsində Azərbaycan insan və vətəndaş hüquqları və azadlıqları ilə bağlı bir sıra konvensiyalara qoşuldu. Ölkəmiz mötəbər beynəlxalq təşkilatların tam hüquqlu üzvü oldu, beynəlxalq münasibətlər sistemində layiq olduğu yerini tutdu.

Bu gün Heydər Əliyev mənəvi-siyasi irsinin ən layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan çağdaş tarixinin yeni şanlı səhifələri yazılır. Cənab İlham Əliyev bütün sahələrdə Heydər Əliyev ideyalarının layiqli davamçısı olduğunu hələ prezident seçilməmişdən əvvəl də ulu öndərimizin müəllifi olduğu yeni neft strategiyasının həyata keçirilməsinə, Milli Məclisin deputatı və Azərbaycan parlamentinin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri kimi beynəlxalq təşkilatlarla əlaqələrimizin inkişafına, Azərbaycan idmanının yüksəlişinə verdiyi töhfələrlə sübuta yetirmişdir.

2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimində cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin dövlətçilik irsinə sədaqət andı içərək demişdir: **“Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm.”**

Bu gün Heydər Əliyev cismən aramızda olmasa da ölkəmizi işıqlı sabahlara aparan bəşəri ideyaları ilə xalqımızın qəlbində yaşayır. Azərbaycanın yeni mərhələdə dinamik sosial-iqtisadi inkişafı, ölkəmizin dünya birliyində öz yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyev ideyalarının yaşamasının, ümummilli liderin siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir.

Ulu öndərin müəllifi olduğu zəngin idarəçilik fəlsəfəsinə sadiq qalan cənab İlham Əliyev Prezident kimi fəaliyyət göstərdiyi dövrdə ölkəmizdə sosial-iqtisadi yüksəlişə, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinə layiqli töhfələr vermiş, Azərbaycan Cənubi Qafqazın lider ölkəsinə çevrilmişdir. Prezident İlham Əliyevin istənilən məsələyə yaradıcı münasibət bəsləməsi, yeni müstəvidən yanaşması, siyasi-ictimai və geosiyasi reallıqları, iqtisadi-hərbi prosesləri, ideoloji-etnik problemləri mövcud siyasi kursun işığında yenidən dəyərləndirməsi Onun yeni mərhələdə Azərbaycanın və cəmiyyətimizin müasirləşdirilməsinin baş memarı və novator dövlət xadimi kimi qüdrətli LİDER olmasını isbatlayır. Məhz, bu səbəbdən də 11 aprel 2018-ci ildə Azərbaycan Respublikasında keçirilən Prezident seçkilərində Azərbaycan xalqının seçimi cənab İlham Əliyev olmuşdur.

Tale elə gətirmişdir ki, işıq dolu, bahar təravətli, gözəl may günlərində mübarizələrlə dolu şanlı tarixə malik xalqımız iki böyük bayramı – ulu öndərin 95 illik yubileyini və Şərqdə ilk Cümhuriyyətin yaranmasının 100 illiyini qeyd edir. Bunun özündə isə bir rəmzi məna vardır. Ötən əsrin əvvəlində Xalq Cümhuriyyətini obyektiv və subyektiv səbəblər ucbatından qoruyub saxlamaq mümkün olmamışdısa da, XX əsrin sonunda xalqımız Heydər Əliyev dühası işığında bu müqəddəs istəyinə nail oldu, müstəqilliyinin əbədiliyini və dönməzliyini təmin edə bildi. Bu tarixi nailiyyətə görə qədirbilən xalqımız öz Böyük oğluna hər zaman minnətdardır.

**Elçin Məmmədov,**
*Lənkəran rayon prokuroru,*
*baş ədliyyə müşaviri*
“Lənkəran” qəzeti, 30 aprel 2018-ci il

# Müstəqil Azərbaycan dövlətçiliyinin banisi

*"Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam."*

**Heydər Əliyev**

Qədim və keşməkeşli tarixə malik Azərbaycan xalqı əsrlər boyu öz müstəqilliyi və dövlətçiliyi uğrunda mübarizə aparıb. Zəngin təbii sərvətlərinə, əlverişli geosiyasi mövqeyinə görə vətənimiz daim güclü dövlətlərin təzyiqlərinə, hərbi təcavüzünə məruz qalıb. Bununla belə, xalqımız öz mövcudluğunu qoruyub saxlaya bilib, ən qüdrətli düşmən ordularına qarşı mübarizədə hünər, qəhrəmanlıq nümunələri göstərib. Cavanşir, Babək, Şah İsmayıl Xətai kimi sərkərdə və dövlət xadimləri Azərbaycanın dövlətçilik tarixinin bütöv bir salnaməsini yaradıblar. Bu şəxsiyyətlərin şanlı ömür və fəaliyyət yolu xalqımızın vətənpərvərlik hisslərini gücləndirib, müstəqillik və dövlətçilik təcrübəsini zənginləşdirib, həyatımızın ən vacib, ən ümdə məqsədinə çevrilib. Onların yaratdığı dövlətçilik ənənələri yüzilliklər boyu, o cümlədən XX əsr ərzində uğurla davam və inkişaf etdirilib. Ötən əsrin II yarısında bu müqəddəs missiyanı ümummilli liderimiz Heydər Əliyev həyata keçirib. Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir. 1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqrad şəhərində (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir. 1990-cı ilin 20 Yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edən Heydər Əliyev Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir. 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi

təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Bu gün cəsarətlə demək olar ki, Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyini yetişdirmiş, qabaqcıl, demokratik Azərbaycan Respublikası səviyyəsinə gətirmişdir. Ulu öndər Tanrı tərəfindən ona verilən ömrü xalqına, milli dövlətçiliyin inkişafına həsr etmişdir. Bu dahi şəxsiyyət insanı ucaldan amallarla, xalqını yaşadan arzularla, xoşbəxt gələcəyimizə aparan bəşəri ideyalarla yaşayır və mübarizə aparırdı. Onun qeyri-adi zəkasına, mənəvi dünyasına, fenomenal yaddaşına, dəmir məntiqinə, tükənməz enerjisinə dünyanın tanınmış siyasi liderləri, ölkə başçıları heyrət edirdilər. Heydər Əliyev, sözün əsl mənasında, böyük dövlətçi, mahir diplomat idarəçilik ustadı idi. Belə ki, 1993-cü il oktyabrın 3-də prezident seçilən ulu öndər qısa bir müddət ərzində vətəndaş müharibəsinin, ölkənin parçalanmasının qarşısını aldı. 1994-cü ilin may ayında atəşkəsin əldə edilməsi ilə ordu quruculuğu, dövlət təsisatlarının yaradılması, iqtisadiyyatın dirçəldilməsi, xaricdən olan təzyiqləri azaltmaq, beynəlxalq əlaqələri möhkəmlətmək, hərbi müxalifəti zərərsizləşdirmək, sabitliyə və vətəndaş həmrəyliyinə, bir sözlə, Azərbaycanın tam müstəqilliyinə nail olmaq üçün imkan yaranmış oldu. Ölkə daxilində siyasi sabitliyin yaranması, keçmiş SSRİ respublikaları ilə pozulmuş əlaqələrin bərpasına, yaranmış dərin iqtisadi böhranın tədricən aradan qaldırılmasına imkan verdi. Bazar iqtisadiyyatının inkişafına, sərmayələrin cəlb olunmasına aid mühüm qərarlar qəbul edildi, əsaslı islahatlar həyata keçirilməyə başlandı. Xarici sərmayələrin cəlb olunması üçün neft strategiyası işlənib hazırlandı və müvəffəqiyyətlə həyata keçirilməyə başladı. 1994-cü il sentyabrın 20-də dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi"imzalandı.

Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətləri sırasında müstəqilliyin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində görülən əsas işlərdən biri kimi dövlət quruculuğunun hüquqi bazasının yaradılması qeyd olunmuşdur. 1995-ci ildə qəbul olunmuş ilk konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoymuşdur. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasını yaratdı, bu sahədə dövlət müstəqilliyinin prioritet istiqamətləri müəyyənləşdi və həyata keçirilməsi yolunda istinad mənbəyi rolunu oynadı.

Məhz Azərbaycan Respublikasının 1995-ci ildə ümumxalq səsverməsi – referendumda qəbul olunmuş Konstitusiyası ilə prokurorluq orqanlarına konstitusion status verilərək Azərbaycan Respublikasının Prokurorluğuna xüsusi maddə həsr edilmiş, bu mühüm təsisatın dövlət idarəetmə sistemində yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyən edilmişdir. Ulu öndər Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamına əsasən hər il oktyabr ayının 1-i prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunur. Ümummilli lider Heydər Əliyevin milli prokurorluq orqanlarının formalaşması istiqamətindəki fəaliyyət çərçivəsində həyata keçirdiyi sistemli və ardıcıl islahatlar, formalaşmış zəruri müvafiq normativ hüquqi baza, struktur yeniləşməsi, prokurorluğa qanunvericilik təşəbbüsü hüququnun verilməsi və digər məqsədyönlü tədbirlərin nəticəsidir ki, bu gün prokurorluq orqanları insan və vətəndaş hüquq və azadlıqlarını rəhbər tutaraq qanun pozuntularına, cinayətkarlığın bütün təzahürlərinə qarşı mübarizənin gücləndirilməsi, dövlətçiliyin qorunması istiqamətində prokurorluq işçisinin şərəf və ləyaqətini uca tutaraq səylə çalışır, cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq nümayiş etdirirlər. Bütün bunlar məhz "Azərbaycan Prezidenti kimi, mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram." - söyləyən ümummilli liderin prokurorluq orqanlarına dərin etimadı və qayğısı nəticəsində mümkün olmuşdur.

**Azad Qarayev,**
*Mingəçevir şəhər prokuroru,*
*baş ədliyyə müşaviri*
"Mingəçevir" qəzeti, 4 may 2018-ci il

# Təkmilləşmə, inkişaf və müasirləşmə

*Müstəqil dövlətimizin müasir prokurorluğu ümummilli lider Heydər Əliyev tərəfindən prokurorluğa göstərilən ən yüksək qayğının və hərtərəfli dəstəyin təcəssümüdür*

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışından sonra ölkəmizdə dövlət təsisatlarının yaradılıb möhkəmləndirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, köklü siyasi, iqtisadi, sosial, məhkəmə-hüquq və digər islahatların aparılması istiqamətində qətiyyətli addımlar atılmış, güclü və zamanın çağırışlarına cavab verən müasir dövlətin yaradılması təmin edilmişdir.**

Ümummilli lider Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-i prokurorluq orqanları əməkdaşlarının peşə bayramı günü elan olunmuş, bu əlamətdar hadisə fəaliyyətimizə verilən yüksək qiymətin təcəssümü kimi tarixilik qazanmışdır. Bu reallıq Azərbaycan Prokurorluğunun cəmiyyətdə və dövlət təsisatları sırasında olan yerini müəyyənləşdirməklə prokurorluğa dövlət səviyyəsində göstərilən qayğının və hərtərəfli dəstəyin təzahürü kimi hər bir əməkdaşımızda böyük qürur hissi doğurur.

Milli prokurorluq orqanlarının əsası 1918-ci ilin oktyabr ayının əvvəlindən qoyulsa da, bu qurumun ən mühüm dövlət təsisatlarından birinə çevrilməsi, məhkəmə hakimiyyətinə aid olmaqla konstitusion statusa malik, ölkənin hüquq sistemində vacib rolu olan və demokratik cəmiyyətdə özünəməxsus yer tutan sivil bir orqan kimi təşəkkül tapması məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi altında başlanan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam etdirilən məhkəmə-hüquq islahatları və hərtərəfli dövlət qayğısı nəticəsində mümkün olmuşdur.

Müasir dövrdə Azərbaycan Respublikası Prokurorluğu orqanları tərəfindən daxili işlər, ədliyyə, məhkəmə və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsi təmin olunur. Prokurorluq orqanlarının bütün səyləri, ilk növbədə, dövlət başçısının rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, müasir məzmunlu islahatların eyni intensivliklə davam etdirilməsinə, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsinə, yeni iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılmasına, möhkəm nizam-intizam yaradılmaqla neqativ təzahürlərin vaxtında aradan qaldırılmasını təmin edən işlək nəzarət mexanizminin yaradılmasına istiqamətləndirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" bu dövlət orqanının müasir dövrün yüksək tələbləri səviyyəsində təkmilləşdirilməsində xüsusi əhəmiyyətə malik olmuşdur.

Azərbaycan Prokurorluğunun tarixində yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşmə dövrünün əsasını qoymuş bu mühüm dövlət sənədinin icrası ilə əlaqədar həyata keçirilmiş tədbirlər nəticəsində hüquqi dövlət quruculuğunda və hüquq sisteminin inkişafında, qanunçuluğun, cəmiyyətin və dövlətin maraqlarının qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində prokurorluğun rolu artmışdır. Eyni zamanda onun fəaliyyətində şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulmasına, müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməklə ən son informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqinə, prokurorluq orqanlarının işinin onun qarşısında dayanan vəzifələrə və tələblərə uyğun olaraq yüksək səviyyədə qurulmasına, ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində və dövlət ittihamının müdafiəsində peşəkarlığın artırılmasına, vətəndaşların müraciətlərinə daha həssas və diqqətli yanaşılmasına nail olunmuşdur.

Ötən dövr ərzində korrupsiyaya qarşı mübarizə prokurorluğun fəaliyyətinin ən vacib və önəmli istiqamətini təşkil etmişdir. Məlum olduğu kimi, korrupsiyaya qarşı daha effektli əks təsirin həyata keçirilməsi həmin istiqamətdə görülən tədbirlərin kompleks xarakterli, ardıcıl və hərtərəfli olmasını, dövlət idarə və müəssisələrinin fəaliyyətində aşkarlığın və şəffaflığın artırılmasını, görülən işlər və əldə edilən nəticələr barədə ictimaiyyətin mütəmadi olaraq məlumatlandırılmasını, əhaliyə göstərilən xidmətlərin elektron vasitələrlə həyata keçirilməsinin təşkilini, xidmətlərin göstərilməsi prosedurunun sadələşdirilməsini, vətəndaşların elektron vasitələrlə informasiya almaq imkanlarının genişləndirilməsini, neqativ hallarla mübarizədə ictimaiyyətin köməyindən daha geniş istifadə

edilməsini, cəmiyyətdə korrupsiyaya qarşı dözümsüzlüyün möhkəmləndirilməsini şərtləndirir. Qeyd olunan amillər nəzərə alınmaqla respublikamızda korrupsiyaya qarşı əks təsirin gücləndirilməsi istiqamətində son dövrlər həyata keçirilən daha ardıcıl və müfəssəl tədbirlər, hərtərəfli hazırlanmış təşkilati, institusional və hüquqi islahatlar bu bəlanın aradan qaldırılması sahəsində ciddi uğurların əldə edilməsinə zəmin yaratmışdır.

Prokurorluq orqanlarında şəffaflıq və açıqlıq prinsiplərinə diqqət yetirilməsi "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında nəzərdə tutulmuş məqsədlərlə yanaşı, Azərbaycan Respublikası Prezidentinin "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 27 aprel 2016-cı il tarixli sərəncamının müddəalarından irəli gəlir.

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi sosialyönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə daim diqqət və qayğı göstərilməklə daxil olan ərizə və şikayətlərə həssaslıqla yanaşılır, əhalinin qəbulu məsələlərinə xüsusi önəm verilir.

Həyata keçirilən məqsədyönlü tədbirlər prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin demokratik cəmiyyətdə təşəkkül tapmış prinsip və standartlara uyğunlaşdırılması, prokurorluğun bu sahədə fəaliyyətinin təkmilləşdirilməsi, operativliyin, aşkarlığın və yol verilən qanun pozuntularına vaxtında reaksiya verilməsinin təmin edilməsi baxımından olduqca önəmli olmuşdur.

Humanizim prinsipinin təntənəsi olaraq Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 10 fevral 2017-ci il tarixli sərəncamına uyğun olaraq cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi və cəza siyasətinin liberallaşdırılması məqsədilə sistemli və genişmiqyaslı tədbirlər həyata keçirilmişdir.

Hazırda Baş Prokurorluq və tabe prokurorluqlar tərəfindən 10 fevral 2017-ci il tarixli sərəncamdan irəli gələn tövsiyə və tapşırıqların icrası məqsədilə təxirəsalınmadan bütün zəruri tədbirlərin görülməsi təmin edilir.

Qeyd edildiyi kimi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması prokurorluq orqanlarının başlıca məqsədlərindən biri kimi müəyyən edilmişdir. 2002-ci ildən başlayaraq Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə tam aşkarlıq şəraitində və şəffaf prosedurlar əsasında, dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları və beynəlxalq təşkilatlar, eləcə də kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə prokurorluq orqanlarına qulluğa qəbulla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 10 və Naxçıvan Muxtar Respublikasının Prokurorluğu üzrə 7 müsabiqə keçirilmişdir.

2016-cı ildə prokurorluq orqanlarına qulluğa qəbulla bağlı elan edilmiş sayca 17-ci müsabiqədə iştirak etmək məqsədilə sənədlərini təqdim etmiş gənc hüquqşünaslardan 117-si prokurorluqda qulluğa qəbul edilmişlər. Hazırda 2002-ci ildən keçirilmiş müsabiqə yolu ilə qulluğa qəbul edilmiş işçilər prokurorluğun kadr korpusunun 63 faizini təşkil edir.

Hazırda 60 vakant yer üzrə işə qəbul müsabiqəsi uğurla davam etdirilir.

İnformasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi və elektron sənəd dövriyyəsi sisteminə keçid müasir dövrün ən vacib tələblərindən biri olmaqla hər bir dövlət qurumunun və təsisatının təkmilləşdirilməsini və inkişafını şərtləndirən hal olduğundan Azərbaycan Respublikası Prokurorluğunda bu məsələlərə xüsusi önəm verilmişdir.

Bu məqsədlə hazırda prokurorluq orqanlarında "Elektron Sənəd Dövriyyəsi" Proqramı uğurla tətbiq edilir və 2012-ci ilin ilk günlərindən Baş Prokurorluğa daxil olan bütün sənədlərin hərəkəti həmin Proqram vasitəsilə həyata keçirilir.

Eyni zamanda, "Azərbaycan Respublikasında qeydə alınmış cinayət xarakterli məlumatlar üzrə cinayət təqibinin nəticələrinə dair" ("Elektron Cinayət") sisteminin yaradılması prosesi uğurla başa çatdırılmışdır. "Elektron Cinayət" sistemində cinayət işi üzrə təqibin həyata keçirilməsinin bütün mərhələləri, cinayət haqqında məlumat daxil olduğu andan iş üzrə cinayət prosesi başa çatanadək, o cümlədən bütün istintaq və prosessual hərəkətlər, işin gedişatı, işlə bağlı qəbul edilmiş məhkəmə və istintaq orqanlarının qərarları tam və ardıcıl olaraq əks olunur. Bu elektron sistem prokurorluq orqanlarının müvafiq sahədə fəaliyyətinin daha yüksək keyfiyyət müstəvisində həyata keçirilməsinə və iş vaxtının daha səmərəli istifadəsinə imkan yaratmışdır.

Sonda qeyd edilməlidir ki, Azərbaycan Respublikası Prokurorluğu orqanlarının tərkib hissəsi kimi Qusar rayon prokurorluğu tərəfindən «Prokurorluq haqqında» Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə rayonda qanunun aliliyinin, cinayətkarlığa qarşı effektiv mübarizənin təmin edilməsi, ictimai asayişin, sabitliyin qorunması, vətəndaşların hüquqlarının təmin olunması, pozulmuş hüquqların bərpa edilməsi məqsədilə digər hüquq-mühafizə orqanları ilə birgə zəruri işlər görülür.

Qusar rayon prokurorluğunun əməkdaşları digər prokurorluq işçiləri kimi bundan sonra da üzərlərinə düşən bütün vəzifələri keyfiyyətlə yerinə yetirəcək, vətənimizə, xalqımıza və dövlətimizə sədaqətlə xidmət etməklə fəaliyyətlərini qanunvericiliyin və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi tələblər səviyyəsində quracaq, insan hüquq və azadlıqlarının müdafiəsində, rayonda ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunmasında, cinayətkarlığa qarşı mübarizənin aparılmasında yeni nailiyyətlər əldə edəcəklər.

**Mübariz Əhmədov,**
*Qusar rayon prokuroru,*
*ədliyyə müşaviri*
"Qusar" qəzeti, 25 aprel 2018-ci il

# Azərbaycan inkişaf strategiyasında Heydər Əliyev irsi

Fəlsəfə və tarix elmlərində dahi şəxsiyyətin tarixi hadisələrə, ümumən tarixin gedişatına təsiri ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəziləri şəxsiyyətin tarixə təsirinin yalnız münbit şərait olduğu halda mümkün olmasını, bəziləri şəxsiyyətin ümumiyyətlə tarixə hər-hansı təsir imkanına malik olmadığını bildirir.

Lakin, dünya tarix boyu bir çox dahi şəxsiyyətlərə onların, xalqların və cəmiyyətlərin inkişafına verdikləri ölçüyəgəlməz töhfələrə şahidlik etmişdir.

İngilis filosofu Tomas Karleyl «Qəhrəmanlar və qəhrəmanlıq tarixdə» əsərində birmənalı şəkildə sübut edir ki, dünya tarixi dahi şəxsiyyətlərin bioqrafiyasıdır. Tomas Karleylin gəldiyi qənaətinə görə cəmiyyət zəiflədiyi vaxtda gizli dağıdıcı kütlə qüvvələri əmələ gələrək, cəmiyyətin əsl qəhrəmanları üzə çıxana qədər fəaliyyət göstərə bilir.

Amerika filosofu S.Xuk «Qəhrəmanlar tarixdə. Qədər və imkanların tətqiqatı» əsərində qeyd etmişdir ki, bir tərəftən şəxsiyyətin fəaliyyəti cəmiyyətin xarakteri və ətrafın şəraiti ilə məhdudlaşsa da, digər tərəfdən şəxsiyyətin rolu cəmiyyətdə alternativ yollar əmələ gələrkən yüksəlir və məhz dahi şəxsiyyət həm alternativin əmələ gəlməsini, həmçinin alternativ yollarının seçimini şərtləndirir.

Tarixdə elə insanlar var ki, onların əzəmətini heç bir sözlə ifadə etmək mümkün deyil. Həmin dahi şəxsiyyətlərin qurub yaratdıqları və miras qoyduqları dövlətçilik ənənələri, dünyanın siyasi arenasındakı yerini müəyyənləşdirmişdir. Belə şəxsiyyətlər tarixdə dahi, öndər, lider kimi öz layiqli yerini tutmuşlar.

Xalqına arxalanan, amalı xalqına xidmət etmək olan, xalq üçün quran, yaradan insanlar xoşbəxt insanlardır. Onlar millətin taleyini müəyyən etmək məsuliyyətinin nə demək olduğunu dərindən anlayır, bu məsuliyyəti ləyaqətlə daşıyır, həyatda xoşbəxtliyi ancaq gələcək nəsillərin şərəfi, varlığı və firavanlığı üçün çalışmaqda görürlər. Belə insanlar tək-tək olur, bəlkə də yüz ildə bir dəfə dünyaya gəlirlər. Ulu öndər Heydər Əliyev də Ulu Tanrının Azərbaycan xalqına bəxş etdiyi dühalardandır. O, parlaq zəkasının, sarsılmaz iradəsinin, tükənməz enerjisinin sayəsində ucalmış, ümumilli lider səviyyəsinə qalxmışdır. Heç də təsadüfi deyildir ki, dünyanın böyük siyasətçiləri, dövlət və elm xadimləri ulu öndər Heydər Əliyevi "canlı əfsanə" adlandırırdı.

Xalqımızın dahi oğlu, ulu öndər Heydər Əliyevin müqəddəs adı və möhtəşəm fəaliyyəti Azərbaycanın müstəqil dövlətçilik tarixinə qızıl hərflərlə həkk olunmuşdur.

Azərbaycan tarixinin ən qüdrətli dövlət xadimi, xalqımızın dünya siyasətinə bəxş etdiyi dahi və fenomen şəxsiyyət - ümummilli lider Heydər Əliyevin unudulmaz xatirəsi bütün zamanlarda xüsusi minnətdarlıq və ehtiramla yad edilir.

Özünün mənalı və şərəfli ömrünü Azərbaycan dövlətinə, xalqına xidmətə həsr etməklə əbədiyaşarlıq rəmzinə çevrilən dünyamiqyaslı nəhəng siyasətçi ulu öndər qədirbilən xalqımızın yaddaşında daima xilaskar və qurucu lider kimi anılacaq.

Azərbaycan xalqının böyük oğlu ulu öndər Heydər Əliyev yalnız bir dövləti idarə edən siyasi xadim, rəhbər deyil, o, həm də milyonlarla insanı ülvi ideallar ətrafında səfərbər edən bir dövlət qurucusu, müasir tariximizin memarı, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinin başladıcısı və idarəedicisi kimi xalqımızın dövlətçilik tarixində o qədər böyük yeniliklərə, o qədər böyük işlərə imza atıb ki, sadaladığımız titulların heç biri Onun titanik fəaliyyətini tam əhatə etmir.

Ötən əsrin 60-cı illərindən başlamaqla ölkəmizin 30 ildən artıq dövrünü əhatə edən ən yeni tarixi Heydər Əliyev dahi şəxsiyyətinin adı, onun müdrik dövlətçilik siyasəti ilə bağlı olmuşdur. Bu müddət ərzində ulu öndər tərəfindən həyata keçirilən möhtəşəm dövlətçilik tədbirlərinin nəticəsidir ki, azərbaycançılıq ideyası ətrafında birləşməklə, siyasi və iqtisadi müstəqilliyə nail olan xalqımız demokratik və hüquqi bir dövlətdə, ümumbəşəri dəyərlərə əsaslanan vətəndaş cəmiyyətində layiqli yaşamaq imkanı əldə etmişdir.

Müxtəlif siyasi quruluşların mövcudluğu şəraitində Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev şəxsiyyətinin böyüklüyü ondan ibarətdir ki, o, sovetlər dönəmində ölkəmizin gələcək müstəqilliyinin möhkəm iqtisadi əsaslarını yaratmaqla xalqımızı öz suverenliyi uğrunda mübarizəyə hazırlamağı bacarmışdır.

Doğma xalqına və millətinə təmənnasız xidməti həyatının mənası və məqsədi kimi qəbul edən, bu yolda mümkün olan bütün addımları atan Heydər Əliyev siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə müstəqil Azərbaycan dövlətçiliyinin formalaşdırılması və daha da möhkəmləndirilməsi uğrunda mübarizə meydanında olmuş və millətinə rəhbərlik etmişdir.

Ulu öndər Heydər Əliyev Azərbaycanın ən mürəkkəb və taleyüklü dövrlərində müstəqilliyə yenicə qədəm qoymuş dövlətə rəhbərlik missiyasını öz üzərinə götürüb, demokratik və hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi tədbirlər nəticəsində xalqımızın müstəqillik, azadlıq kimi ideyalarını tam reallaşdırıb, uzaqgörən siyasi qərarları, möhtəşəm dövlətçilik fəaliyyəti ilə özünə qədər Azərbaycana rəhbərlik etmiş bir çox siyasi xadimin edə bilmədiyini gerçəkləşdirmişdir. Ulu öndər Heydər Əliyev Azərbaycan torpağının və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışmış, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, demokratiyanın genişləndirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mümkün olan hər şeyi gerçəkləşdirib, öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində ölkəmizi sürətli inkişaf yoluna çıxararaq müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuş və bugünkü nailiyyətlərimizin əsasını qoymuşdur.

Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində iqtidarda olan antimilli və naşı qüvvələrin yeritdiyi yarıtmaz, bəzən xain siyasət nəticəsində ölkənin hər bir vətəndaşının arzuladığı hüquqi, demokratik və qüdrətli dövlətin yaradılması, sadəcə xoş bir istək, bir ideya olaraq qalmaqla yanaşı, Azərbaycanın dövlət olaraq mövcudluğu təhlükə altında qalmışdır. 1991-1993-cü illərdə Azərbaycanda iqtisadi tənəzzülün güclənməsi, siyasi böhranın dərinləşməsi və vətəndaş qarşıdurması nəticəsində ölkə parçalanma həddinə çatmış, Qanunçuluq, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində acınacaqlı vəziyyət yaranmışdır. Hakimiyyət böhranının yaşandığı və ölkədə anarxiyanın tüğyan etdiyi, ölkənin vətəndaş müharibəsi astanasında və dövlət müstəqilliyinin itirilməsi təhlükəsi qarşısında qaldığı bir zamanda - 1993-cü ilin iyununda - mürəkkəb siyasi şəraitdə xalqın səsinə səs verərək hakimiyyətə qayıdan Heydər Əliyev respublikanı milli müstəqilliyin itirilməsi təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur.

Ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyinin, misli görünməmiş qətiyyətliliyinin, prinsipiallığının və siyasi iradə nümayişinin nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi Azərbaycanın iqtisadi imkanlarının genişlənməsi ilə yanaşı, Azərbaycanda hüquqi islahatların yeni mərhələdə aparılmasına da geniş imkanlar açmışdır.

Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkədə vətəndaş cəmiyyəti quruculuğunun hüquqi əsaslarını yaratmış, ölkədə çoxpartiyalılıq əsasında demokratik parlament seçilmiş, söz, mətbuat, vicdan və sair azadlıqlar bərqərar olunmuş, hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapmış, zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmış, irqindən, cinsindən, milliyyətindən, dinindən, dilindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulmuşdur.

Konstitusiyanın qəbul edilməsi ilə ölkəmizdə məhkəmə-hüquq islahatlarının əsası qoyuldu. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyasında yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər öz əksini tapmışdır. Konstitusiyada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplər təsbit olunmuş, insan hüquq və azadlıqlarının müdafiəsi isə dövlət siyasətinin əsas istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin əsas məqsədi kimi müəyyən edilmişdir.

Ümummilli liderin rəhbərliyi dövründə Azərbaycanda məhkəmə–hüquq sisteminin müasirləşdirilməsi, bu kontekstdə insan və vətəndaş hüquq və azadlıqlarının maksimum dərəcədə müdafiəsi üçün çevik mexanizmlərin yaradılması, habelə qanunların aliliyinin təmin olunması həyata keçirilən mütərəqqi islahatların mühüm istiqamətini təşkil etmişdir.

Ölkəmizdə hüquqi islahatların həyata keçirilməsinin təmin edilməsi məqsədilə 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradılmışdır. Hüquqi islahatların davamı olaraq ölkəmizdə çoxsaylı müvafiq qanunların, habelə yeni münasibətlərə uyğun Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, Əmək, İnzibati Xətalar, Cəzaların İcrası və digər məcəllələrin qəbulu respublikamızda bu sahədə atılan addımların qətiyyətini daha da artırmış və ölkənin hüquq sisteminin formalaşması prosesinə böyük töhfə vermişdir.

Dövlət quruculuğu prosesində bütün məsələlərə xüsusi diqqətlə yanaşaraq hər bir strukturun fəaliyyətinə böyük diqqət göstərən ümummilli lider Heydər Əliyevin milli prokurorluq orqanlarının inkişafında müstəsna rolu olmuşdur. Ümummilli lider prokurorluq orqanlarının işinin təmin edilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılması məsələlərinə həmişə xüsusi qayğı göstərmişdir. Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyin maraqlarına, qanunun aliliyinin və insan və vətəndaş hüquqlarının müdafiəsinə xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunverici, maddi və sosial bazanın yaradılması ölkəmizdə həyata keçirilən möhtəşəm islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının memarı - ümummilli lider Heydər Əliyevin böyük qayğı və dəstəyi sayəsində mümkün olmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə hər il oktyabr ayının 1-nin Prokurorluq İşçilərinin Peşə Bayramı kimi qeyd edilməsi isə tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğa dövlət qayğısının ifadəsi, ölkəmizdə prokurorluğun roluna rəsmi münasibətin dövlət səviyyəsində təzahürüdür.

Ümummilli lider Heydər Əliyev 26 aprel 2000-ci il tarixdə respublika prokurorluğunun rəhbər işçiləri ilə keçirdiyi prokurorluq orqanlarının tarixində həlledici əhəmiyyətə malik dönüş nöqtəsi olmuş müşavirədə prokurorluq orqanlarında yaranmış qeyri-sağlam mühiti, vəzifədən sui-istifadə, istintaq zamanı ədalətsiz hərəkətlərə yol verilməsi, özəl sektorun inkişafı yolunda ciddi maneəyə çevrilən qanunsuz yoxlamaların keçirilməsi kimi neqativ halları kəskin tənqid etmiş və bu problemlərin aradan qaldırılması üçün qısa müddətdə ən sərt tədbirlərin görülməsini prokurorluğun yeni rəhbərliyinin qarşısında məsul vəzifə kimi müəyyənləşdirmişdir.

Prokurorluq işçiləri üçün taleyüklü əhəmiyyət daşıyan bu müşavirədən sonra Azərbaycan Prokurorluğunda hərtərəfli islahatlara start verilmiş, qanunun aliliyi prinsipinin reallaşması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının təmin olunması onun fəaliyyətinin əsas istiqaməti olmuşdur. Prokurorluğun fəaliyyətini tənzim edən yeni qanunvericilik qəbul olunduqdan sonra prokurorluq orqanlarında köklü islahatlar həyata keçirilərkən prokurorluğun strukturunda fəaliyyəti bu təsisatın yeni vəzifə və funksiyaları ilə uzlaşmayan və bu səbəbdən də fəaliyyətləri səmərəli olmayan bir sıra qurumlar ləğv edilmiş, Baş Prokurorluğun strukturu və fəaliyyəti təkmilləşdirilərək, onun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət, məhkəmələrdə dövlət ittihamının müdafiəsini və cinayət işlərinin istintaqını həyata keçirən, habelə digər sahələr üzrə müvafiq vəzifələri icra edən struktur qurumları yenidən təşkil olunmuşdur.

Həmin müşavirədəki nitqində ulu öndərimiz demişdir: “Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə-işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir”. Müdrik və uzaqgörən rəhbərin bu tələb və tövsiyəsi hər bir prokurorluq işçisi üçün həyat və fəaliyyət meyarıdır.

Prokurorluq orqanlarına işə qəbulun 2002-ci ildən başlayaraq indiyədək tam aşkarlıq şəraitində, şəffaf prosedurlar əsasında, ictimaiyyətin, qeyri-hökumət və beynəlxalq təşkilatların, kütləvi informasiya vasitələrinin iştirakı ilə keçirilmiş müsabiqələr nəticəsində prokurorluq orqanlarında qulluğa qəbul olunmuş işçilərinin yarısından çoxunu gənc hüquqşünaslar təşkil edir.

Ulu öndər Heydər Əliyevin apardığı hüquqi islahatlar çərçivəsində keçirilən referendumun nəticəsi olaraq 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər nəticəsində prokurorluq orqanlarına qanunvericilik təşəbbüsü hüququ verilməsi də bu orqanlara göstərilən etimadın göstəricisidir.

Sonrakı dövrdə də Ulu öndər Heydər Əliyevin layiqli davamçısı möhtərəm Prezident cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə prokurorluq orqanlarında islahatlar yeni dövrün tələbləri səviyyəsində məqsədyönlü şəkildə davam etdirilmişdir. Ulu öndərimizin siyasi kursunu uğurla davam və inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi məqsədilə bir sıra zəruri tədbirlər həyata keçirilmişdir.

Son on beş il ərzində hüquqi islahatlar çərçivəsində Prezident İlham Əliyev Respublika Prokurorluğunun da fəaliyyətinin daha səmərəli şəkildə təşkil olunması, müasir standartlara və müvafiq beynəlxalq konvensiyaların tələbələrinə cavab verməsi məqsədilə taleyüklü qərarlar qəbul etmişdir. Eyni zamanda prokurorluq orqanlarının fəaliyyətini də özündə ehtiva edən bir sıra mühüm qanunvericilik aktları qəbul olunmuş, prokurorluğun yeni dövrə uyğun fəaliyyətini nizama salan, çoxsaylı normativ-hüquqi aktlar hazırlanaraq icraya yönəldilmişdir. Bu sahədə həyata keçirilən tədbirlər nəticəsində prokurorluğun insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəçisinə çevrilməsi təmin edilmiş, onun mütəşəkkil cinayətkarlıqla, o cümlədən korrupsiya ilə mübarizədə imkanları daha da genişlənmişdir. Bu mübarizə ölkə rəhbərinin siyasi iradəsinə söykənir, cəmiyyət həyatının daha da şəffaflaşmasına xidmət edir. Qürur hissi ilə vurğulamaq istərdim ki, Prezident İlham Əliyev tərəfindən prokurorluğun fəaliyyətinin dünya standartları səviyyəsində təkmilləşdirilərək, ən yüksək beynəlxalq tələblərə uyğun formalaşdırılması prosesi həyata keçirilməklə, prokurorluq orqanlarına hərtərəfli qayğı və diqqət göstərilir, prokurorluq orqanları əməkdaşlarının fəaliyyətini daim yüksək qiymətləndirilir, onların sosial vəziyyətinin yaxşılaşdırılması üçün müvafiq tədbirlər həyata keçirilir. Fərəhlə demək olar ki, "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşməsinə dair 2009-2011-cı illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi nəticəsində prokurorluq sistemində işin təşkili ən müasir standartlar səviyyəsinə çatdırılmışdır. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması ilə nəticələnmişdir.

Hazırda ölkəmizdə müxtəlif sahələr üzrə uğurla davam edən inkişaf prosesləri məntiqi ardıcıllıqla bir-birini tamamlayır. Azərbaycanda modernləşmə, yeniləşmə dövlət siyasətinin ana xəttini təşkil edir, güclü ordu qurulur, ölkəmizdə informasiyalı cəmiyyətin formalaşması, əldə edilən iqtisadi mənfəətlərin qloballaşan dünyanın ən qiymətli sərvəti rolunda çıxış edən insan kapitalına çevrilməsi üçün məqsədyönlü addımlar atılır, informasiya texnologiyalarının son nailiyyətləri daha böyük sürətlə Azərbaycan həyatının ayrılmaz bir hissəsinə çevrilir. Cənab Prezident İlham Əliyevin rəhbərlik dövrü Azərbaycan tarixinə iqtisadi islahatlar dövrü kimi daxil olub. Hər bir ildə daha böyük təkmilləşmənin, yeniləşmənin şahidi oluruq. Azərbaycan bu gün beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan kimi qəbul olunur. Ölkəmizə gələn qonaqlar inkişafdan heyrətlərini gizlətmirlər. Ölkəmizin iqtisadi inkişafı möcüzə kimi dəyərləndirilir. Energetika, nəqliyyat, idman, turizm və digər sosial sahələrdə reallaşdırılan bir çox beynəlxalq əhəmiyyətli nəhəng layihələrin və iri miqyaslı tədbirlərin gerçəkliyə çevrilməsi, eyni zamanda texnoloji inkişaf sahəsində telekommunikasiya və ərazıləri müşahidə peyklərinin orbitə buraxılmaqla, Azərbaycanın dünyanın məhdud olan kosmik klubunun üzvü olması, nəinki Cənubi Qafqaz regionunun, ümumilikdə Avropanın gələcək taleyinin xeyli dərəcədə asılı olduğu irimiqyaslı qlobal layihələrdə Azərbaycanın əsas tərəf kimi iştirakı beynəlxalq sferada müstəqil dövlətimizin mövqelərinin daha da gücləndirilməsini, onun xarici investisiyalar üçün açıq və cəlbedici ölkə, etibarlı tərəfdaş imicinin formalaşmasını təmin etmiş və regionun ən vacib ölkəsinə çevirmişdir. Azərbaycanın getdikcə artan beynəlxalq nüfuzu ən ağrılı problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlarda da özünü qabarıq şəkildə hiss etdirməkdədir. Ölkə başçısı İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində

son illər ərzində bir çox mötəbər beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi dəstəkləyən bir sıra qərar və qətnamələr qəbul etmişdir. Əldə olunan diplomatik uğurlarla yanaşı Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu döyüş meydanında da böyük qələbələrə nail olaraq işğal altında olan torpaqlarımızın bir hissəsini azad etmişdir. Bütün bu uğurlar ölkəmizin hər bir vətəndaşına əmin olmağa əsas verir ki, Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan bütün digər torpaqlarımızın azad ediləcəyi, soydaşlarımızın yurdlarına qayıdacağı və həmin torpaqlarda Azərbaycan bayrağının dalğalanacağı gün uzaqda deyil.

Genişmiqyaslı islahatlar zamanı idarəçilik sistemində təkmilləşməyə uyğun olaraq vitse-prezidentlik institutunun yaradılması, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. Bütün fəaliyyətini Azərbaycan dövlətinin, dövlətçiliyinin inkişafına və möhkəmləndirilməsinə yönəldən, ölkəmizdə xeyriyyəçilik və mesenatlıq ənənələrini canlandıraraq xeyirxahlığa meyl, başqasının dərdinə şərik olmaq, köməyə ehtiyacı olana yardım əlini uzatmaq kimi hiss və bacarıqları aşılayan, yeni cəmiyyət quruculuğunda fəal iştirak edən Birinci vitse-prezidentin xidmətlərinin miqyası genişdir. Azərbaycan xalqı Mehriban xanım Əliyeva ilə, onun nüfuzu ilə haqlı olaraq fəxr edir, ondan nümunə götürür, hər kəs onun simasında ehtiyacı olanlara yardım əlini uzatmağa hazır olan etibarlı dayaq və doğma insan görür. Bu gün ölkəmizdə mərhəmət, qayğı və xeyriyyəçilik ənənələrini dirçəldən, yüksək təşkilatçılıq bacarığına və zəngin iş təcrübəsinə malik Mehriban xanım Əliyevanın rəhbərliyi altında təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə həyata keçirilən müxtəlif layihələr və əldə olunan uğurlar ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verməklə vətəndaşların müsbət qiymətini alaraq, müasir Azərbaycan tarixinin bir hissəsinə çevrilmişdir. Ölkənin Birinci xanımının rəhbərliyi ilə fəaliyyət coğrafiyası artıq ölkəmizin sərhədlərini aşmış Heydər Əliyev Fondu tərəfindən xarici ölkələrlə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması məqsədi ilə müxtəlif xarici dövlətlərdə keçirilən sərgi, forum və konfranslar, həmçinin reallaşdırılan humanitar yardım və xeyriyyəçilik tədbirləri, eyni zamanda digər layihələr Azərbaycan tarixinin, mədəniyyətinin, incəsənətinin, milli-mənəvi dəyərlərinin beynəlxalq aləmdə tanıdılmasında, təbliğində və qorunmasında əvəzsiz xidmətlər göstərməklə ölkəmizin beynəlxalq aləmdə günü-gündən artan nüfuzunun daha da möhkəmləndirilməsinə öz misilsiz töhfəsini vermişdir.

Məlum olduğu kimi, 11 aprel 2018-ci il tarixdə cənab İlham Əliyev xalqımızın böyük etimadını və mütləq əksəriyyətinin səsini qazanaraq yenidən ölkə Prezidenti seçilmişdir. Prezident seçkiləri şəffaf, ədalətli, azad şəkildə keçirilmiş və seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini tam şəkildə əks etdirmişdir. Müdrik xalqımız bu seçkilərdə yüksək fəallıq göstərib, sürətli inkişafın davam etdirilməsinə, ölkəmizin daha da çiçəklənməsinə, daha böyük qələbələrin qazanılmasına, əldə olunan uğurlarımızın bütün sahələrdə daha da artırılmasına, beynəlxalq arenada nüfuzumuzun daha da qüdrətlənməsinə, əmin-amanlığın qorunmasına, sabitliyə, tərəqqiyə, yüksəlişə səs verərək son 15 ildə görülən möhtəşəm işlərə yüksək qiymət verməklə, qayğısız, işıqlı, təhlükəsiz, nurlu və səadət dolu xoşbəxt gələcəyimizi təmin etmişdir. Bu, xalqın ulu öndər Heydər Əliyev ideyalarına və siyasətinə sadiqliyinin bariz nümunəsidir.

Azərbaycan xalqı möhtərəm Prezidentimiz İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın həyata keçirdikləri siyasətin uğurlarının bələdçisi kimi daim onları dəstəkləyir, sabaha inamla addımlayır. Hər gününü tarixə bir uğur səhifəsi kimi yazan Azərbaycanın qarşısında daha geniş imkanlar mövcuddur. Ulu öndər Heydər Əliyevin ideyaları Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin əsasıdır.

Bu gün biz ümummilli liderin xalqımıza miras qoyduğu hüquqi, dünyəvi və demokratik Azərbaycan dövlətinin daha da güclənməsi üçün bir vətəndaş olaraq əlimizdən gələni etməli, insan hüquq və azadlıqlarının təminatı, müdafiəsi sahəsində Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə dəstək verməliyik.

**Elmar Camalov,**
*Şəki rayon prokuroru,*
*baş ədliyyə müşaviri*
“Şəki bələdiyyəsi” qəzeti, mart 2018-ci il

# Heydər Əliyevin ölkənin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda gördüyü işlər

**Azərbaycanın tarixi salnaməsinin ən önəmli səhifələrini təşkil edən ümumxalq liderinin xalqımızın rifahı, ölkəmizin işıqlı gələcəyi naminə gördüyü işlər misilsizdir. Hər bir sahədə nail olduğumuz uğurlar, əldə olunan nailiyyətlər, müstəqil və demokratik Azərbaycan anadan olmasının 95 illik yubileyini iftixar hissi ilə qeyd etdiyimiz ulu öndərin xalqımıza bəxş etdiyi ən dəyərli mirasdır.**

Azərbaycanın dünəni, bu günü, sabahı, işıqlı gələcəyi ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. "Mənim həyatım xalqa məxsusdur və bundan sonra qalan hissəsini də xalq üçün əsirgəməyəcəm" — deyən ümummilli liderimiz Heydər Əliyevin siyasi fəaliyyətinin bütün dövrlərində gördüyü işlərin əsasında demokratiyaya sadiqlik, müasirlik və yenilik kimi ülvi prinsiplər dayanır. Heydər Əliyev düşünülmüş və məqsədyönlü siyasəti ilə yeni Azərbaycan qurmuş, onun iqtisadi və siyasi inkişafını təmin etmiş, müstəqil dövlətimizi uğurlu gələcəyə aparan yolları müəyyənləşdirmişdir. Həmin yol bu gün Azərbaycanı dünyada sabitlik diyarı, iqtisadiyyatı sürətlə inkişaf edən, sivil, hüquqi, dünyəvi dövlət kimi tanıdır və qəbul etdirir. Heydər Əliyev sözün əsl mənasında Vətənin böyük oğlu, liderlər lideri, bənzərsiz dövlət xadimi idi. Sağlığında millət atası olmağı bacardı, bu zirvəyə ucaldı və xalqın sevgisini qazandı. Ulu öndər müasir Azərbaycanın yaradıcısı və dövlətçiliyimizin qarantı oldu.

Heydər Əliyev 34 illik rəhbərliyi dövründə respublikamızı hərtərəfli inkişafa, tərəqqiyə çatdırdı. Vətənimizin ən ağır vaxtlarında, ən çətin məqamlarında belə onu təklənməyə, dağılmağa qoymadı. İndi bütün dünyada səsi eşidilən, ən super dövlətlərin belə hesablaşdığı Azərbaycan bu fenomenal şəxsiyyətin ən parlaq əsəridir.

Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin siyasi kursu nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamış və ölkəmizi dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevirmişdir. Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli–mənəvi dəyərlərə qayıdış Heydər Əliyevin adı ilə bağlıdır.

Ölkəmizin Əsas Qanunu – Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsiplərinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müasir dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir. Dahi şəxsiyyət Heydər Əliyev hələ hakimiyyətinin birinci mərhələsində milli təfəkkürümüzü repressiya xofundan, təzyiq və təhdidlərdən xilas etmiş, milli şüurun yüksəlişinə xidmət edən ardıcıl tədbirlər həyata keçirmişdir. Ümummilli liderin Azərbaycanda rəhbərliyə gəlişi cəmiyyətdə hüquqi münasibətlər sisteminin xarakterində pozitiv dəyişikliklərə səbəb olmuş və cəmiyyətdə hüquqi təfəkkürün, hüquqi düşüncə tərzinin, hüquqi mədəniyyətin, ümumilikdə hüquq elminin inkişafının keyfiyyətcə yeni mərhələsinə təkan vermişdir. Həmin illərdə respublika rəhbərliyi səviyyəsində keçirilən müxtəlif tədbirlər də məhz bu məqsədlərin real həyatda tətbiqi məqsədini daşımışdır.

Bu günün zirvəsindən baxdıqca o illərdə Heydər Əliyevin xalqının hüquqlarını müdafiə edən, haqqı nahaqqa verməyən, milliləşdirmə siyasəti aparmaqla

həm də ziyalı elitasını sərt təqiblərdən qoruyan fenomenal lider keyfiyyətləri daha qabarıq sezilir. Azərbaycan xalqı dahi liderinin rəhbərliyi altında yüksək iradə sərgiləməklə milli yaddaşını, mənəvi, əxlaqi dəyərlərini, tarixi dövlətçilik ənənələrini qorumaq əzmini toplaya bilmiş, dövlət müstəqilliyi üçün zəruri potensial formalaşdırmışdır.

Keçmiş imperiya daxilində hansı qlobal proseslərin getdiyini daha dərindən müşahidə etmək imkanına malik olan Heydər Əliyev Azərbaycanın nə vaxtsa müstəqillik əldə edəcəyini öncədən görmüş, bu prosesi sürətləndirən mühüm addımlar atmışdır.

Ulu öndər 1982-ci ildən sonra SSRİ–ni idarə edən aparıcı simalardan biri kimi Kremldə çalışdığı dövrdə də Azərbaycanın gələcək müstəqilliyinə xidmət edən bir sıra addımlar atmış, respublikamıza qarşı ayrı-seçkilik siyasətinə qarşı çıxmış, ermənilərin məkr-li torpaq ilhaqı siyasətinə qarşı barışmaz mövqe tutmuş, Qorbaçov rejimini kəskin tənqid etmişdir. Məhz bu qətiyyətli və prinsipial mövqelərinə görə 1987-ci ildə Sov.İKP MK–nın Siyasi Bürosunun üzvlüyündən uzaqlaşdırılan ulu öndər Heydər Əliyev sonrakı mərhələdə də Azərbaycanla bağlı siyasi proseslərə biganə qalmamış, 90-cı illərin əvvəllərində Naxçıvana qayıdaraq zamanın diktəsi ilə siyasi proseslərdə fəal iştirak etmiş, Azərbaycanın dövlət müstəqilliyinə real zəmin formalaşdırmışdır. 1991-ci ilin 18 oktyabrında qüdrətli dövlət xadimi Heydər Əliyevin də əsas təşəbbüskarlarından biri kimi imza atdığı "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı" ilə ölkəmizin istiqlaliyyəti bütün dünyaya bəyan edilmişdir. 1991-ci ilin oktyabrından 1993-cü ilin iyununadək ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, eyni zamanda Azərbaycanın müstəqilliyi üçün real təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, hüquqi nihilizmin, xaos və anarxiya mühitinin dərinləşməsi göstərdi ki, ölkəni yaranmış acınacaqlı vəziyyətdən yalnız Heydər Əliyev kimi müdrik və uzaqgörən şəxsiyyət xilas edə bilər. Ümummilli lider 1993-cü ildə xalqın təkidli çağırışına cavab verərək hakimiyyətə qayıtdı, peşəkar siyasətçiyə xas müdrik addımları ilə Azərbaycanı vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas etdi, respublikamızın ərazi bütövlüyünə, suverenliyinə, dövlətçiliyinə qarşı çıxan qanunsuz silahlı qüvvələr zərərsizləşdirildi, dövlət çevrilişi cəhdlərinin qarşısı qətiyyətlə alındı, bir sözlə, ölkədə qanunçuluğun tam bərpası istiqamətində bütün addımlar atıldı. Sonrakı mərhələdə demokratik və hüquqi dövlət quruculuğu prosesinin uğurlu həyata keçirilməsi, yeni iqtisadi münasibətlər sisteminin formalaşdırılması, ən əsası, ictimai-siyasi sabitliyin qorunub saxlanılması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

1995-ci ildə bilavasitə ulu öndər Heydər Əliyevin müəllifliyi və demokratik dəyərlər və prinsiplərə uyğun hazırlanmış və ümumxalq səsverməsi ilə qəbul edilmiş ilk milli Konstitusiyamızın müddəalarının dörddə biri insan və vətəndaş hüquq və azadlıqlarına həsr edilmiş, hakimiyyət bölgüsü prinsipi təsbit olunmuşdur.

Konstitusiyamızın 24-cü maddəsində əsas insan hüquq və azadlıqlarının toxunulmaz, pozulmaz və ayrılmaz olması qeyd edilməklə yanaşı, təbii hüquqların əsas xüsusiyyətləri öz əksini tapmışdır. Konkret sosial şəraitdən və dövlətdən asılı olmayaraq təbii hüquqlara insanlar doğulduğu andan yiyələnirlər. Yaşamaq hüququ, bərabərlik hüququ, azadlıq hüququ, mülkiyyət hüququ və təhlükəsiz yaşamaq hüququ təbii hüquqlardandır. Konstitusiyada əsas insan və vətəndaş hüquqlarının və azadlıqlarının təsbit edilməsi hər bir şəxsin başqaları, o cümlədən dövlət qarşısında məsuliyyət və vəzifələrin müəyyən edilməsi ilə uzlaşır. Bu hüquqlar Azərbaycanın 1995-ci il Konstitusiyasında əsas müddəalar şəklində öz əksini tapmışdır.

Konstitusiyanın qəbulundan sonra dahi öndərin rəhbərliyi ilə aparılmış məhkəmə–hüquq islahatı nəticəsində bütün hüquq təchizatlarının fəaliyyətini tənzimləyən yeni mütərəqqi qanunlar, o cümlədən "Konstitusiya məhkəməsi" haqqında, "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat–axtarış fəaliyyəti haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və digər qanunlar, əvvəlkilərdən prinsipcə köklü surətdə fərqlənən Mülki və Mülki-Prosessual, Cinayət, Cinayət-Prosessual, Cəzaların icrası və s. məcəllələr qəbul edilmişdir. Bütün bu qanunlar demokratik prinsiplər və beynəlxalq hüquq normalarının tələblərinə uyğun hazırlanmış və beynəlxalq ekspertlər tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının tə-

min edilməsi istiqamətində həyata keçirilən hüquqi islahatların və milli qanunvericiliyin beynəlxalq Avropa standartlarına uyğunlaşdırılması prosesinin məntiqi davamı kimi 24 dekabr 2002-ci il tarixdə qəbul edilmiş "Azərbaycan Respublikasının insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu da tənzim etdiyi məsələlərin dairəsinə görə çox mühüm əhəmiyyət kəsb edir. Bu qanun Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsi vəziyyətinin "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına uyğunlaşdırılması məqsədi daşımışdır. Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin və insan hüquqlarının müdafiəsinə xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunverici və maddi-sosial bazanın yaradılması ölkəmizdə həyata keçirilən mühüm islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının memarı ümummilli lider Heydər Əliyevin böyük qayğı və dəstəyi sayəsində mümkün olmuşdur. Prokurorluq orqanlarında aparılan hərtərəfli islahatların ilkin əsasını və qanunvericilik bazasını 12 noyabr 1995-ci il tarixdə ümumrespublika səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası təşkil edilmişdir. Ali Qanunumuzda ilk dəfə olaraq respublikamızın dövlət quruculuğu sistemində prokurorluğun layiqli yeri müəyyənləşdirilmiş, məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydalarında təsbit edilmişdir.

Məhkəmə-hüquq islahatları çərçivəsində beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik ənənələrinə uyğun hazırlanmış "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanunun və digər qanunvericilik aktlarının Milli Məclis tərəfindən qəbul edilməsi, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativ sənədlərin Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənmə prosesi yeni mərhələyə qaldırılmış, eyni zamanda prokurorluqda işə qəbul prosesinin test üsulu ilə — tamamilə azad, şəffaf, demokratik şəraitdə aparılmasını təmin etmişdir. Məhz bunun nəticəsi olaraq prokurorluq orqanlarının yüksək savadlı, bacarıqlı gənclərlə komplektləşdirilməsində keyfiyyətcə yeni mərhələ yaranmışdır. Əgər əvvəlki dövrlərdə Azərbaycanın Avropa Şurasına qəbul edilməsində əngəllər yaradılırdısa, Heydər Əliyevin bu sahədə apardığı gərgin və səmərəli iş də öz bəhrəsini verdi. 2001-ci ilin yanvarında Azərbaycan bu mötəbər təşkilata tamhüquqlu üzv olaraq Avropa dövlətləri sırasında layiqli yerini tutdu. Respublikamız "Avropa evi"nin tamhüquqlu və etibarlı üzvünə çevrildi.

Əsası ulu öndər tərəfindən qoyulmuş islahatları uğurla davam etdirən Prezident İlham Əliyev sosial-iqtisadi inkişafın yeni keyfiyyət mərhələsində hüquq-mühafizə orqanlarında liberal islahatların dərinləşdirilməsini son dərəcə vacib sayır.

Prezident İlham Əliyevin ölkədə insan hüquq və azadlıqlarının qorunmasına, məhkəmə müdafiəsi vasitələrinin səmərəliliyinin artırılmasına böyük əhəmiyyət verərək qanunvericilik təşəbbüsü hüquqi qaydasında Milli Məclisə təqdim etdiyi ilk qanun layihələrindən biri də məhz Konstitusiya Məhkəməsi haqqında yeni sənəd olmuşdur. Eyni zamanda məhkəmələrin işinin təkmilləşdirilməsi və beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə 2004-cü ilin dekabrında "Məhkəmə-Hüquq Şurası haqqında" qanuna bir sıra mütərəqqi dəyişikliklər edilmişdir. 2005-ci il 30 dekabr tarixli "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, həmin qanunla "Məhkəmələr və hakimlər haqqında", habelə "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarına bir sıra dəyişikliklər və əlavələrin edilməsini bu sahədə islahatların davamı kimi xarakterizə etmək olar.

Ulu öndər Heydər Əliyevin xalqımıza bəxş etdiyi uğurlar, dəyərlər saysız-hesabsızdır. Respublikamızın demokratik, hüquqi və dünyəvi bir dövlət kimi inkişafı yolunda hər bir azərbaycanlının fəal iştirakı ümummilli liderin xatirəsinə hörmətdir, onun bizə bəxş etdiyi mirasa, Müstəqil Azərbaycana ən dəyərli töhfədir.

**Namiq Məmmədov,**
*Xaçmaz rayon prokurorunun müavini,*
*ədliyyə müşaviri*
"Xaçmaz" qəzeti, 27 aprel 2018-ci il

# Mütərəqqi məhkəmə-hüquq islahatlarinin müəllifi

**Xalqımız müstəqil Azərbaycan dövlətinin qurucusu və banisi ümummilli lider Heydər Əliyevin 95 illik yubileyini böyük təntənə ilə qeyd edir. Əbədiyaşar liderimizin parlaq xatirəsi təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da böyük hörmətlə, ehtiramla anılır.**

Bu əlamətdar yubiley Azərbaycanın dövlət müstəqilliyini qoruyub möhkəmləndirmiş, ölkəmizi davamlı inkişaf yoluna çıxarmış, onu dünya birliyinə qovuşdurmuş əvəzsiz tarixi şəxsiyyətə-Heydər Əliyevə olan sonsuz sevginin, ümumxalq məhəbbətinin bariz nümunəsidir. Ulu öndərin Vətən və xalqımız qarşısında xidmətləri o qədər çoxdur ki, onun əsl qiymətini zaman, gələcək nəsillər verəcəkdir.

Ümummilli liderin onilliklər üçün müəyyənləşdirdiyi inkişaf strategiyasının əhəmiyyətli hissəsini ölkəmizdə müasir, dünyəvi dövlət quruculuğu və hüquq sisteminin islahatları təşkil edir. Çünki, 70 illik kommunist rejiminin məhsulu olan hüquqi sistem azad cəmiyyətin formalaşmasına, bazar iqtisadiyyatının, azad sahibkarlığın inkişafına, vətəndaşların hüquq və azadlıqlarının etibarlı şəkildə təmin edilməsinə imkan vermirdi.

1993-cü ilin iyun ayının 15-də xalqın təkidli tələbi ilə böyük öndərin siyasi hakimiyyətə qayıdışı sayəsində qayəsini müstəqillik, azərbaycançılıq, ədalət, demokratiya, hüquqi, sivil dövlət quruculuğu, ümummilli və ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu. Müəllifi məhz Heydər Əliyev olan, 1995-ci ildə qəbul edilmiş ilk Milli Konstitusiyamız-hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunu, insan və vətəndaş hüquqlarının üstünlüyünü və hakimiyyət bölgüsünü müstəqil Azərbaycanın gələcək inkişaf yolu kimi müəyyənləşdirdi.

Ulu öndərin qeyd etdiyi kimi, demokratiyanı bir tərəfdən insan hüquqları, digər tərəfdən isə dövlət quruculuğu və dövlət hakimiyyətinin təmin olunması təşkil edir. Ona görə də aparılan hüquqi islahatlar çərçivəsində ədliyyə, prokurorluq, daxili işlər və digər hüquq-mühafizə orqanlarının fəaliyyəti hüquqi dövlət konsepsiyasına uyğun təkmilləşdirilmiş, yeni qanunvericilik bazası yaradılmış, onların maddi bazası əhəmiyyətli dərəcədə gücləndirilmişdir. Ölkə prokurorluğu çoxillik tarixə malik olsa da, müasir prokurorluq sisteminin formalaşması və müasirləşdirilməsi ümummilli liderin adı ilə bağlıdır. İlk Milli Konstitusiyamızda prokurorluğa ayrıca maddə həsr edilərək, dövlət idarəetmə sistemində bu təsisatın yeri müəyyənləşdirilmiş, ilk dəfə olaraq prokurorluq orqanlarına konstitusion status verilmişdir.

Müasir Azərbaycan Respublikasının prokurorluq orqanlarının Konstitusiya səviyyəsində 1918-1920-ci illərdə Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olmasının təsdiqi ümummilli liderin xalqımızın tarixi irsinə qayğılı münasibətinin bariz nümunəsidir. Məlum olduğu kimi Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində yaradılaraq əsası qoyulmuş milli prokurorluq orqanları məhkəmə sistemində fəaliyyət göstərmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində onun 17 iyul 1998-ci il tarxli sərəncamı ilə 1 oktyabr prokurorluq işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir.

Ulu öndərin rəhbərliyi ilə 1998-ci ilin 28 noyabr tarixində keçirilmiş Azərbaycan prokurorluğu orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda dərin məzmunlu nitq söyləyən müdrik rəhbər demişdir: "İlk dəfədir ki, Azərbaycanda prokurorluğa belə diqqət və qayğı göstərilir və prokurorluq günü, prokurorların peşə bayramı müəyyən olunubdur. Hesab edirəm ki, müstəqil Azərbaycanın prokurorluğu və prokurorluq orqanlarının əməkdaşları belə bir bayrama layiqdirlər."

Ümummilli lider həmin yığıncaqda prokurorluq fəaliyyətini ağır, çətin, eyni zamanda, çox şərəfli və hörmətli peşə adlandırmışdır. Müdrik rəhbərin prokurorluq işçilərinin əməyinə verdiyi yüksək qiymət, bu sahəyə aid göstəriş və tövsiyələri hər bir prokurorluq işçisini xalqa və dövlətə daha sədaqətlə xidmət etməyə ruhlandırmışdır.

Ulu öndərin həyata keçirdiyi məhkəmə-hüquq islahatları çərçivəsində 1999-cu ilin dekabr ayında qəbul edilmiş "Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanun"unda prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik prinsiplərə uyğunlaşdırılması, bu təsisatın sistemi və təşkili, səlahiyyətləri və vəzifələri, kadr təminatı və işçilərin sosial müdafiəsi, fəaliyyəti ilə bağlı digər məsələlərin

beynəlxalq standartlara uyğun tənzimlənməsi nəzərdə tutulmuşdur.

2000-ci il aprel ayının 26-da ümummilli liderimiz Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə görüşündən sonra həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində prokurorluq orqanlarında əsaslı islahatlar və struktur dəyişiklikləri aparılmış, zəruri normativ- hüquqi baza yaradılmış, kadrların seçilməsinin yeni mütərəqqi formalarının tətbiqi təmin edilmiş, dövlətçiliyin və milli maraqların etibarlı qorunması, cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işi ən yüksək tələblər səviyyəsinə çatdırılmışdır.

Prokurorluğun dövlət səviyyəsində rolunun artırılması istiqamətində müvafiq tədbirlər görülmüş, 2002-ci il sentyabr ayının 19-da qüvvəyə minmiş Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında referendum aktına əsasən prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilmişdir ki, bu da prokurorluğun hüquq sistemindəki yerini və rolunu daha da gücləndirmişdir.

Beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik ənənələrinə uyğun hazırlanmış “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında”, “Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında”, “Prokurorluğun rəsmi emblemi haqqında” və digər qanunvercilik aktlarının qəbul edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənmə prosesi beynəlxalq standartlara cavab verən səviyyəyə yüksəlmişdir.

“Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında” 2002-ci il 8 oktyabr tarixli sərəncamı keçid dövrünun çətinliklərinin mövcud olduğu bir şəraitdə ümummilli liderin prokurorluq işçilərinini maddi və sosial təminatının yaxşılaşdırılmasına göstərdiyi misilsiz qayğının parlaq nümunəsidir. Ümummilli liderin imzaladığı 2001-ci il 19 iyun tarixli fərmanı ilə təsdiq edilmiş “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə”nin icraya yönəldilməsini prokurorluq orqanlarında aparılan islahatların ən böyük uğurlarından biri hesab etmək olar. Prokurorluq orqanlarına işə qəbulun demokratik prinsiplər əsasında, şəffaf prosedurlarla müsabiqə yolu ilə həyata keçirilməsinin nəticəsidir ki, prokurorluğun kadr tərkibi hərtərəfli dünyagörüşə, yüksək mənəvi keyfiyyətlərə malik, savadlı, vətənpərvər, dövlətçilik ideyalarına sadiq gənc hüquqşünaslar hesabına yeniləşmişdir.

Ümummilli liderin söylədiyi “Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir” kəlamı prokurorluq orqanlarında aparılan kadr siyasətinin əsas meyarına çevrilmişdir.

Xalqımızın böyük oğlu, dünya şöhrətli dövlət xadimi, müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin siyasi kursunu və inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyəti dünya standartları səviyyəsində təkmilləşdirilərək dövrün tələblərinə cavab verən müasir, sivil bir orqana çevrilmişdir. Cənab Prezidentin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı” prokurorluğun tarixində yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşdirmə strategiyasının uğurla həyata keçirilməsi üçün xüsusi əhəmiyyətə malik olmuşdur. Bu Proqram hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi üçün hərtərəfli zəmin yaratmışdır.

Ulu öndərin hüquqi və demokratik dövlət quruculuğu xəttini yeni dövrün tələblərinə uyğun davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ötən 15 ildə ölkədə insan və vətəndaş hüquq və azadlıqlarının təmini istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Aparılan islahatlar deməyə əsas verir ki, hər bir vətəndaşın layiqli Prezidenti olacağını bəyan etmiş dövlətimizin başçısı verdiyi vədini əməli, konkret işlərlə doğrultmuş, ölkəmizin hüquq sistemində də daha da təkmilləşdirilməni təmin etmişdir.

Bu gün müstəqil Azərbaycan ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi yolla irəliləyir, məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, insan hüquq və azadlıqlarının təmini, demokratikləşmə sahəsində yeni-yeni uğurlara imza atır.

**Elçin Hacıyev,**
*Lənkəran hərbi prokuroru,*
*ədliyyə polkovniki*
“Respublika” qəzeti, 9 may 2018-ci il

# Prokurorluq orqanları Heydər Əliyev siyasətinə daim sadiq qalaraq qanunun aliliyinə dönmədən əməl edirlər

**Aqillər dahi şəxsiyyətləri uca, möhtəşəm dağa bənzədirlər. Ondan uzaqlaşdıqca, əzəməti daha aydın nəzərə çarpır. Bu mənada ulu öndərimiz Heydər Əliyevin fiziki yoxluğunu illər bizdən ayırdıqca, onun güc-qüdrəti, iradəsi, siyasi zəkası, vətəndaşlıq hünəri sayəsində gerçəkləşən ideyaları gözlərimiz önündə daha aydın canlanır. Ümummilli liderin Vətən, xalq qarşısında böyük xidmətlərinə görə qərinələr, əsrlər boyu düşüncələrdə, qəlblərdə yaşayacağı qənaəti möhkəmlənir.**

Xatırladım ki, böyük şəxsiyyət 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi kimi ali vəzifəyə seçiləndə respublikada sosial-iqtisadi həyatın bütün sahələrində bir gerilik, ətalət hökm sürüdü, bu isə xalqın milli-mənəvi birliyinə öz mənfi təsirini göstərirdi. Ona görə də həmin vaxt dahi öndərin ən mühüm vəzifələrindən biri respublikada iqtisadi potensialın dağılmasının, ictimai-siyasi həyatda özünü kəskin büruzə verən tənəzzülün qarşısını almaqdan ibarət idi. O illərdə respublikada kosmopolit bir ovqat hökm sürdüyündən milli kadrların hazırlanmasına, milli dilin inkişaf etdirilməsinə və dövlət idarəetmə strukturlarında çalışan məmurların azərbaycanlı olmasına diqqət yetirilməsi istiqamətində ciddi addımlar atılmır, hətta bu yöndə irəli sürülən təşəbbüslərin qarşısı kəskin şəkildə alınırdı. Belə bir şərait isə şübhəsiz ki, milli şüura malik olan, milli düşüncə ilə yaşayan və milli mentalitetin daşıyıcısı sayılan kadrların yetişməsinə öz mənfi təsirini göstərirdi.

Respublikada yaşanan iqtisadi böhran nəticəsində əhalinin sosial durumu ağırlaşmışdı. Mövcud tənəzzülü aradan qaldırmaq üçün ümummilli liderin rəhbərliyi ilə, ilk növbədə, yeni konseptual səviyyədə yanaşma yolları işlənib hazırlandı, köklü struktur dəyişikliklərinə başlanıldı, təsərrüfatçılıqda və iqtisadi həvəsləndirmədə yeni üsulların tətbiqi diqqət mərkəzində saxlanıldı. Bununla da qısa müddət ərzində iqtisadi potensialın gücləndirilməsinə nail olundu. Azərbaycanın iqtisadi həyatında o vaxtadək nəzərə çarpmayan uğurlar əldə edildi.

Yeri gəlmişkən, heç kəsə sirr deyil ki, Azərbaycan dövlət suverenliyi və iqtisadi müstəqillik əldə etdiyi ötən əsrin 90-cı illərinin əvvəllərində xarici iqtisadi əlaqələrin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına inteqrasiya prosesinin gerçəkləşməsi də məhz o dövrdə əsası qoyulan potensiala əsaslanırdı.

Ümummilli lider Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində çalışdığı illər ərzində Bakıda genişmiqyaslı tikinti-quruculuq, abadlıq işləri görüldü, müasir Azərbaycanın memarlıq ansamblı yaradıldı, qədim tarixə malik neçə-neçə memarlıq abidəsi isə bərpa edildi, paytaxtın ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan tarixi şəxsiyyətlərin əzəmətli heykəlləri ucaldıldı, onların ev-muzeyləri fəaliyyətə başladı, yeni inzibati mərkəzlər, çoxsaylı yaşayış binaları tikilərək istifadəyə verildi.

O zaman Azərbaycanda ali təhsil müəssisələrinin, onların fakültə və ixtisaslarının sayı artırılmaqla bərabər, yüzlərlə gənc keçmiş sovetlər ittifaqının nüfuzlu ali məktəblərinə təhsil almağa göndərildi. Bununla ulu öndər Azərbaycanın elmi və kadr potensialını yüksəltmək, gələcəyin müstəqil ölkəsi üçün gərəkli kadrlar yetişdirmək, dəyərli təhsil ənənəsinin əsasını qoymaq, xalqımızın milli-mənəvi, əxlaqı dəyərlərinin təbliğini reallaşdırmaq məqsədi güdürdü.

Burada həmin vaxt ölkəmiz üçün taleyüklü bir məqamı da xatırlatmaq istərdim. Heydər Əliyevin respublikanı idarə etdiyi 1970-1980-ci illərdə

azərbaycanlı hərbçi kadrların yetişdirilməsinə xüsusi önəm verməsinin nəticəsi idi ki, Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılması ilə sovet ordusu sıralarında azərbaycanlı zabitlərin çəkisi artdı və həmin zabitlər sonradan milli ordu quruculuğu prosesində mühüm rol oynadılar.

Ulu öndər gələcəyin müstəqil Azərbaycanını düşünərək, xalqın milli dövlətçilik arzularının daha da güclənməsi üçün dövlət quruculuğu sahəsində də mühüm tədbirlər həyata keçirirdi. Keçmiş SSRİ-nin xarici siyasəti çərçivəsində Azərbaycanın xarici aləmdə elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişlənməsinə böyük səy göstərirdi. Bakıda ittifaq və beynəlxalq əhəmiyyətli tədbirlər təşkil olunduğu kimi, keçmiş SSRİ respublikalarında və xarici ölkələrdə də mütəmadi şəkildə Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi. Bütün bunlar isə son nəticədə Azərbaycanın xarici ölkələrlə və orada yaşayan azərbaycanlılarla əlaqələrinin qurulması üçün zəmin yaradır, azərbaycanlıların özünəməxsus tarixi, mədəni ənənələri olan xalq olaraq tanınmasını, Bakının isə dünya miqyasında bir elm və mədəniyyət mərkəzinə çevrilməsini təmin edirdi.

Burada tarixi bir həqiqəti də xatırlatmaq istərdim. Əsrlərdən bəri milli dövlətçilik arzusunda olan xalqımız XX əsrin əvvəllərində nail olduğu müstəqilliyi çox tez itirib. Əsrin sonlarında isə dövlətimizə rəhbərlik edən şəxslərin səriştəsizliyi nəticəsində bu əvəzsiz nemət-müstəqillik əvvəlki taleni yaşamaq təhlükəsi ilə üzləşmişdi. Ölkə sosial-iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. Ümummilli lider Heydər Əliyev xalqın təkidli tələb və çağırışı ilə siyasi hakimiyyətə qayıtmasaydı, şübhəsiz ki, ikinci dəfə əldə edilən dövlət müstəqilliyimiz də məhv olacaqdı.

Bəllidir ki, ədalətin, qanunçuluğun bərqərar, üstün olduğu dövlətdə yaşamaq bütün zamanlarda hər bir xalqın arzusu olub. Azərbaycan xalqı da XX əsrin sonunda dövlət müstəqilliyini bərpa edərkən bu idealla yaşayırdı. Lakin təəssüflər olsun ki, 1991-1992-ci illərdə respublikadakı faktiki hakimiyyətsizlik, siyasi hərc-mərclik, cinayətkarlığın sürətlə artması haqq və ədalətin keşiyində durmalı olan dövlət qurumlarının fəaliyyətinin ciddi şəkildə aşınmasına, o cümlədən məhkəmə-hüquq sistemində qeyri-sağlam mühitin yaranmasına rəvac vermişdi. Heydər Əliyev 1993-cü ilin iyununda respublika rəhbərliyinə qayıdanda Azərbaycan, sözün həqiqi mənasında, iflas həddində idi, hüquqi dövlət, ədalət və qanunçuluqdan danışmaq isə, ümumiyyətlə, mümkün deyildi. Ermənistanın ölkəmizə qarşı işğalçı müharibəsinin davam etməsi, respublikada bütün sahələri bürüyən böhran, tənəzzül, siyasi didişmələr Azərbaycanı parçalanmaq və dövlət olaraq məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

Belə bir zamanda ölkəyə rəhbərliyi, onun gələcək taleyi ilə bağlı tarixi məsuliyyəti üzərinə götürən Heydər Əliyev müdriklik, ədalət, həqiqət üzərində təşəkkül tapan dövlətçilik konsepsiyası ilə milli müstəqilliyimizi əbədi və sarsılmaz etdi. Məhz böyük öndərin iradəsi, siyasi zəkası, vətəndaşlıq hünəri sayəsində dövlətçiliyimizin inkişaf yolundakı maneələr aradan qaldırıldı. Belə ki, 1994-cü ilin oktyabr və 1995-ci ilin martında dövlət çevrilişi cəhdlərinin qarşısı alınandan, ölkədə ictimai-siyasi sabitlik təmin ediləndən və qanunsuz silahlı birləşmələrin fəaliyyətinə son qoyulandan sonra Azərbaycanın sosial-iqtisadi inkişafının möhkəm hüquqi bazası yaradılmağa başlandı.

Böyük öndərin rəhbərliyi altında hazırlanan, geniş ictimai müzakirələrdən keçərək 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunan yeni Konstitusiya ölkəmizdə dövlət quruculuğunda fundamental islahatlara yol açdı. Konstitusiyada müstəqil və şəffaf məhkəmə sisteminin fəaliyyətini müəyyənləşdirən əsas prinsip və normalar öz əksini tapdı.

Heydər Əliyev siyasi hakimiyyətə qayıdandan dərhal sonra bəyan etdi ki, qarşıda əsasən iki məsələ dayanır: dövlət müstəqilliyini əbədiləşdirmək və Azərbaycan vətəndaşı üçün xaos və anarxiyadan uzaq, firavan, ədalətin bərpa edildiyi bir cəmiyyət formalaşdırmaq. Bu isə ulu öndərimizin insan hüquqlarına və ədalətə nə dərəcədə önəm verdiyini göstərirdi. Məhz həmin önəmin nəticəsi idi ki, ümummilli lider dünyanın demokratik ölkələrində mövcud olan ən mükəmməl təcrübələri də nəzərdən keçirdikdən sonra Azərbaycanda möhtəşəm hüquq

islahatlarına başladı. Həmin islahatların ən mühüm tərkib hissələrindən olan məhkəmə hakimiyyəti sahəsində nəinki respublikamızda, həm də bütün postsovet məkanında misli olmayan yeniliklərə imza atıldı.

Ulu öndər cəmiyyətdə ədalətin bərqərar edilməsini, möhkəmlənməsini arzulayırdı. Qüdrətli şəxsiyyətin aşağıdakı sözləri də onun Azərbaycanda hüquqi dövlət quruculuğuna yetirdiyi diqqətin ən bariz ifadəsi idi. “Biz hüquqi dövlət qururuq. Hüquqi dövlətin əsasını təşkil edən qanunlardır. Biz qanunsuzluqları, ədalətsizlikləri aradan götürəcəyik, ancaq bir iş qanunsuz olursa, o biri qanunsuz işlə qanunsuzluğu aradan götürmək olmaz. Bir şey ədalətsizliklə olubsa, ədalətsizliklə ədaləti bərpa etmək olmaz. Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə. Ədaləti bərpa etmək lazımdır”.

Artıq dillərdə aforizmə çevrilən bu tezis ümummilli liderin idarəçiliyində hər zaman diqqət mərkəzində saxlanılıb. Məhz elə buna görə də onun geniş fəaliyyətində zəngin mənəviyyatından qaynaqlanan qanunçuluğa, hüquq qaydalarına, ədalətə daim önəm verilib.

Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıdandan sonra Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası prioritet istiqamət kimi diqqət mərkəzində idi. Çünki xarici investorlar o illərdə sovet dönəmindən qalan qanunlarla idarə edilən respublikaya sərmayə qoymaq istəmir, mövcud şəraitdə fəaliyyət göstərməyin mümkünsüzlüyünü bildirirdilər. Ona görə də ulu öndərimiz sırf müstəqil Azərbaycanın qanunlarını, hüquq sistemini yaratmaq üçün şəxsən özünün rəhbərliyi ilə siyasi-hüquqi fəaliyyətə başlamaq qərarını verdi.

Yuxarıda xatırlatdığım kimi, müstəqilliyin ilk illərində hakimiyyətdə olan qüvvələrin səriştəsiz və yarıtmaz fəaliyyəti nəticəsində hüquq-mühafizə orqanlarının qanuni vəzifələri həyata keçirə bilməməsi ictimai həyatın ən müxtəlif sahələrində hərc-mərcliyin baş alıb getməsinə, cinayətkar ünsürlərin mütəşəkkil fəaliyyətinə, silahlı qruplaşmaların cövlan etməsinə münbit şərait formalaşdırmış, daxildə qeyri-sabit və təhlükəli vəziyyətə səbəb olmuşdu. Məhz ulu öndərimizin gərgin və məqsədyönlü fəaliyyəti nəticəsində 1993-cü ilin ikinci yarısından başlayaraq, respublikamızda cinayətkarlıq və hüquq pozuntularına qarşı barışmaz mübarizə elan edildi. Bütün hüquq-mühafizə orqanlarının fəaliyyəti cinayətkar təzahürlərə, ilk növbədə, mütəşəkkil cinayətkarlığa, korrupsiyaya və terrorizmə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə səfərbər olundu və “cəzanın labüdlüyü” prinsipinin real təmin olunması üçün müvafiq tədbirlər görüldü.

Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli surətdə hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratdı. Ümummilli liderimiz Azərbaycanın perspektiv inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək sivil Qərb dəyərlərinin cəmiyyətdə tam mənimsənilməsinə, demokratik normaların daha möhkəm intişar tapmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına xüsusi diqqət göstərdi. Bu mənada ulu öndərin 1994-cü il avqustun 9-da imzaladığı “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında” fərmanı ölkədə konstitusiyalı dövlət quruluşunun mühafizəsinə, insan hüquq və azadlıqlarının cinayətkar qəsdlərindən qorunmasına yönəldi və cinayətkarlığa qarşı mübarizədə əsaslı dönüş yaratdı.

Həmin illərdə respublikamızda separatçılıq meyillərinin və dövlət çevrilişinə cəhdlərin qarşısının alınmasında ölkə rəhbəri tərəfindən prokurorluq orqanlarının üzərinə mühüm vəzifələr qoyuldu. Prokurorluq orqanlarının əməkdaşları dövlətimizin suverenliyinə və müstəqilliyinə qarşı ağır cinayətlər törədən şəxslərin müəyyən olunub məsuliyyətə cəlb edilməsində tam məsuliyyəti ilə çalışaraq onlara göstərilən etimadı doğrultdular.

O zaman dövlət müstəqilliyimizin qorunub saxlanılmasında və daha da möhkəmləndirilməsində digər dövlət orqanları ilə yanaşı, prokurorluğun da xüsusi rolu olmuşdur. Ümummilli lider Heydər Əliyev ölkəni ağır vəziyyətdən çıxarmaq, vətəndaş müharibəsinin qarşısını almaq, qanunsuz silahlı dəstələri aşkarlayaraq ləğv etmək, təhlükəli cinayətlər törədənləri yaxalamaq və bu kimi digər

mühüm vəzifələrin yerinə yetirilməsində digər hüquq-mühafizə orqanları kimi, prokurorluğa da arxalanmış, ona inanmışdır. Ulu öndərin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyası hakimiyyət bölgüsü prinsiplərini özündə ehtiva etməklə, zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm təməl yaratmışdır.

Qeyd edim ki, dahi rəhbərin 21 fevral 1996-cı il tarixli fərmanı ilə yaradılan Hüquq İslahat Komissiyası da bu və digər qanunların təkmil, beynəlxalq təcrübə əsasında, demokratik ideallara uyğun formada hazırlanmasını gerçəkləşdirdi. Ulu öndərin "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin təmin edilməsi haqqında" və "Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" müvafiq fərmanları insan hüquq və azadlıqlarının təminatına xidmət sahəsində, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində yeni səhifə açdı.

1998-ci il iyunun 18-də ümummilli liderin müvafiq fərmanı ilə təsdiq olunan "Azərbaycanda insan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" isə hüquqi islahatlarda yeni mərhələ açdı. 1998-ci ildə Azərbaycanda məhkəmə-hüquq sisteminin ali instansiyası – Konstitusiya Məhkəməsi fəaliyyətə başladı.

Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvi də ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu faktın özü ümummilli liderin nə qədər humanist bir insan olduğunu, onun yaratdığı dövlətin isə dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübuta yetirdi. Heydər Əliyev bu barədə deyirdi: "Bütün bunlar Azərbaycan xalqının çoxəsrlik ənənələrindən irəli gəlir, ən yüksək dəyər olan insan həyatının qorunmasına təminat verir, cəmiyyətimizi insanilәşdirir, insan ləyaqətinə hörmət və ehtiramı, bütünlükdə ölkəmizdə demokratiyanın inkişafını nümayiş etdirir, xalqımızda nikbin gələcəyə inam yaradır. Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm. Ölüm cəzasının ləğvini məhz bu siyasətin məntiqi nəticəsi kimi qiymətləndirirəm".

Vurğulamaq istərdim ki, son 15 il ərzində hərbi prokurorluq işçiləri müstəqilliyimizin əbədi olması, xalqımızın səadəti, rifahı naminə Heydər Əliyev ideallarına sədaqət nümayiş etdirmiş, dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğu prosesində qanunla üzərlərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirmişlər.

Onu da xatırlatmaq istərdim ki, hazırda hərbi prokurorluq orqanları respublika hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyevin rəhbərliyi ilə ulu öndərin siyasətinə və onun ideallarına sadiq qalaraq Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi yüksək qayğı və etimadı layiqincə doğrultmaq, qanunun aliliyini, hərbi idarəçilik orqanlarında insan və vətəndaş hüquq və azadlıqlarına dönmədən əməl olunmasını, habelə cinayətkarlığa qarşı mübarizəni təmin etmək üçün bütün zəruri tədbirləri dönmədən həyata keçirirlər.

Son illər ərzində hərbi prokurorluq orqanları tərəfindən Silahlı Qüvvələrdə və qanunvericilikdə nəzərdə tutulmuş başqa silahlı birləşmələrdə qanunların icrasına nəzarət və hərbi qulluqçular tərəfindən qanunazidd hərəkətlərin törədilməsinin qarşısının alınması sahəsində çoxşaxəli tədbirlər görülüb. Məhz elə bunun məntiqi nəticəsidir ki, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizənin kəsərliliyinin və istintaq olunan cinayət işlərinə, ibtidai araşdırmaya prosessual rəhbərliyin gücləndirilməsi və işin düzgün təşkili nəticəsində hərbi hissələrdə törədilən cinayətlərin, xüsusən də qəsdən adam öldürmə, intihar, habelə fərarilik və digər bu kimi hərbi xidmət əleyhinə olan cinayətlərin sayı getdikcə azalıb.

**Fuad MƏMMƏDOV,**
*Tərtər hərbi prokuroru,*
*ədliyyə polkovniki*
"Xalq" qəzeti, 11 may 2018-ci il